www.kitabxana.net
Milli Virtual-Elektron Kitabxana

"İntellektual gənc əsgər": vətənpərvərliyin kreativ-innovativ təbliği". Elektron Kitab N 16 (14 - 2019)

İlham Əliyev

"Gecənin rəngi"

Vətənpərvərlik mövzusunda roman

YYSİB - Milli Virtual-Elektron Kitabxananın e-nəşri

YYSİB – 2019

22.01.2019

Yeni Yazarlar və Sənətçilər İctimai Birliyi
www.yysq.kitabxana.net

www.kitabxana.net

Milli Virtual-Elektron Kitabxananın təqdimatında

www.kitabxana.net

Milli Virtual-Elektron Kitabxananın təqdimatında

"İntellektual gənc əsgər": vətənpərvərliyin kreativ-innovativ təbliği". Elektron Kitab N 16 (14 - 2019)

Bu elektron kitablar Azərbaycan Gənclər Fondunun üçaylıq maliyyə dəstəyi ilə (2018-ci ildə maliyyə yardımı müsabiqəsi) Yeni Yazarlar və Sənətçilər İctimai Birliyi tərəfindən həyata keçirilən, http://www.kitabxana.net - Milli Virtual-Elektron Kitabxananın **"İntellektual əsgər": İnternet, sosial şəbəkələr, e-kitabxana, e-kitablar vasitəsilə yeniyetmə və gənclər arasında vətənpərvərliyin kreativ-innovativ təbliği"** adlı kulturoloji layihəsi çərçivəsində nəşrə hazırlanıb və yayılır.

Kreativ-bədii layihənin bu hissəsini maliyyələşdirən qurumlar:
Azərbaycan Gənclər Fondu - http://youthfoundation.az

Yeni Yazarlar və Sənətçilər İctimai Birliyi:
http://www.yysq.kitabxana.net

Bu silsilədən olan digər digər e-kitablarını buradan oxuyun:

http://kitabxana.net/?oper=eəkitabxana&cat=183

"İntellektual əsgər": İnternet, sosial şəbəkələr, e-kitabxana, e-kitablar vasitəsilə yeniyetmə və gənclər arasında vətənpərvərliyin kreativ-innovativ təbliği" adlı kulturoloji layihəsi çərçivəsində hazırlanan Feysbukda səhifəmizi və virtual kursu buradan izləyin:

https://www.facebook.com/YeniYazarlar/

İlham Əliyev

“Gecənin rəngi”

Vətənpərvərlik mövzusunda roman

Elektron kitab YYSİB tərəfindən e-nəşrə hazırlanıb. YYSİB - 2018-2019
YYSİB - Milli Virtual-Elektron Kitabxananın e-nəşri
Virtual redaktoru və e-nəşrə hazırlayanı:
Aydın Xan (Əbilov), yazıçı-kulturoloq

DİQQƏT

Müəlliflik hüququ Azərbaycan Respublikasının qanunvericiliyinə və əlaqədar beynəlxalq sənədlərə uyğun qorunur. Müəllifin razılığı olmadan kitabın bütöv halda, yaxud hər hansı bir hissəsinin nəşri, eləcə də elektron informasiya daşıyıcılarında, İnternetdə yayımı yasaqdır. Bu qadağa kitabın elmi mənbə kimi istifadəsinə, araşdırma və tədqiqatlar üçün ədəbiyyat kimi göstərilməsin şamil olunmur.

Yeni Yazarlar və Sənətçilər İctimai Birliyi
New Writers and Artists Public Union
AZƏRBAYCAN
GƏNCLƏR FONDU
"İntellektual əsgər": İnternet, sosial şəbəkələr,
e-kitabxana, e-kitablar vasitəsilə yeniyetmə və gənclər
arasında vətənpərvərliyin kreativ-innovativ təbliği
05.12.2018 - Bakı şəhəri - 05.03.2019
www.kitabxana.net


İLHAM ƏLİYEV
GECƏNİN RƏNGİ
İLHAM ƏLİYEV
GECƏNİN
RƏNGİ

İLHAM ƏLİYEV

GECƏNİN RƏNGİ

YYSİB - 2019
BAKI-2018

Redaktor- Qismət İsmayılov
Korrektor - Umar Əliyev
Dizayner - Könül İsmayılzadə

İLHAM ƏLİYEV.
GECƏNİN RƏNGİ

Bakı-2018. ADPU-nəşriyyatı. 352 səh

Yazıçı - publisist İlham Əliyevin qələmə aldığı "Gecənin rəngi" romanı Dağlıq Qarabağ müharibəsində baş verən hadisələrdən bəhs edir. Romanda əsgərlərimizin qəhrəmanlığı, komandirlərin peşəkarlığı döyüşlərin başlandığı ilkin dövrdə Azərbaycanın özünü müdafiə dəstələrinin Dağlıq Qarabağda böyük əraziləri düşməndən azad etmələri öz əksini tapmışdır.

ÖN SÖZ

Müharibə dəhşətdir, insan talelərinin alt-üst olması, minlərlə insanın ölümü, qıtlıq, səfalət, əsirlik, göz yaşları, əlil və şikəstlik deməkdir. Böyük rus yazıçısı Lev Tolstoy deyirdi ki, insanları öldürmək üçün kəşf edilən güllə, top, bomba, raket, barıt və digər silahlardan dəhşətli nə ola bilər? Bu dəhşətlərin ağrı-acısını Azərbaycanın Ermənistan tərəfindən zorən cəlb olunduğu Dağlıq Qarabağ müharibəsində ev-eşiyindən didərgin düşən, şəhid verən insanlar çəkir. Müharibə başlayandan minlərlə azərbaycanlı qətlə yetirilib, yaralanıb, yüzlərlə insan əsir və girovluq həyatı yaşayıb, 1 milyondan çox insan ev-eşiyindən didərgin düşüb, yüzlərlə yaşayış məskəni erməni vandalları tərəfindən darmadağın edilib. Erməni separatçılarının Azərbaycan xalqına qarşı həyata keçirdiyi terror müharibəsi mövzusunda söz, fikir adamlarımız müxtəlif janrlarda əsərlər yazıblar, filmlər çəkiblər. Amma düşünürəm ki, bu, kifayət deyil. Çünki müharibənin elə qaranlıq tərəfləri, baş verən hadisələri var ki, hər bir yazar öz baxış bucağından yanaşaraq işıqlandıra bilir. Bu baxımdan, yazıçı-publisist İlham Əliyevin qələmə aldığı "Gecənin rəngi" sənədli romanı yeni məlumat, yeni mövzu axtarışında olan oxucu üçün bir tapıntı olacaq. "Qafqazda imperiyalar və ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi", "İnsanlığa xidmət" əsərləri, "Qanlı

vadi", "İncə dərəsi" romanları ilə oxuculara tanış olan İlham Əliyev qələmə aldığı "Gecənin rəngi" romanında Qarabağ döyüşlərinin ilk mərhələsində könüllü özünü müdafiə dəstələrinin bütün cəbhə boyu erməni hərbi birləşmələrini darmadağın edib, böyük ərazilərdə Azərbaycanın suverenliyini bərpa etmələri göstərilir. Roman məzmun dairəsinin genişliyi və əhatəliyi cəhətdən deyil, həm də bədii keyfiyyətləri və aydın üslubu baxımından seçilir. Bu keyfiyyətlər korpus komandiri Məmməd Cavadzadənin, alay komandirləri Bəxtiyar Hacıyevin, Fərəc Ağayevin, Asif Bəşirovun davranışlarında və təcrübəli hərbçi bacarıqlarında açıq-aydın özünü göstərir.

Söz yox ki, müharibə zamanı ən zəif və gərgin təbəqə dinc sakinlərdir. Bunu "Gecənin rəngi" romanında da açıq-aydın görmək mümkündür. Ermənilər işğal etdikləri Sırxavənd kəndini talan edib, dağıtmaqla yanaşı, girov götürdükləri dinc sakinlərlə amansız rəftar edir, təhqir edir, alçaldır, müxtəlif işgəncələrdən sonra öldürürlər. Qətliamların başında dayanan ikinci korpusun komandiri Samvel Xaçaturyan girov götürülən sakinlərə qarşı daha qəddar davranır və bir növ işgəncə maşınının amansız xarakter almasından zövq alır. Hətta bir zaman idman zalında birgə məşq etdikləri, yarışlarda üz-üzə gəlib, güləşdikləri Talıbın "Savalan və Bəxtiyarı burax" təklifinə onların başına silah dayayıb, öldürməsi ilə cavab verir. Bu artıq vəhşilik, insanlığa qarşı amansızlıqdır. Amma yaxşı deyiblər,

müharibəni əldə silahla aparırlar, lakin qələbəni təkcə silahla deyil, insanların qisasçılığı, yüksək əzmkarlığı və xarakteri təmin edir. Bunu erməni vəhşiliyinin qurbanı olaraq ev-eşiyi dağılan, atası, bacısı, nişanlısı öldürülən, anası və qardaşı girov götürülən Talıbın əzmkarlıq və yüksək kəşfiyyatçı bacarığı göstərərək korpus komandiri Samvel Xaçaturyandan qisas almasında görmək olar. Talıb hərbi biliyə malik olan əsgərlər Alı Məmmədov, Oruc Muradov, eləcə də yaxın qohumları Mürsəl və İlkin vasitəsi ilə kəndlərini dağıdan korpus komandiri Samvel Xaçaturyanın yaşadığı Erkiş kəndinə gedərək, onun ailəsini və yaxınlarını girov götürməsi, daha sonra girovlar vasitəsi ilə əsirlikdə olan əzizlərini azad etməyə müvəffəq olması romanın əsas ana xəttini təşkil edir. Kitabda diqqət çəkən məqamlardan biri də ermənilərdən fərqli olaraq, azərbaycanlı əsgərlərin dəyişdirilmək üçün girov götürdükləri Samvel Xaçaturyanın ailə üzvləri olan qadınlara toxunmamalarıdır. Bu Azərbaycan əsgərinin böyüklüyü, kişiliyi və nəhayət, azərbaycanlıların insanlıağa dəyər verməsini göstərir.

Sadə və oxunaqlı dildə yazılan romanda təsvir edilən hadisələr real və inandırıcıdır. Bu da romanın müharibənin əzablarını yaşamış əsirlərin və girovların fikirlərinə, eləcə də döyüşlərin iştirakçısı olmuş əsgər və zabitlərin xatirələrinə əsasən qələmə alınması ilə bağlıdır. Maraqlı hadisələrlə zəngin

olduğundan kitabı həyəcansız oxumaq mümkün deyil. Çünki romanda qırılmış insan taleləri, insan faciələri oxucunu düçündürür və düşündürdükcə narahat edir.

Yazıçı-publisist İlham Əliyevin qələmə aldığı "Gecənin rəngi" kitabı istər xalqımız, istərsə də ədəbiyyatımız üçün lazımlı kitab olmaqla yanaşı, həm də maarifləndirmə baxımından böyük əhəmiyyətə malik kitabdır. Hesab edirəm ki, həyatımızın ağrılı-acılı olsa da bir hissəsi olan müharibə mövzusunu yetişməkdə olan gənc nəsil oxumalı, öyrənməli və gələcək nəsillərə çatdırmalıdır.

Ramiq Muxtar
Şair -dramaturq,
Prezident təqaüdçüsü

GECƏNİN RƏNGİ

Qarabağın qərbində arabir boğuq pulemyot, avtomat səslərinin eşidilməsinə baxmayaraq Sırxavənddə o gün sakitlik idi. Elə bir sakitlik ki, quşlar yuvalarından çıxıb yerdə dənlənir, uşaqlar valideynlərinin razılığı ilə küçədə qaçışıb oynayırdılar. Qız-gəlinin su gətirmək üçün bulaq başına çıxması, qohum-qonşuya baş çəkib, hal-əhval tutması adamı duyğulandırırdı. Sanki bura bir neçə gün əvvəl qanlı döyüşlərin getdiyi kənd deyildi... Sırxavənd toya hazırlaşırdı. Səlim kişi bu qanlı-qadalı günlərdə toy-nişan etmək firkindən uzaq olsa da, kənd ağsaqqalları: ay Səlim, iki ildir ki, uşaqlar nişanlıdır, il-ildən də ağır gəlir. Toylarını elə ki, üzləri gülsün, - deyib məsləhət vermişdilər. Səlim kişi də böyüklük edib, məsləhətə əməl etmişdi. Qız evi ilə razılaşıb toy tədarükünə başlamışdı. Sabah oğlu Talıbın toyu olacaqdı. Bu gün isə toy gecəsinə, həm də Talıbın nişanlısı Aygünün xınayaxdısına hazırlıq görülürdü. Səlim kişi adət-ənənəyə uyğun olaraq iki qoç qurban kəsmiş, birini qudası evinə göndərmiş, digərini isə axşam evinə gələcək qohum-qonşuya biş-düş etmək üçün doğratdırmışdı.

Hələ dan yeri söküləndən qohum-əqrəbadan olan bir neçə cavan səngərdən ayrılıb toy olacaq evə gəlmiş, odunun yarılmasına, ocaqların qurulmasına, toy çadırlarının salınmasına köməklik göstərmişdilər. Həyət-bacada yaranan canlanmadan razı qalan Səlim kişi üzünü heyva ağacının altında aşsüzəndə göy-göyərti yuyub, təmizləyən Çimnaza

tutub - ay arvad, ölmədik bu günü də gördük. Şükür Allahın böyüklüyünə, - deyə bildirdi.

Aşsüzəndəki göy-göyərtinin suyunu süzən Çimnaz ayağa durub, qamətini düzəltdi. Ani nəzərlərlə ömür-gün yoldaşının nurlu simasına baxıb, dedi:

- A kişi, niyə ah əkib, ürəyimizi paralayırsan, inşallah hələ gözəl günlərimiz qabaqdadır.

Səlim kişi Çimnazla eyni fikirdə olduğunu bildirsə də, narahatlığını da dilə gətirdi:

- Bu ermənilər heç sakitləşmək bilmirlər. Deyirlər ruslar, iranlılar onlara köməklik edirlər, muzdlu dəstələr Suriyadan, Livandan gəlib Dağlıq Qarabağda döyüşürlər.

Ailə başçısı sözünü bitirib uzaqdan görünən Xankəndinə boylandı.

Kişinin çox narahat olduğunu başa düşən Çimnaz onu sakitləşdirmək üçün - a kişi, erməni dığası nə karədi ki, bizlərə güc gəlsin. Görərsən, bir-iki günə Qarabağdan da qaçıb, Yerevana sığınacaqlar, - deyə söyləndi.

- Allah ağzından eşitsin ay arvad, amma çox narahatam. Gərək bu vurhavurda toy çaldırmayaydıq.

- Sən Allah bəd danışıb, uşaqların işinə nəhs gətirmə. İnşallah Talıbın toyundan sonra onlara həyətin o başında ev tikərik. Azəri də hərbi xidmətindən sonra evləndirib, onun üçün də ev-eşik qurarıq. Fikir vermişəm, qonşumuz Qambay kişinin qızı Naziləyə yaman baxır. Elə mənim də o qızdan xoşum gəlir.

- Yaxşı ay arvad, sən deyən olsun. Amma indi keç evə, qudamızgilə getməyə hazırlıq görün. Çalışın heç nə yaddan çıxmasın.

Əlində səhəng anasına yaxınlaşmaqda olan Mənzər dədəsinin sözlərini eşidib söz atdı:

- Heç elə şey olar ki, qağam Talıbın nişanlısının yanına kəm-kəsirlə gedək. Dünən Aygün üçün lazım olan paltarları, qır-qızılını, bər-bəzəyini, şirniyyat xonçalarını apardıq. İndi də, paxlava, şəkərbura və meyvə xonçaları aparacağıq.

Mənzər danışa-danışa qucağındakı oğlu Amili onlara yaxınlaşmaqda olan Nərgizə verib, dil-ağız etdi:

- Xalaqızı, bu uşağın əyin-başını dəyiş, mən də xonçalara əl gəzdirim gedəyin Aygüngilə.

Nərgiz Amili qucağına alıb evin ikinci mərtəbəsinə çıxmaq üçün pilləkənlərə yaxınlaşdı. Burada Mürsəllə göz-gözə gəldikdə salamlaşdılar.

- Hər vaxtın xeyir Nərgiz, - deyə Mürsəl pıçıltı ilə sevib-seçdiyi Nərgizə salam verdi.

- Aqibətin xeyir, beş də artıq.

- Nə olub ay qız, yenə də mısmırığın yerlə gedir.

Nərgiz sağına-soluna boylanıb, kimsənin onlara fikir vermədiyini görüncə, Mürsəlin üzünə baxmadan söz atdı:

- Səndən küsəcəm, qotazlı güllü corab alsan da barışmayacam.

Mürsəl Nərgizin sözlərindən bir şey analmadığından duruxdu, təəccüblə gözlərini onun ürkək-ürkək boylanan qonur gözlərinə dikib, dedi:

- Atmacalarını qoy kənara, azarın nədir onu de.

Nərgiz tövrünü pozmadan hücuma keçdi:

- Səni atmaca ilə yox, bu əllərimlə boğaram - deyib, iki qoşa əlini Mürsələ uzatdı.

- Aa...z, sən dədənin canı bir de görüm nə olub?

- Nə olacaq ki, sənin tay-tuşun ev-eşik, arvad-uşaq yiyəsi olur, sən isə hələ də küçələrdə veyillənirsən.

Məsələnin nə yerdə olduğunu indi başa düşən Mürsəl - qara qızın dərdi varmış - deyib, gülə-gülə Nərgizin qonur gözlərinə nəzər saldı. Sonra da - bu gün anam anandan him-cimlə sənin həni alıb, Novruz bayramı günü sizə elçi gələcəyik, - deyə Nərgizin arzu etdiklərini dilə gətirdi. Eşitdiyi xəbərdən qırışığı açılan Nərgiz - onda bərəkallah sənin fərasətinə, - deyib, iti addımlarla pilləkənləri çıxıb evin ikinci mərtəbəsinə daxil oldu.

Mürsəl bir neçə dəfə Nərgiz, ay Nərgiz, desə də cavab gəlmədi. İstədi onun arxasınca ikinci mərtəbəyə qalxsın. Amma Bakıda yaşayan böyük qardaşı Şamilin "Jiqulisi"nin siqnal verib, həyətə daxil olmasını görüncə ayaq saxladı. Geri çevrilib qardaşının maşınına doğru addımladı.

Şəhərdə icra hakimiyyətində işləyən Şamilin gəlişi ilə həyətdə ora-bura vurnuxan insanlar bir anlıq da olsa ayaq saxlayıb, gözlərini maşına dikdilər. Səlim kişinin qızı Məsmənin əri olan Şamil kənddə böyük hörmət-izzət sahibi idi. Niyə də olmasın ki, onun şəhərdəki mövqeyi kənd camaatının coxunun işinə yarayırdı. Paytaxtda ali təhsil alan gənclərin imtahanlarının yazılmasında, yataqxana ilə təmin olunmaların-da azdan-çoxdan köməyi dəymişdi. Kəndin xeyir-şərindən də qalmazdı. Çalışardı ki, kəndin imkansız ailələrinə də maddi

yardımlar göstərsin. Toy qabağı gəlişini görən qohum-qonşu onun "Jiqulisi"ni əhatəyə aldı. Ən çox da sevinən Gülnaz idi. Gülnaz xalası qızının, həm də orta məktəb illərinin yaxın rəfiqəsi olan Məsmənin gəlişinə sevindiyindən əlindəki samovarı tut ağacının yanına qoyub, asta addımlarla avto-mobilə yaxınlaşdı. Mühərriki söndürüb, yerə düşən Şamilə - xoş gəlmisiniz - deyib Məsməyə yaxınlaşdı, qucaqlaşıb, öpüşdü. Çimnaz arvad Gülnazın Məsmənin əlindən tutub bağa apardığını görüncə onun qarşısını kəsib, "ay ciyəri yanmış, imkan ver, görüşək, hal-əhval tutaq da" deyib, qızı Məsmənin üzündən öpdü. Gülnaz özünü o yerə qoymadı. "Bacım iki-üç gün burda olacaq, toydan sonra nə qədər istəyirsiniz danışın, söhbətlər edin" - deyə xalasına söyləndi. Bu iki rəfiqə eyni sinifdə oxuduqlarından hər gün məktəbə qoşa gələr, gəzməyə birlikdə gedər, imtahanlara da bir yerdə hazırlaşardılar. Bir növ günləri bir yerdə keçərdi. Bəzən gündüzlər danışmaqdan yorulmayıb, gecələr də qonşu olduqları üçün pəncərənin önündə dayanıb, him-cimlə sözləşərdilər. Sanki rəfiqə deyil, əkiz bacı idilər. Hər dəfə görüşəndə uşaqlıq illərini xatırlayıb söhbət edərdilər. İndi də rəfiqələr bağda alma ağacının altında qoyulan stolda oturunca, Gülnaz dil boğaza qoymadan, suallar yağdırdı - necəsən, nə var, nə yox, eşitdim işə düzəlmisən, Şamillə necə dolanırsan, daha dava-dalaşınız olmur ki, burda neçə gün qalacaqsan...? Məsmə cox sevdiyi Gülnazın

xasiyyətinə bələd olduğundan onun ara vermədən yağdırdığı sullarını səbrlə dinlədi. Nəhayət, rəfiqəsinin susduğunu görüb, qısaca "Hər şey yaxşıdır, bir təhər dolanırıq", deyə bildirdi.

- Az ... z, bir ara xalam deyirdi ki, boşanırsınız?- sözlərinə Məsmə bu dəfə də səbirlə, qısaca - Hə elə bir şey var idi, Şamil birinə urcah olduğu üçün aramızda söz-söhbət yaranmışdı, indi sakitlikdir, boşanma-zad da yoxdur, - deyə cavab verdi.

Dərhal Gülnaza növbəti sualını deməyə imkan vermədən dedi:

- Sizlərdə nə var nə yox, Cəfərlə necə dolanırsan, uşaqlar necədi?

Gülnaz dərindən köks ötürüb, sözlərinə umu-küsü ilə başladı.

- Ər evinə girdim - girmədim, bir gün görmədim. Səhər alatorandan dur, qoyun-quzu ilə əlləş, sonar da əkində-biçində, axşam da inəkləri sağ, uşaqların yemək-içməyini ver. Son vaxtlar bu ciyəri yanmış dığalar da günümüzü göy əskiyə büküblər...

Məsmə bacı qədər sevdiyi rəfiqəsinin əllərini ovucuna alıb, məlhəm səslə dedi:

- Gülnaz, onsuz da insan hər zaman gah rahat, gah da narahat ömür yaşayır.

- Mən biçarə heç rahat ömür yaşamadım axı...

- Naşükürlük eləmə, nə vaxt kəndə gəlirəmsə səni qohum-qonşuda görürəm. Dəfələrlə də ki, Cəfər səni Bakıya aliş-verişə aparıb, ötən il də dəm-dəsgahlı ad günü etdi. Səni sevən ərin, dörd də ciyər paran var, daha nə istəyirsən? Məsəl var deyərlər yuxarı baxıb, köks ötürmə, aşağı baxıb, şükür elə.

Bu sözlərdən sonra Gülnaz orta məktəb illərinin ən şirin xatirəsi olan Məsməni qucaqlayıb əsmər yanaqlarından öpdü:

- Nə yaxşı ki, özümüzdən quraşdırdığımız dərdimizə, sərimizə məlhəm ola biləcək sənin kimi rəfiqəmiz var. Yoxsa, bibi qızı Fatimə kimi. Peşman olursan, giley-güzar edəsən. Dərhal yazıq əri Mehdini ağ yuyub, quru sərir, qayınanasını qayınatasına qatır.

Məsmə kəndin dedi-qodusuna bələd olduğundan Gülnazın dediklərinə əhəmiyyət vermədi, bir növ özünü eşitməzliyə vurdu. Diqqətlə rəfiqəsinin al yanaqlarını, badamı gözlərini, sıx, uzun kirpiklərini süzüb mövzunu dəyişmək üçün dedi:

- Eşitmişəm yayda Aqilə sünnət toyu edəcəksiniz, bax ha... dünyanın altını üstünə çevirərəm, əgər bizi çağırmasanız.

Qınaqdan duruxan Gülnaz tez də özünü ələ alıb, - əziz bacım, heç elə şey olarmı, sənə dəvətnamə göndərməyək. Şəxsən, özüm Bakıya gəlib, dəvətnaməni sənə verəcəyəm - deyə, istəmədən mövzunun dəyişməsinə ip ucu verdi.

Rəfiqələr arasında söhbət xeyli çəkdi. Az sonra onların əhatəsi böyüdü. Xala qızları, bibi qızları, qonşu Yaqut xalanın gəlinləri Gülnazın duzlu-məzəli söhbətlərinin iştirakçıları oldular. Bir tərəfdə ocaqda yemək qazanları asılmış, digər tərəfdə isə samovarlar qaynayırdı. Qonşu Qambayın kiçik yaşlı oğlu Xəyyam sazını sinəsinə basıb müxtəlif el havaları ifa edir, hərdən də orkestr hesab olunan ionikanı işə salıb, oynaq musiqilər səsləndirirdi. Uzaqlardan isə ara-sıra atışma səsləri eşidilirdi... Şəhərdən gələnlər bu səslərdən döyüküb, təşvişlə sağa-sola boylansalar da kənd camaatı onları sakitləşdirir, ötəri atışma olduğunu bildirirdilər. Amma deyəsən, bu həna o hənadan deyildi. Bayaqdan mərmi, raket partlayışlarına görə şəhərdən gələnlərə təskinlik verənlər indi təşviş içində bir-birinə baxırdılar. Partlayış səsləri getdikcə artırdı. Vahiməli səslərə çevrilən dəhşət dolu partlayışlar həyətdəki insanları biş-düşünü dayandırıb, bir yerə toplaşmağa məcbur etmişdi. Bu zaman qonşu Qambay kişi ardınca da iki hərbçi darvazadan girib, toy axşamına toplaşan insanlara yubanmadan kəndi tərk etmələri barədə xəbərdarlıq etdilər. Qambay kişi qaçaraq oğlunun ionikasının yığışdırılmasına köməklik göstərdi. İşini bitirən kimi üzünü Səlim kişiyə tutub dedi:

- Ay Səlim, vaxt itirmə, özünülə ağırdan-yüngüldən nəyə gücünüz çatırsa götürüb, mənim traktorumun qoşqusuna minin.

Səlim kişi ömür-gün yoldaşı Çimnaza, daha sonra isə Talıba baxdı. Ana və oğul ailə başçısının sual dolu baxışlarından bir şey anlamadılar. Onları vəziyyətdən Məsmə çıxarmağa çalışdı.

- Ay dədə, fikirləşmək, götür-qoy etmək yeri deyil. Yubanmadan siz və uşaqlar Qambay dayının traktoru ilə kənddən çıxın. Anamla, Mənzər də bizim maşınımızla gedərlər.

Səlim kişiyə dişi-dırnağı ilə qurduğu bu ev-eşiyini, mal dövlətini erməni dığalarının bir həmləsinə görə qoyub getmək ağır gəldi. Qeyri-ixtiyarı dodaqaltı pıçıldadı: Allahım, bu rəzilliyi, bu biabırçılığı bizə rəva bilmə, sonra da ikinci mərtəbənin pilləkəni önündə dayandı. Başını qaldırıb, evin yuxarısını başdan-başa süzdü. Ağır silahlardan açılan yaylım atəşləri isə bir qədər də yaxınlıqda eşidilirdi. Artıq hərbçilər Səlim kişinin nə cavab verəcəyini gözləmədən, həyəti tərk edib, küçədə insanların QAZ-66-ya minmələrinə kömək edirdilər. Şamil də, uşaqlarını və Gülnazın balacalarını maşınına mindirib, Çimnazla, Mənzəri gözləyirdi. Səlim kişinin hələ də, bir qərara gələ bilməməsi ailəni ölümlə həyat arasında qoymuşdu. Şamil bir neçə dəfə "Çimnaz xala, gedəyin" desə də, səs çıxmadı. Nəhayət, Məsmənin etirazlarına, hay-küyünə baxmayaraq, Şamil ailəni təhlükədən uzaqlaşdırmaq üçün "Jiqulisi"ni işə salıb, həyətdən çıxdı. Səlim kişi ikinci mərtəbnin

eyvanına çıxıb, oradan həyət-bacanı, kəndin küçələrini seyr edirdi. O, qüssəli idi. Bəlkə də, həyatında bu dərəcədə dərdli olmamışdı. Qınayan olmasaydı, oturub, hönkür-hönkür ağlayardı. Qızı Mənzər və qaynı Əkbər ikinci mərtəbəyə qalxıb, onunla danışırdılar, inandırmağa çalışırdılar ki, bu köç müvəqqətidir...

Səhər şadlığa, şənliyə bürünən bu həyət indi xarabazarlığa çevrilmişdi. Həyətdə ora-bura vurnuxan insanların simasında qorxu, vahimə vardı. Nə edəcəklərini, kimdən kömək istəyəcəklərini bilmirdilər. Sanki bir az əvvəl Səlim kişinin - Allahım, bizi bu rəzillikdən, bu biabırçılıqdan xilas et, - dolu yalvarışını Tanrı eşitdi. Bir növ Allah onu erməni vəhşiliyini, qəddarlığını görməkdən məhrum etdi. Ermənilərin atdığı top mərmisi evin damını və ikinci mərtəbənin küləfrəngisini uçurtdu. Eyvanda olan Səlim kişi, qızı Mənzər və qaynı Əkbər həyatlarını itirdilər. Qız, gəlin ağlaşırdı, Çimnaz üzünü, yaxasını cırıb, saçlarını yolurdu. Onları sakitləşdirən, təskinlik verən də yox idi. Dərd-dərdə qarışmışdı. Vay-şüvən, ağlaşma səsləri ürək parçalayırdı. Məsəl var deyərlər, dərd gələndə batmanla gələr. İndi bu həyətə, bu elə-obaya dərd batmanla gəlmişdi…

Ara verməyən bombardmana, yaxınlıqda eşidilən avtomat səslərinə əsaslanaraq təxmin etmək olardı ki, kəndin içərilərində olan erməni silahlıları hər an həyətə girə bilərlər.

Ona görə də Səlim kişinin əmisi oğlu Savalan kişi ağsaqqal məsləhəti verdi. Cavanlardan bir neçəsinə vaxt itirmədən həyətdə, yer qazıb, ölənləri dəfn etməyi tapşırdı. Etiraz edənlərə, "ara sakitləşər, çıxarıb, elin-obanın adətinə uyğun dəfn edərik" dedi. Məsləhətini söyləyərkən özü də hiss etdi ki, yenidən bu kəndə, həyətə qayıtmaq çətin olacaq. Ağsaqqal məsləhətini eşidən cavanlar bağın aşağı hissəsində yer qazıb, ölənləri dəfn elədilər. Savalan kişinin səsi yenidən eşidildi:

- Mehdi, Kamil, siz arvad-uşağa yol göstərib, Meşəli tərəfə gedin.

Qorxu içində olduğu üz-gözündən açıqca hiss olunan Kamil:

- Ay dədə, kəndin hər tərəfini ermənilər əhatəyə alıblar, Çinarlı yoluna çıxıb, meşəyə girmək çətin olacaq.

Darvazaya tərəf addımlayan Savalan kişi arxaya çevrilib, dedi:

- Poçtun yanı ilə gedib, avtobazanın yanına çıxın, oradan keçib, Bilal çəminə düşün. Ora çatsanız Çinarlıya keçmək asan olar. Çünki ora dağ-dərə olduğundan ermənilər oralara getməzlər.

Balaca qızı Firuzəni qucağına alan Mehdi arvadı Fatiməyə - aaa...z, Şükürün əlindən möhkəm yapış - deyib, üzünü Kamilə tutdu:

- Savalan əmi düz deyir, ermənilər işğal etdikləri Meşəli tərəfdən gəlirlər, Çinarlı yolu sağ qalmağımıza kömək edə bilər.

Savalan kişi - meşəyə girəndən sonra gözləyin qaranlıq düşsün, sonra Ağdama doğru istiqamət alın – deyə növbəti məsləhətini verib, sağollaşdı.

- Bəs siz hara gedirsiniz - bir an əvvəl ata və bacısını, dayısını itirən Talıb, göz yaşlarını silib, Savalan kişiyə sual etdi. Onun ömür-gün yoldaşı Gülsüm və qızı Mahizərdə Talıb kimi sual dolu nəzərlərlə Savalan kişiyə baxdılar.

- Mənə görə narahat olmayın, gedim görüm Cavadgildən nə xəbər var.

Gülsüm ömür-gün yoldaşının qarşısını kəsib, Cavadgilə getməsinə mane olmağa çalışdı. Ancaq Savalan kişi sərt şəkildə onu qarşısından sağa itələyib, Kamilə səsləndi:

- Kamil, ay oğul, anandan, bacından muğayat ol. Mən gedim, əmin Cavaddan xəbər bilim.

Kamil dədəsinin sözünü eşidincə, anasının əlindən tutub, özünə tərəf çəkdi. Gülsüm könülsüz halda oğlunun ardınca sürüdü. Yolu keçərkən artıq onlardan aralanmaqda olan Savalan kişiyə baxıb, dərindən köks ötürdü. Sanki Savalan kişini bir də görməyəcək, bir daha ötkəm, amiranə səsini eşitməyəcəkdi…

Pulemyot, avtomat səsləri, mərmi partlayışları ətrafa od saçırdı. Evlərini tərk edib, kənddən çıxan insanlar erməni gülləsinə tuş gəlməmək üçün artıq uçulub, dağılmış evlərin böyründə daldalanmağa çalışırdılar. Ancaq atılan top mərmiləri onları daldalandıqları yerlərdən də çıxıb, yollarını davam etdirməyə məcbur edirdi. Ətrafda qadın, uşaq qışqırtıları, ah-naləsi eşidilirdi. Küçələrdə yağışdan sonra yaranan su gölməçələrini qan gölməçələri əvəz etmişdi. Bir az əvvəl qaynayan küçələr tamamilə boşalmışdı. Talıb Bəyimli küçəsinin tininə çatanda təsadüfi gülləyə tuş gəlməmək, həm də erməni silahlılarının diqqətini cəlb etməmək üçün yarıbükülü halda addımlayan dəstədə 15 yaşı təzəcə tamam olan qardaşı Azərə sakit səslə dedi:

- Qaqaş, sən anamla get, mən Aygündən çox nigaranam, onlara getməliyəm.

Azərə Talıbın qərarı ilə razılaşmaq çətin olsa da, gəlinləri Aygünə görə susmalı oldu, bir anlıq ayaq saxlayıb onu qucaqladı, "ehtiyatlı ol, qardaş" - deyib, tez də dəstəyə qoşulub yoluna davam etdi.

Talıba, kəndə tam yiyələnməkdə olan erməni hərbi birləşmələrinin gözündən yayınaraq Aygüngilə getmək çətin olardı. Amma həyatı bahasına da olsa, dünyalar qədər sevdiyi Aygündən xəbər bilməli idi. Bu niyyətlə də aşağı əyilib, qaça-qaça Mərzili küçəsinə keçdi. Dəllək Cəbinin bağına girib, Aygüngilin küçəsinə keçmək istərkən, sovet sədri Bəşirin dükanın önündən bir BTR-in və erməni silahlılarının ətrafa güllə yağışı səpə-səpə ona tərəf yaxınlaşdığını gördü. Bağın küncündə üzüm tinglərinin altına əyilib, bir qədər gözlədi. Daha sonra başını qaldırıb, ətrafı seyr etdi. Ermənilər evləri, tövlələri "Oqnamiyok" silahından atəş açıb, yandırırdılar.

Hərdən pəncərələrdən evlərin içinə "qranat" atıb, partladırdılar. Yanan evlərin qara tüstüsündən göy üzünü qara duman bürümüşdü. Gördüyü mənzərə, xüsusilə də Xaliq kişinin oğlu Vasifi və yaxşı seçə bilmədiyi başqa iki gənci 10-15 erməni dığasının vəhşicəsinə döymələri, daha sonra hər üçünü güllələmələri onu dəhşətə gətirdi. İnsanda vahimə yaradan bu cür mənzərəni o ancaq kinolarda seyr etmişdi. Ağır, üzücü xəyala daldı, fikrə getdi tez də özünü ələ alıb, - burda çox qalmaq təhlükəli olar, - deyə öz-özünə söyləndi. Oturduğu yerdə üzü üstə uzandı, bağın içində sürünə-sürünə irəliləyib, hasarın önünə çatdı. Ayağa qalxıb hasardan qayınatası Mahal dayının yaşadığı küçəyə boylandı, ins-cins gözə dəymirdi. Cəld hərəkətlə hasara qalxıb küçəyə düşdü. Küçə boyu hasarların yanı ilə qaça-qaça gəlib, Aygüngilin evinə çatdı, darvazanı açıb, içəri girincə, dəhşətə gəldi, Yerdə uzanmış insanlar vardı. Yaxınlaşdı, Mahal dayı, - Mahal dayı, - desə də, ondan səs çıxmadı. Xalidə xalada, onların oğulları Məciddə ermənilərin atdığı raketlərin zərbəsindən ölmüşdü. Gözləri Aygünü aradı. Sağa-sola boylandı. Evin yanında Aygünün uzandığını gördü. İti addımlarla yaxınlaşıb, onun xınalı əlindən tutub silkələdi. "Tərpənir, sağdır" - deyə Talıb özünə təskinlik verməyə çalışdı.

Ancaq gəlinlik paltarında vağzalı sədaları ilə gəlin köçüb, öz vüsalına qovuşmağa hazırlaşan Aygün can üstündə idi. Aygün göz qapaqlarını qaldırıb, Talıba baxdı, gülümsədi. Son

dəfə bütün qəlbi, vücudu, varlığı ilə sevdiyi Talıba nəsə demək istədi. Amma.... Talıb göz yaşını axıda-axıda onun boynunu qucaqlayıb, - Aygün, Aygün - deyə fəryad etdi. Aygündən səs çıxmadı, o ölmüşdü. Talıb onun şabalıdı rəngli saçlarını sığallayıb, alnından öpdü. Başını sinəsinə qoyub, hıçqırtı ilə ağladı. Ayağa qalxıb Aygünün cansız bədənini götürüb, sakit bir yerə çəkilmək istədi. Amma başına, daha sonra kürəyinə endirilən ardıcıl zərbələr onu dizləri üstə çökdürdü.

*** *** ***

Qarabağ özünü müdafiə batalyonunun komandiri Məmməd Cavadzadə çoxsaylı qanlı döyüşlərdə şücaətlə iştirak etmiş, dəfələrlə ölümlə üz-üzə gəlmişdi. 40 yaşı təzəcə tamam olmasına baxmayaraq döyüş yolunda çox çətinliklər görmüşdü. Həyat təcrübəsi də az deyildi. İxtisacca iqtisadçı olsada həyat onu hərbçi olmağa, Vətənin dar günündə elinə-obasına əl uzadan ermənilərə qarşı döyüşə atılmağa məcbur etmişdi. Ölüm-dirim savaşında dəfələrlə yaralanmış, ancaq tam sağalmamış yenidən döyüş yoldaşlarına qoşulub, yağı düşmənə qarşı mübarizəsini davam etdirmişdi.

Polkovnik çox qayğılı görünürdü. Gecə yatmadığından özünü narahat və üzgün hiss edirdi. Bir çimir yatıb, gözünün acısını almaq üçün otağındakı divana uzandı. Oyana-buyana çevrildi, gözlərini yumdu-açdı ancaq yata bilmədi. Elə hey gözləri önündə itirilən torpaqlar, bir yerdə olduğu silahdaşlarının dizinin üstündə can vermələri canlandı. Uzandığı yerdən qalxıb oturdu öz-özünə - bu əməliyyat uğurlu olsa faciələrimizin qisasını almaq, insanlarda yaranan ümidsizliyi aradan qaldırmaq mümkün olacaq, - deyə düşündü. Yenidən divana uzanıb xəyala daldı. Onu fikirlərindən qapının döyülməsi ayıltdı. Gələn kəşfiyyat komandiri Asif Bəşirov idi.

- Gəl, gəl, elə yaxşı oldu , gəldin.

Bəşirov yaxınlaşıb, hərbi salam verdi, əl uzadıb, salamlaşdı. Məmməd Cavadzadə Bəşirovun gəlişi ilə, ayağa durub, masanın arxasına keçib oturdu, kəşfiyyat komandirinə də oturmaq üçün yer göstərdi.

- İndilərdə, dəstə komandirləri və bələdçilərdə gələsidilər. Sən danış görüm, gecə kəşfiyyatınız necə keçdi, toqquşma-filan olmadı ki, uşaqlar salamatdırmı? - deyə polkovnik oturmaqda olan Bəşirova sual etdi.

Bəşirov xalqının düşdüyü ağır durumu bütün varlığı ilə anlayan və hərbçi borcunu tam məsuliyyəti ilə yerinə

yetirməyə çalışan bu vətənpərvər polkovnikin yorğun, həm də narahat simasına ani nəzər yetirib, məruzə etdi:

- Cənab polkovnik, hər şey əmrinizə uyğun gedir, uşaqlarda salamatdır. İnşallah düşməni bu əməliyyatla məhv edəcəyik...

Hövsələsizlik edən, polkovnik - şəxsi heyətləri, silah sursatları barədə nə öyrənə bildiniz, - deyə sual etdi.

Asif Bəşirov korpus komandirinin səbirsizliyini başa düşdüyündən onu intizarda qoymadı:

- Cənab polkovnik, Gürzalı, Xarxaput, Buzluq, Mənəş, Ruskie Borisı, Armyanskie Borisı, Başkənd və Gülüstan kəndlərində toplanmış erməni-rus birləşmələrinin ümumi sayı 2000-2500 nəfər olar. Əsgəran, Xramurd, Xanabad, Fərrux, Mənikli, Naxçıvanik kəndləri ərazisində isə hücuma hazırlıq görən təqribən 2000 nəfər şəxsi heyətləri var. Aralarında xaricdən gələn muzdlu silahlılarda gözə dəyir...

Polkovnik - güllə bu xaricdən gəlib, bu yerli ermənidir seçimini etmir, haqladı cəhənnəmə göndərir. Bu əməliyyatımızda da belə olacaq, - deyə kəşfiyyat komandirinin tələşına son qoymağa çalışdı.

Bəşirov:

- Xaricdən gələnlər silah-sursatla davranmaqda təcrübəlidirlər. Erməni daşnaklarını da onlar öyrədir.

Polkovnik Bəşirovun sözlərinə gülə-gülə cavab verdi:

- Ermənilərə kim köməyə gəlirsə, gəlsin, hamsının axırına çıxacağıq. Bütün dünya ermənləri ABŞ-da doğulan, ASALA erməni terror təşkilatının ideoloqlarından olan və Qarabağa gəlib yüzlərlə dinc insanı qətlə yetirən Monte Melkonyanla fəxr edirdi. Ötən həftə kəşfiyyatçı İbad Hüseynov dəstəsi ilə, onu Muğanlı istiqamətində gedən döyüşdə haqlayıb, başını kəsib gətiriblər. İndi bütün Ermənistan, erməni lobbisi yasa batıb....Nə isə, de görüm, kəşfiyyat zamanı ermənilərin silah-sursatları barədə nə öyrənə bildiniz?

Bəşirov polkovnikin sərt, həm də soyuqqanlı şəkildə dediyi sözlərdən təsirləndi, oturduğu stulda hərbi görkəm alıb dedi:

- Cənab polkovnik, 5 tankları, 10-a qədər PDM-ləri, 4 artilleriya, 5 raket qurğuları, 12 təkərli və tırtıllı nəqliyyat vasitələri var. Əskəranda bir, Şaumyankənddə də bir döyüş helikopterini gördük. Bu məlumatların dəqiqləşdirilməsində bizə, ələ keçirdiyimiz iki girov kömək etdi.

- Dinc sakinlərdir?

- Xeyr, cənab polkovnik, onlar Yerevandan zor gücünə gətirilib, döyüşə məcbur edilənlərdəndir.

- Topladığınız məlumatlar yəqin ki, dəqiqdir?

- Elədir ki, var cənab polkovnik. Yanlışlıq olmasın deyə, silahlı ermənilərin sayı, texniki təchizatları, tutduqları mövqelər tam şəkildə tərəfimizdən kamera ilə lentə alınıb.

Aldığı informasiyadan məmnun olan təcrübəli zabit qaşlarını çatıb, gözlərini otağın pəncərəsindən görünən qarlı dağlara dikdi. Sonra ayağa durub, Bəşirova yaxınlaşdı. Kəşfiyyat komandiri də ayağa durmaq istədi, ancaq polkovnik əlini nəvazişlə onun çiyninə qoyub - otur-otur, - deyib ayağa durmasına mane oldu.

Komandir otaqda qayğılı halda iki dəfə gedib, gəldikdən sonra Bəşirovun bərabərində dayanıb, dedi:

- Sağ olun, Bəşirov, bu Vətən, bu xalq sizlərin fədakarlığınızı, qəhrəmanlığınızı unutmayacaq.

- Cənab polkovnik, sağ ol üçün döyüşmürük. Bu bizim Vətən qarşısında borcumuzdur. Azərbaycanlı uşaqları, qadınları, ahıl yaşlı qocaları erməni əsirliyində görmək çox ağırdır. İşğal olunan kəndlərdə ermənilərin törətdikləri vəhşiliklər cavabsız qala bilməz.

- Cavabsız qalmayacaq. Onlara elə dərs verəcəyik ki, havadarları belə burdakı ermənilərin ağır gününə yas qurub, göz yaşı tökəcəklər.

- Cənab polkovnik, bu hücum planı uğurla başa çatsa Şaumyankənd, Əskəran və digər yaşayış məskənləri azad ediləcək. Tərtər, Goranboy, Xanlar və Gəncə üçün erməni təhlükəsi birdəfəlik aradan qaldırılacaq.

- Yəni deyirsən bir əməliyyatla Qarabağ döyüşlərində dönüş etmək mümkün olar?

- İxtisasca tarix müəllimi olan Asif Bəşirov tarixi xatırlatma etdi:

- Cənab polkovnik, bugünki kimi 1918- 1920-ci illərdə də ermənilər Qarabağda işğal siyasəti həyta keçirmişlər. Erməni təcavüzünün qarşısını almaq məqsədilə xalq cumuhuriyyəti general-mayor Həbib bəy Səlimovun başçılıq etdiyi 20- minlik qoşunu Qarabağa göndərir. Qanlı döyüşlərdən sonra Azərbaycan Ordusu Əsgəran və Xocalını ermənilərdən təmizləyir, Şuşaya, Xankəndinə sahib çıxır, bütün Qarabağ erməni silahlı dəstələrindən azad olunur.

Polkovnik Məmməd Cavadzadə yanıqlı köks ötürüb - kaş tarix bizim zamanımızda təkrarlanaydı, gələcək nəsillərə qalmayaydı, - deyə bildirdi.

Kəşfiyyat komandri tarixin xoş məqamlarından yeni bir epizod xatırlatdı:

- Məmməd müəllim, o dövrdə Zəngəzur və Göyçənin də azad edilməsinə imkanlar yaranıbmış. Bu barədə general-mayor Həbib bəy Səlimov Hərbi Nazirliyə Zəngəzur və Göyçədə də Azərbaycanın suverenliyinin tam bərpa edilməsi üçün əmr gözlədiyini bildirir, müsbət cavab da alır. Ancaq bolşevik Rusiyası Azərbaycanı işğal etmək üçün hərbi əməliyyatlara başladığı üçün tarixi ərazilərə sahiblənmək başa çatdırılmır.

Məmməd Cavadzadə ayağa durub əsəbi formada əllərini ölcə - ölcə dedi:

- Bəşirov, bizim general-mayor Həbib bəy Səlimov kimi parlaq sərkərdələrimiz olub. O cür simaların yetirməsi, daşıyıcısı olan bizlərin ermənin qarşısından geri çəkilməyə, ulularımızın qəbirlərini, yaşadığımız məskənləri qoyub getməyə haqqımız yoxdur. Qanımız və canımız bahasınada olsa, üzərimizdəki ləkəni götürməliyik.

Bəşirov polkovnikə təskinlik verməyə çalışdı:

- Cənab polkovnik, alnımız açıqdır, döyüşən, bu torpaqların hər qarşı üçün canını verməyə hazır olan mərd oğullarımız var. Sadəcə, təkbaşına vuruşmağa üstünlük verən müxtəlif könüllü batalyonlar var ki, bu da vahid güc mərkəzinin təşkil edilməsinə problemlər yaradır. Gücümüzün birləşdirilməsi üçün Bakı iş görməli, hərəkətə keçməlidir. Bakı isə susur, əlaqə qurmaq, vəziyyəti də anlatmaq olmur...

Polkovnik ona fikrini tamamlamağa imkan vermədi:

- Bəşirov onlar siyasətçi, biz isə hərbiçiyik. Siyasətçilərin nəyin davasını apardıqlarını özləri və vicdanları bilər, bizə son nəfəsimizə qədər bu Vətən qarşısında əsgəri borcumuzu yerinə yetirmək qalır...

Qapının döyülməsi ilə kəşfiyyat-diversiya dəstəsinin, mühəndis-istehkam alayının, beş könüllü batalyonun və vzvodun komandirləri içəri daxil oldular. Zabitlər hərbi salam

verib, polkovnik Məmməd Cavadzadə ilə, daha sonra baş leytenant Asif Bəşirovla əl tutub görüşdülər. Əyləşincə Məmməd Cavadzadə masanın üstünə xəritə qoyub əməliyyat planının hücum nöqtələrini göstərməyə başladı. Polkovnik danışdıqca komandirlər başlarını aşağı yuxarı edir, onunla razılaşdıqlarını bildirirdilər. Söhbət, bələdçi məsələsinə gələndə Mühəndis İstehkam Alayının komandiri Bəxtiyar Hacıyev polkovnikə etirazını bildirdi:

- Bizim əksəriyyətimiz bu ərazilərin hər dağına, düzünə, hər cığırına bələd olan insanelarıq, bələdçilərə nə ehtiyacımız var?

- Belə baxanda düz deyirsən, bizlər bu yerlərdə doğulub, boya-başa çatmış insanlarıq, amma bələdçilərin bizim dəstələrə nə ağırlığı ola bilər ki, - deyə 4-cü könüllü özünü müdafiə alayının komandiri Fərəc Ağayev suala-sualla fikir bildirdi.

Kəşfiyyat-diversiya dəstəsinin komandiri Bilal Kazımov uzun döyüş yolu keçmiş, təcrübəli hərbiçi Bəxtiyar Hacıyevin təklifinin arxasında cox böyük məna, milli maraqlara söykənən təklif dayandığını təxmin etdiyindən - bələdçilərlə bağlı, bəlkə nəsə bilirsiniz, - deyə söhbətin açıq məcrada davam etdirilməsinə çalışdı.

Kapitan Bəxtiyar Hacıyev gizlinləri dilə gətirmək üçün dedi:

- Niyə çox böyük peşəkarlıqla hazırlanmış bir neçə əməliyyatlarımız iflasa uğrayıb? Bunu araşdıran, təhlil edən olubmu?

AXC-nin Ağdam rayon təşkilatının sədri, 3-cü könüllü özünü müdafiə alayının komandiri Səbuhi Xudiyev söz atdı:

- Çünki əməliyyyatlar mərkəzlə razılaşdırılmamışdı.

Bəxtiyar Hacıyev tövrünü pozmadan dedi:

- Daşaltı əməliyyatını şəxsən müdafi naziri özü hazırlamışdı, nə oldu? Onlarla igid oğullarımızı pusquya salıb məhv etdilər. Cəmilli, Kərkicahan, Meşəli əməliyyatları da elə.

Səbuhi Xudiyev söz demək istəyərkən, Məmməd Cavadzadə mübahisə yarana biləcəyindən ehtiyat etdiyindən müdaxilə etdi:

- Hacıyev bəlkə bildiyini bizimlə bölüşəsən.

- Cənab polkovnik, düşünürəm ki, hücüm əməliyyatlarının uğursuzluğa düçar olmasında bələdçilərin satqınlığı, xəyanətləri xüsusi rol oynayıb.

Səbuhi Xudiyevin acıqlı səsi eşidildi:

- Sübutun varmı?

Bəxtiyar Hacıyev - onu mən yox, hərbi nəzarət idarəsi sübut etməlidir - deyə açıq hiss olunan əsəbi səsi ilə bildirdi. Sonrada təklifini səsləndirdi:

- Hərbi əməliyyatda bələdçilər iştirak etməsin. Bu dəqiqədən etibarən, hərbi əməliyyata cəlb olunmuş, bələdçilər müvəqqəti həbs olunsun və ya nəzarət altına alınsınlar.

Kəşfiyyat dəstəsinin komandiri Asif Bəşirov da neçə vaxtdır ki, içini didib, parçalayan şübhələrini dilə gətirməli oldu:

- Bəxtiyar Hacıyev haqlıdır, çoban Xudunun Naxçıvanik dağlarında qoyun otardığını görmüşəm. Cəbi kişinin oğlu Poladı səhərə yaxın Xramortdan gələndə bizim uşaqlar tutublar, sonrada buraxıblar. Belə misallardan çox çəkmək olar. Qısası, bələdçilərdən imtina olunmalıdır.

Hər kəsin susduğunu görən, Məmməd Cavadzadə bunu razılıq əlaməti kimi başa düşdü və əməliyyat planını sonuncu dəfə elan etdi:

- Bəxtiyar Hacıyevin dəstəsi Nəbilər kəndindən keçərək Qızılqaya hündürlüyünə qalxmalı və Daşaltıdan Sığnağa aparan yolu, Alxas Mehdiyevin dəstəsi isə Daşaltıdan Şuşakəndə aparan yolu kəsəcəklər. Yolun sağında və solunda Səbuhi Xudiyevin və Yaqub Qasımovun alayları yerləşərək mənim hücum əmrimi gözləyəcəklər. Bəxtiyar Hacıyevin dəstəsi Nəbilər kəndindən Daşaltını atəşə tutacaq. Ermənilər cavab atəşi açmağa başlayanda Səbuhi Xudiyevin və Yaqub Qasımovun alayları kəndə yaxınlaşıb ermənilərin atəş nöqtələrini müəyyənləşdirərək məhv edəcəklər. Bu dəstələrin

arasında gedən Bilal Kazımovun kəşfiyyat-diversiya dəstəsi Fərəc Ağayevin alayının yardımı ilə Daşaltıya girib, kənddəki erməni hərbi bazasını məhv etməlidir. Bütün alaylar lazım olan nöqtəyə çatdıqdan sonra Buzluq, Mənəş, Gürzalılar, Xarxaput, Ruskie Borisı, Armyanskie Borisı, Başkənd və Gülüstan kəndlərinə hücum ediləcək, Əsgəran, Şaumyankənd, Xramurd, Xanabad, Fərrux, Mənikli, Naxçıvanik kəndləri erməni hərbi birləşmələrindən təmizlənəcək. Əsas qüvvələrə dəstək üçün, azad olunan kəndlərin ətrafındakı yüksəkliklərdə snayperlər yerləşdiriləcək. Havadan əməliyyatlara iki qırıcı-həmləedici SU-25 təyyarəsi köməklik göstərəcək. Əməliyyat səhərə yaxın başlayacaq. Çalışın dinc əhaliyə ziyan dəyməsin.

Polkovnikin əməliyyat planı barədə qətiyyətlə, əzmlə danışması masa ətrafında oturan komandirlərdə döyüş əhval-ruhiyyəsini artırsa da son fikri narazılıq yaratdı. Yaqub Qasımov açıq şəkildə etirazını bildirdi:

- Bizdən yaşda kiçik olsan da, təcrübənə güvənirik və torpaqlarımızın yağı düşməndən azad edilməsi xatirinə sizin planlarınızı bəyənir, əmrlərinizi yerinə yetirəcəyimizə söz veririk. Amma qana-qanla cavab verəcəyik. Onlardan mən oğlumun, Səbuhi iki qardaşının, Bəxtiyar qardaşı oğlunun və digərləri də dostlarının, qohumlarının qisasını alacaqlar.

Səbuhi Xudiyev də Yaqub Qasımovla həmfikir olduğunu söylədi və ayağa qalxdı. Məmməd Cavadzadə sakit keçən

əməliyyat toplantısının sonunda yaranan pərtliyi aradan qaldırmaq üçün dedi:

- Yaxşı, necə istəyirsinizsə, elə də edin.

Bəstə boy, 55-60 yaşlarında, əynində qara rəngli qısa palto olan Yaqub Qasımov yaxınlaşıb, gülərüzlə onu qucaqlayıb, öpdü və dedi:

- Sizin bu xeyirhax ürəyinizə quzu kəsim ay polkovnik, biz vəhşi deyilik, ancaq əli silahlı ermənilər necə lazımdırsa elə də mühakimə edəcəyik.

Məmməd Cavadzadə bu günə qədər hər çür silahlarla silahlanmış erməni-rus hərbi birləşmələrinin Azərbaycanın içərilərinə soxulmalarının qarşısının alınmasında böyük şücaətlər, qəhrəmanlıqlar göstərmiş, cəbhəboyu uzun döyüş yolu keçmiş bu hərbçiləri başa düşdüyündən Yaqub Qasımovun sözlərinə şərh vermədi, sadəcə gülümsədi.

Komandirlər getdikdən sonra Məmməd Cavadzadə köməkçisinə tapşırıq verdi: Hücum əməliyyatında iştirak etmələri nəzərdə tutulan 9 bələdçinin hamısı hərbi hissəyə dəvət olunsun və əməliyyat başa çatdırılana qədər heç bir yerə buraxılmasınlar.

*** *** ***

Qışın qarlı, şaxtalı havasına baxmayaraq dənizkənarı bulvarda çoxsaylı insan vardı. Ora-bura vunuxan insanlar arasında dəniz havası alanlarla yanaşı vaxt keçirənlər və qoşa gəzən sevgililərdə gözə dəyirdi. Bayaqdan istəmədən ətrafda baş verən hadisələri müşahidə edən Alı yenidən saatına baxdı. - Bu qız deyəsən gəlməyəcək, hə gələməyəcək, -deyə öz-özünə söyləndi. Dərhal da bədbin fikirləri beynindən uzaqlaşdırmaq üçün - yox mütləq gələcək, Aysun ciddi, həm də məsuliyyətli qızdır, insanın hissləri ilə oynamaz, - deyə düşündü.

Diqqətlə, bəlkə də yüzüncü dəfə "Azadlıq" meydanı tərəfə boylandı. Aysunun gəlmədiyini görüncə, yenidən sağına-soluna baxdı. Gəmilərə diqqət kəsildi, qağayıların uçuşunu izlədi, - salam- səsini eşidincə, dənizdən gözlərini çəkib, sağına baxdı, Aysun idi. İstədi sevincindən onu qucaqlayıb bağrına bassın. Tezdə özünü ələ alıb, ciddi görkəm aldı.

- Salam Aysun, ha tərəfdən gəldin, - deyə çaşqın halda sual verdi.

Qaraqaş, qaragöz, ağ yanaqlı Aysun Alıya baxmadan - əsas odur ki, burdayam, amma tələsirəm, atam işdən gəlib məni evdə görməsə, halım, fəna olacaq, - deyə bildirdi.

Alı Aysungilin ailəsində ciddi nizam-intizam qaydalarının hökm sürdüyünü bilirdi. Dəfələrlə universitetdə hansısa tədbir və ya kiminsə ad gününü qeyd etməyə hazırlaşarkən, Aysunun iştirakı sual altında olardı. Aysunun

da ad günündə iştirakını təmin etmək üçün qrupun qızlarından iki -üçü onun anası Yaqut xala ilə, görüşər və ya telefonla danışıb dil-ağız edərdilər. Anası Yaqut da Aysunun atası Qafar müəllimlə danışandan və onun da razılığını alandan sonra, bir-iki saatlığa qızına icazə verərdi.

Alının səsi eşidildi:

- Axı mən səhər hərbi xidmətə gedirəm, bunu bilmirsən?

Aysun hərbi xidmətin Qarabağ, Qarabağın isə qanlı döyüşlər olduğunu bilirdi. Ona görə də susdu. Qeyri-ixtiyari gözündən süzülən yaşı paltosunun qolu ilə silib, gözlərini Alının gözlərinə dikdi.

- Bəlkə, getməyəsən.

- Bu mümkün deyil, artıq hərbi komissarlıqdan çağırış vərəqi gəlib, imtina etsəm, hərbi tribunala verərlər.

- Onda möhlət al.

Alı çaşıb qalmışdı. Bir zaman onu gözəlliyi və əxlaqı ilə dəli-divana edən və üçüncü kursa qədər arxasınca süründürən Aysun bu gün onun qarşısında dayanıb hərbi xidmətə getməməsi üçün göz yaşı tökürdü.

Aysun susmaq bilmirdi, sanki Alını buraxsa, onun bütün arzuları, planları məhv olacaq, mövcudluğuna, yaşayışına son qoyulacaqdı.

- Mən səni sevirəm Alı, özü də lap çox. Bu dəniz, bu göy qədər.

- Məndə səni sevirəm, Aysun, ağlama, bu mənə pis təsir edir. Bir il nədir ki, gözümüzü açıb, yumunca, gəlib keçəcək.

- Yox, mən çox narahatam, səndən uzaqda qalmaqdan, səni itirməkdən qorxuram.

Alı təhsil aldığı Bakı Dövlət Universitetinin bütün ictimai işlərində fəallıq göstərərdi. Qəddi-qamətli, gözəl simalı bu gəncin idmanın karate növündə çoxsaylı uğurları da vardı. Dəfələrlə Azərbaycan birincisi olmuşdu. Avropa çempionu idi, Azərbaycan himninin səsləndirilməsinə, bayrağının ən yüksəklərə qaldırılmasına nail olmuşdu. Ədəb-ərkanı, böyük-kiçik yeri bilməsi ilə də seçilirdi. Ona görə də nəinki universitetdə, ümumiyyətlə, Azərbaycanda hamı onu sevirdi. Qızlar onunla üz-üzə gəlmək, söhbət etmək üçün müxtəlif variantlardan istifadə edib, cəhdlər göstərirdilər. Məktub yazmaq, kitabların arasında vərəqələr göndərmək, evlərinə zənglərin edilməsi adi hala çevrilmişdi. Alının isə sevdiyi, bağlandığı bir insan vardı - Aysun. Aysun da öz növbəsində Alıya bağlı idi. Sonuncu kursda ilahi bir məhəbbət onların bir-birinə vəd verməsi ilə nəticələndi. İndi bu çütlük baş-başa qalıb, heç bir qurur, təkəbbür bilmədən hisslərini açıq şəkildə birüzə verirdilər. Universitetin yeməkxanasında bir-neçə dəfə çay içib, çörək yemişdirlər. Dərsdən çıxandan sonra avtobus dayanacağına qədər ayaqüstü söhbətlərdə etmişdirlər. Bu isə onların saf, təmiz sevgilərini büruzə verdikləri ilk görüş idi. Alı

düşüncələrə qərq oldu, doğrudan da ilk görüşün çox qəribə, mənalı anları olur. Bu anların xoş hisslərini isə qələmlə yazmaq və ya fırça ilə təsvir etmək mümkün deyil. İlk görüş sevənlərin ən əziz xatirələri kimi qəlbin dərin və gizli guşələrində silinməz izlər buraxır.

Alını xəyal aləmindən Aysunun səsi və qolunu silkələməsi ayıltdı.

- Nə olub, nə fikrə getmisən, - deyə Aysun nazlı baxışları ilə onu süzdü.

Bu baxışlar qəribə, həm də tilsimli idi. Alı özünü ələ alıb, Aysuna baxdı:

- Mən səni çoooox sevirəm, Aysun , çooooox. Elə istəyirəm ki, bu görüşümüz bitməsin!..

- Mən də istərdim, amma indi anam evin pəncərəsindən boylanıb məni gözləyir.

- Bəlkə gedək, bir yerdə oturub, çörək yeyək, çay içib, söhbət edək.

Bu təklif gözlənilməz olsada, Aysunun susması, Alıda bir ümid yaratdı.

- Hərbi xidmətə getməyimə görə bizim evdə məclis təşkil olunacaq. Dost, tanış, qohum, əqraba yığışıb yeyib-içəcəklər. Amma mən sənlə olmaq, bu gözəl anları sənlə yaşamaq istəyirəm.

- Sən necə istəyirsən, elə də olsun. Ancaq anama zəng edib, nəsə bir bəhanə deməliyəm.

Sevən çütlük razılaşıb, şən qayğısız şəkldə bulvardan çıxıb, metro istiqamətinə addımladılar. Metronun girişində qoyulan, telefon budkasına yaxınlaşan Aysun evlərinə zəng etdi. Kənarda dayanıb, intizarla Aysunun hansı cavabla gələcəyini gözləyən Alı həyəcandan ciddi tələş keçirdiyini ürəyinin tez-tez döyünməsindən hiss etdi. Aysun anası ilə telefon söhbətini yekunlaşdırıb, Alıya yaxınlaşdı.

- Gedək, - deyə təəccüblə ona baxan Alıya səsləndi.

- Başa düşmədim, yəni ananı razı sala bildin.

- Bəli.

Alı yenə də bir şey anlamadığından sual etdi:

- Məni başa sala bilərsən, o ipə-sapa yatmayan ananı necə ram etdin?

- Olanları deməklə.

- Yəni sən...

- Hə, mən dedim ki, sevdiyim Alı ilə gəzintiyə çıxmışam. Kölə deyiləm, qərarıma hörmətlə yanaşın.

- Lap elə dedin, - deyə hələ də təəccüb dolu nəzərlərlə Aysunu süzən Alı dilləndi.

Aysun bəlkə də 21 illik həyatında cəsarətinə yenisini də əlavə etdi. Sağ əli ilə ehmalca Alının əlindən tutub, - hara

istəyirsən gedək, lap istəyirsən dünyanın axırına gedək, - deyə söyləndi.

- Gözəl diyarımızı qoyub, tərki dünya olmağımıza ehtiyac yoxdur. İnşallah hərbi xidmətdən sonra, evlənib, özümüzə balaca da olsa koma qurub, həyatımızı yaşayarıq.

- Yaxşı yenə sən deyən olsun. Ancaq demədin hara gedəcəyik?

- Teleqüllədəki restorana, oradan da bizə gedərik, səni valideynlərimlə tanış edəcəyəm.

Son sözləri eşidənicə Aysunun al yanaqlarına qızartı çökdü. Sol əli ilə yanaqlarına əl gəzdirdi, hiss etdi ki, soyuq qış havasına baxmayaraq sifəti alışıb, yanır. Susdu, bununla özünü eşitməzliyə vurmağa çalışdı. Ancaq bu çox çəkmədi, Alı Aysunun dillənmədiyini görüncə, Azneft meydanının qarşısında ayaq saxlayıb, onun gözlərinə baxdı. İstədi, bağrına basıb əzizləsin, - Bu lap ağa olar, - deyə fikrindən keçənlərdən imtina etdi. Ancaq əlini ovcuna alıb, - Aysun bilirsən ki, mənim bacım yoxdur. Atam çox arzu etsə də, anam mənə qardaş dünyaya gətirməklə kifayətləndi. Ona görə də istərdim ki, anamla isinişəsən, atama arzu etdiyi qızı olasan, - deyə xəyalındakıları dilə gətirdi.

Aysun Alını qırmaq istəməsə də, qeyri-ixtiyarı - bir neçə gün sonra zəng edib, bir bəhanə ilə sizə gedərəm, söz verirəm, - deyə nəzərlərlə Alının gözəl simasına baxdı.

Alı bir söz deməyib, yola davam üçün irəliyə addım atdı. Qız Alının ondan narazı qaldığını düşündüyündən, ərklə onun qolundan çəkib, dayandırdı. Bu elə cəld hərəkətlə oldu ki, çütlük nəfəs-nəfəsə dayanmalı oldu. Bir anlıq nə edəcəklərini bilmədilər. Hər ikisinin canına istilik yayıldığını hiss etdilər. Aysun istəməsə belə abır-həya xatirinə tez özünü ələ alıb, Alıya söyləndi:

- Yoxsa məndən incidin?

Aysun bu sözləri elə şirin dillə dedi ki, Alınınn canına yağ kimi yayıldı, hətta güldüdə:

- Yox, yox, nə danışırsan, hərbi xidmət zamanı məzuniyyətə gələcəyəm, o zaman bizə gedərik.

Aysun söz atmaqla, söhbətə şirinlik qatmağa çalışdı.

- Mənim sizə getməyimi, sənin məzuniyyətə gəlməyinə saxlamayacağam. Gedəcəyəm, səndə gəlib görəcəksən ki, mən yığışıb, oturmuşam sizin evinizdə, özü də sənin otağını və yatağını da ələ keçirmişəm.

Hər ikisi güldü. Aysun gülərkən, Alı fikir verib, öz-özünə - bu qız güləndə də gözəldir, gülümsər dodaqları təzə açılmış qırmızı lalə kimi təravətlidir - deyə düşündü. O sevinirdi, bu onun üçün ən gözəl, unuda bilməyəcəyi xoş anlar idi. Ürəyində Allahına təşəkkürlər etdi. Təşəkkürlər etdi ki, hərbi xidmətə getməmişdən öncə, Aysunla danışdı, ürəyindəkiləri ona deyə bildi. Aysunda eyni fikirdə idi. O da bu gözəl günü ona bəxş etdiyinə görə Allaha minnətdarlıq edirdi…

Sevgililər restorana gedib, yeyib-içdilər. Baş-başa qalıb, tələbəlik illərindən, dərslərdə bir-birinə oğrun-oğrun baxmalarından danışdılar. Bir-birindən ayrılmaq istəməsələrdə, vaxt onlara xudahafizləşməyi diqtə edirdi. Alı taksi saxlayıb Aysunu Yasamala evlərinə yola salıb, geri qayıdanda artıq saat birə işləyirdi. Mənzilin qapısını açıb, içəri daxil olanda anası onu qaşqabaqlı qarşıladı. Haqqı da vardı, çünki qarlı-şaxtalı bu qış günündə Alının hərbi xidmətə yola salınması üçün məclis

təşkil olunmuşdu. Anası bacısı və bacısı qızlarının köməyi ilə müxtəlif ləziz yeməklər bişirmişdi. Tanış-biliş, qohum-əqraba gəlmişdi. Qonaqlar xoş sözlər söyləyib, rəqs edib, şənləndilər. Ancaq Alı yox idi. Bir ara qonaqlar o haradadır- deyə soruşmuşdurlar. Almaz xanım və Alxas müəllim yalandan - tələbə yoldaşları ilədir, indilərdə, bu saat, bu dəqiqələrdə gələr - deməklə sualları cavablandırmağa çalışmışdılar. Budur artıq, Alı gəlib çıxmışdı. Otaqda olan qohum-əqraba bir anlıq ona baxıb, xoş gördük etdilər. Alı - axşamınız xeyir- deyib, anasına baxdı. O anasının qaşqabaqlı olmasının səbəbini bilsə də, həmişəki kimi əhvalını soruşmağa cəhd etmədi. Bilirdi ki, "nə olub, ay ana" deməsinə bənddi. Anası tapança kimi açılacaq, - harda idin, niyə gözümü yolda qoydun? - bu kimi sözlərlə abrını ətəyinə bükəcək. Ona görə də qorxa-qorxa anasına yaxınlaşıb üzündən öpdü. Sonra da əmisi Alxanla, onun həyat yoldaşı Solmazla daha sonra bibisi Simuzər və qızları, oğlanları ilə, xalası ilə görüşüb-öpüşdü. Görüşdüyü qohumlarının hər biri - ayə, harda idin, ə, evə bu vaxtı gələrlər? - sualları ilə onu qarşılayıb, sonra öpüşürdülər.

- A bala, uşağı nə sıxma-boğmaya salmısınız, bəlkə tələbə yoldaşları ilə bir yerdə olub.

Bunu deyən Alının dayısı Məzahir idi. Alı dayısından eşitdiyi sözlərdən ürəkləndi.

- Bəli, tələbə dostlarımla bir yerdə idik.

- Yəqin cansıxıcı olmasın deyə, orda qızlar da olub, - deyən dayısının sözləri otaqda böyük gülüşə səbəb oldu.

Məzahir araya xoş ovqat düşdüyünü görüncə yaxınlaşıb Alının üzündən öpdü:

- Sabahdan başlayacaq - "kişilik məktəbi"ndə uğurlar, sağ gedib salamat qayıdasan.

Otaqdakıların - amin - sədaları eşidilincə Almaz xanım kövrəldi. Yanaqlarından süzülən göz yaşlarını sağ əli ilə silib əllərini göylərə qaldırdı - Allahım, balamı hər cür bəladan hifz et, - deyə dua etdi.

Almazın səsi titrəyə-titrəyə dediyi sözlərdən Alının xalası Tükəzban da kövrəldi. Başına örtdüyü yaylığı ilə nəmlənən gözlərini sildi və sağ tərəfində Məzahirlə söhbət edən Alını qucaqlayıb öpdü. Alı da xalasının üzündən öpüb onu sakitləşdirmək üçün dedi:

- Ay xala, oğlanlar vardı ki, sovet bayrağı altında Əfqanıstanda, Macarıstanda, Almaniyada xidmət edirdi. İndi Allaha şükür, doğma diyarımızda vətənimizə xidmət edirik. Beş addımlıq yolda olacağam, istədiyiniz vaxt mənim yanıma gələcəksiniz. Bir də ki, bir il nədir ki, Fəxrəddin 11-ci sinfi qurtarıb universitetə qəbul olunanda gələcəyəm...

Almaz ananın sərt səsi Alıya fikrini tamamlamağa imkan vermədi.

- Yaxşı-yaxşı, sən yay-qış cibləri boş olan dədənin canı, otur o stulda, bir qismət çörək ye.

Alxas müəllim arvadının iynəli sözlərinə əhəmiyyət verməyib üzünü oğluna tutub dedi:

- A bala, ananın yenə tutması tutub, gəl-gəl, otur burda, dayınla sənin sağlığına içmək istəyirik.

Alxas müəllim sözünü deyib yanında boş olan stulu Alıya göstərdi. Məzahir də əlini Alının çiyninə qoyub, - gəl oturaq bacı oğlu, gəl, - deyib yerində oturdu, Alıya da oturmağa yer göstərdi. Almaz isə dil-boğaza qoymadan deyinməyə, hirsini-hikkəsini ərinin üstünə tökməyə başlamışdı.

- Camaatın kişiləri övladlarına yurd qurur, yuva salır, işə-gücə qoyur, bizimki də Bizim Cəbiş müllim kimi qoltuğunda papka məktəbə, məktəbdən də evə.

Alxas müəllim başını bulayıb arvadına, - ay Almaz, səbr elə, qohumlar gedəndən sonra zəhərini boşaldarsan - deyib, üzünü Məzahirə tutdu:

- Ayə, süz, əsgərin sağlığına içək.

Məzahir araq şüşəsini əlinə alıb, stəkanlara araq süzə-süzə bacısına acıqlandı.

- Yaxşı ay Almaz, heç olmasa ağsaqqaldan, ağbirçəkdən utan.

Deyəsən, Almaz səhvini başa düşmüşdü. Divanda oturub hıçqırtı ilə ağlamağa başladı. Nərgizlə Mənsurə də

xalalarının yanında oturub onu sakitləşdirməyə çalışdılar. Tükəzban da bacısına təskinlik vermək üçün dil-ağız elədi.

- Ay Almaz, bu nə çaxnaşmadır salmısan, axı sabah uşağını hərbi ximətə yola salırsan?!

Almaz hirsini-hikkəsini boğub hıçqıra-hıçrıqa dedi:

- Niyə məni başa düşmürsüz? Min bir zillətlə, əziyyətlə uşaq böyüt, axırda da gəlib əlindən alıb aparsınlar.

Alxas müəllim söz atdı:

- Camaat toyuq-cücə böyüdür? Əsgərliyə gedən oğulların anası yoxdur?

Alxasın sözləri Almazı özündən, çıxartdı, əlini ölçə-ölçə qeyzlə deyindi:

- Hə, əsgərliyə gedənlər yetim-yesirin, kasıb-kusubun uşaqlarıdır. Bir varlı-karlı, vəzifəli şəxslərin uşaqları hərbidə deyil. İnjener Məmişin oğlu Cavid əsgərliyə gedibmi, yoxsa Kənd Təsərrüfatı Nazirliyində işləyən Nərgiz xalanın oğlu Saleh əsgərliyə gedib?

Alxasın bacısının əri Səbuhi söz atdı:

- Ay Almaz, bu vətən elə kasıb-kusubun vətənidir də...

Restoran sahibi olan Səbuhinin qohum-əqrəba arasında böyük hörmət-izzəti vardı. Xeyir-şər işlərində fəal olar, öz imkanı daxilində yardım göstərməkdən çəkinməzdi. Elə Alının sonuncu kursunda illik ödənişini də, Səbuhi etmişdi. Alxas qəpiyi-qəpiyin üstünə qoyub pulu qaytarmaq istəsə də, Səbuhi

götürməmişdi. Demişdi ki, qohum-qohuma nə gündə gərəkdir, inşallah, gələcəkdə Alı mövqe sahibi olanda mənim uşaqlarıma əl tutar, kömək edər. Alxasda də çox təkid etməmişdi, təşəkkür edib evinə gəlmişdi. Sonradan Səbuhinin qızı Cəmilə ailə quranda, oğlu Faiq hərbi xidmətdən gələndə Alxasda Almaza xonçalar bağlatdırmış, Səbuhinin evinə getməklə onun xəcalətindən çıxmağa çalışmışdılar. İndi də Almaz Səbuhinin dilləndiyini görüb səsinin tonunu aşağı saldı, sakit səslə dedi:

- Səbuhi qardaş, elə Vətənə xidmət etmək, torpağı qorumaq biz yazıq-yuzuğa qalıb? Niyə o birilər...

Səbuhi onun sözünü kəsib aramla dedi:

- Almaz xanım, əsgərlik kişilik məktəbidir. Hər bir oğul bu məktəbin məzunu olmalıdır. Türkiyədə hərbi xidmətə getməyənlərə qız da vermirlər.

Almaz gözucu bacısı qızı Mənzurəyə baxıb söz atdı:

- Qızların minnəti olsun ki, mənim Alı balama nişanlı olacaqlar.

Səbuhi yenə təslim olmaq istəmədi:

- Azərbaycan Parlamenti qanun qəbul edəcək: Hərbi xidmətdə olmayanlar dövlət vəzifəsinə təyinat ala bilməyəcək, həm də qızlar onlara ərə getməyəcək.

Almaz yenə söz demək və Səbuhini borclu çıxarmağa çalışdı. Ancaq Alı ona imkan vermədi. Əlindəki çəngəli

boşqabına qoyub anasına yaxınlaşdı. Onun qarşısında dizləri üstə çöküb, əllərini ovucunun içinə alıb dedi:

- Ey mənim başımın tacı, könlümün həmdəmi anam. Bilirsən Avreli Avqustin nə deyib?

Almaz çaşqın halda oğluna baxıb, - nə deyib ki? - deyə qeyri-ixtiyari sual etdi.

- O müdrik, dahi şəxsiyyət deyib ki, qadın elə bir mələkdir ki, biz uşaq ikən qoruyur, gənc ikən xoşbəxtliyimiz üçün çalışır, qocalanda isə təsəlli verir. Ey mənim mələk simalı gözəl anam, səni başa düşürəm. Mənim bu vətən qarşısında bir borcum var. Əsgəri borcumu bitirdikdən sonra bir övlad olaraq sizlərin də borcunuzu ödəməyə çalışacağam.

Səbuhinin məsləhətinin ardınca oğlunun qətiyyətli sözləri Almazı yumşaltdı. Ona görə də oğlunun əlindən tutub ayağa qaldırdı. Bacısı qızlarına göstəriş verdi.

- Süfrəni yenidən bəzəyin. Tortu da gətirin kəsək.

Alı anasının sakitləşdiyini görüb demək istədiklərini sakit səslə dilə gətirdi:

- Ana, tortu kəsəndən sonra sənə özəl sözlərim var.

Almaz oğlunun düzənlənən məclisə gecikməsindən dalağı sancmışdı. Bu baxımdan, onun nə deyəcəyini təxmin etmişdi. Həm də hiss etmişdi ki, oğlunun onun arzu və istəyinə zidd olaraq Mənzurəyə marağı yoxdur, başqa qoruyucu mələyi var, amma kim? Bu, onu narahat etməyə başladı. Məclisin tez

başa vurub oğlu ilə baş-başa qalmağa tələsdi. Ani fikrə də getdi:

- Oğlumun qəlbindəki, könlündəki kimdir, haralıdır, ata-anası kimdir? Tez də özünü ələ alıb qərar verdi. Kim olur-olsun, halal ocağın övladı olsun. Oğlumun könlünü oxşayan, başa düşən, ürəyincə birisi olsun.

Almaz düşüncələrinə son verib, yanında oturan oğluna baxdı. Pıçıltı ilə söyləndi:

- Boyuna da, sevdiyin qıza da qurban olum, ay bala.

Alı anasının ona nəvazişlə baxıb pıçıltılarını hiss etsə də, nə dediyini soruşa bilmədi. Sadəcə, - ana, yaxşısan? - deməklə kifayətləndi. Almaz sol əlini oğlunun enli kürəyinə qoyub,-hə, - deyə bildirdi. Sonra da - qızlar, tortu gətirin! - deyib mətbəxdən otağa daxil olmaqda olan Mənzurəyə səsləndi. Az sonra məclis yenidən qızışdı. Qohumlar yeyib-içib şənlik etdilər. Alıya əsgəri xidmətdə uğurlar arzuladılar.

*** *** ***

Maşın çuxura düşüb dayandı. Sürücü bir neçə dəfə geriyə-irəliyə verib, nəhayət, yolunu davam etdirməyə nail oldu. Bu anda maşının yaxınlığında mərmilər partladı. Eyni anda səs eşidildi:

- Kaş o mərmilərdən biri bu maşının üstünə düşüb, bizi namussuzluqdan, qeyrətsizlikdən xilas edəydi.

Başqa bir kişi xırıltılı səslə - kaş elimizdə-obamızda biz də arvad-uşağımız kimi ölüb bu zülmü görməyəydik, - deyə ağlar səslə bildirdi.

Maşının yırğalanmasına və kişilərin baş-başa verib ağlamalarına gözlərini açan Talıb sağa-sola boylandı. - Ayıldı, ayıldı, - sözlərini eşidincə təəccübləndi. - Nə olub, nə baş verir, - sualına cavab tapmaq üçün diqqətini toplayıb, - ayıldı- deyənin kimliyini aydınlaşdırmağa çalışdı. Bacarmadı, uzanıqlı vəziyyətdə başını qaldırmaq istədi, səs eşitdi:

- Talıb, ay oğul, sağsan. Allaha çox şükür. Uzan bala, uzan, görək başımıza nə gələcək?

Talıb növbəti dəfə başını qaldırıb uzandığı yerdən ayağa qalxmağa çalışdı, ancaq alınmadı. Bütün bədəninin sızıldadığını və güclə nəfəs aldığını hiss etdi. Əzmini, iradəsini toplayıb, nə baş verdiyini aydınlaşdırmağa cəhd etdi. Bir şey təxmin etməsə də, anladı ki, bir qədər əvvəl bərk döyülüb, işgəncəyə məruz qalıb. Özündə güc, iradə tapıb, başını Savalan kişinin dizinin üstündən az da olsa qaldırıb, pıçıltılı səslə - əmi sizsiniz, biz hardayıq? - deyə sual dolu nəzərlərlə gözlərini Savalan kişiyə dikdi.

Savalan kişinin 7-8 erməni əskərinin yumruq, təpik zərbələrindən sonra özündən gedən Talıbın nəfəs alacağına,

yenidən həyata qayıdacağına ümidi çox az idi. Ancaq indi Talıbın özünə gəlib, danışmasından bir növ sevincək olsada, erməni əlində olduqlarını düşündükcə, dünya başına fırlanırdı.

Talıb xırıltılı səslə yenidən sual etdi:

- Savalan əmi, biz hardayıq?

Savalan kişi sağ əli ilə əmisi nəvəsinin alnına, saçlarına əl gəzdirib, ağlar səslə dedi:

- Ay oğul, cəhənnəmdə, erməni gavurlarının əsirliyində.

Talıb erməni əsirliyində sözlərini eşidincə, hər şeyi başa düşdü. Sağ əlini maşının dəmir döşəməsinə dirəyib yarıbükülü oturdu. Ətrafına nəzər yetirdi. Yolun sağ və sol hissəsində qadın, uşaq meyitlərini görüncə Talıb dəhşətə gəldi, maşında büzüşüb, artıq az qala acı taleləri ilə barışmış kəndçilərini süzüb, Savalan kişiyə sual etdi:

- Necə oldu ki, ermənilər bizi əsir aldılar? Qohum-əqrabadan xəbər varmı?

- Ay oğul, hamısını dəyirmanın yanında tutublar, qadınlar və uşaqlar bizdən öndəki maşındadılar.

Talıb anasının və qardaşının da əsir düşdüyünü eşidincə dünya başına fırlandı. Nəsə etmək istədi. Ancaq silahlı ermənilərin əhatəsində nə edə bilərdi ki. Gücü ancaq göz yaşlarına çatdı. Hönkür-hönkür ağladı.

Savalan kişi onun çiynini döyəcləyib sakitləşdirməyə çalışdı. İnilti və ardınca da - Bəxtiyar dayı, mən ölürəm, - səsini

eşidincə, ani çevrilib maşının çıxış tərəfinə baxdı. Üz-gözü qan içində olan Şaban kişinin oğlu Azər əlləri ilə qarnını tutub iniltili səslə dayısı Bəxtiyara son vəsiyyətini edirdi. Bəxtiyar isə çarəsizcəsinə onun başını ovxalayır, hərdən də üz-gözündən öpüb dözməsini xahiş edirdi. Az sonra Azərin iniltisi kəsildi. Girovlar arasında olan Molla Cavadın sakit səslə "Yasin surəsi"ni pıçıltı ilə oxuması artıq Azərin öldüyünü göstərirdi. Bəxtiyar bacısı oğlunun başını sinəsinə sıxıb hönkür-hönkür ağlayırdı. Talıbı təəccüb dolu dəhşət bürümüşdü. Kəndin xeyir-şərində bir yerdə olan insanlar Azərin canını tapşırmasına soyuqqanlı qalmışdı. Sual dolu nəzərlə gözlərini Savalan kişinin gözlərinə dikdi. Ağsaqqal onu başa düşdü. Pıçıltılı səslə - eyni dərddə, eyni ağrı-acıda olan insanlar nə deyib bir-birinə təskinlik verə biləcək ki, a bala? - deyə söyləndi. Talıb yanıqlı ah çəkib düşüncələrə daldı. Evlərini, nişanlısını xatırladı, erməni əsgərlərinin gözlənilmədən həyətə soxulub onu avtomatın qundağı, təpik-yumruqla vurduqdan sonra sürüyüb küçədəki yük maşınının kuzovuna atmalarını xatırladı. Artıq hər şeyi dərk etməyə başlamışdı. Bir anlıq kino lenti kimi xəyalından atasının, bacısının, nişanlısının və digər qohumlarının öldürülməsi gəlib keçdi.

Savalan kişinin - a bala, Samvel Xacaturyan sənin-lə yaman maraqlanırdı, onunla nə əlaqən? - sualı Talıbı ağır, uzücü xəyaldan ayıltdı.

- Xatırlamıram, o, kimdir ki?

- İkinci korpusun komandiridir, kəndimizi darmadağın edib, əzizlərimizi öldürüb, bizləri əsir alan.

Bu sözləri deyən kəndin orta məktəbinin ədəbiyyat müəllimi Zahid idi.

Savalan kişi nəsə xatırlayıbmış kimi dedi:

- Deyəsən, o, polisdə işləyirdi.

Yenidən Zahid müəllim düzəliş verdi:

- Hə, Xankəndi dövlət avtomobil müfəttişliyinin polis nəfəri idi. İdmançıdır, deyəsən cüdodur, nədir onunla məşğul olurmuş.

- Necə-necə, idmançıdır? - Talıbın təəccüb dolu səsi eşidildi.

Erməni komandirinin tərcümeyi-halı barədə məlumatlı olan Zahid müəllim dilləndi:

- Hə, idmançıdır.

Talıb qaşlarını çatıb əsəbi formada:

- Ay yaramaz, Saşa, - deyə dişlərini qıcıb əlini bir-birinə vurdu.

Zahid müəllim onun əsəbi hərəkətindən bir şey anlamadığından sual etdi:

- Talıb, nə olub, onu tanıyırsan?

- Hə, dəfələrlə cüdo yarışlarında üz-üzə gəlmişik. Hər dəfə də ipponla onun dizlərini yerə vurmuşam.

Savalan kişi indi hər şeyi başa düşdü. Sarı təpədə erməni əsgərlərinin cəhənnəm məhkəməsi qurub, işgəncə ilə əsirləri döyüb sonrada qətlə yetirəndə niyə Talıba toxunmadılar. Halbuki, Xocavənd Qaz idarəsində işləyən Valod Talıbın

üstünə avtomatı çəkib onu öldürmək istəmişdi. Ancaq Samvel - onunla Xankəndində rinqdə haqq-hesab çəkmək andım var - deməklə Valoda mane olmuşdu. O zaman Talıb özündə olmadığından baş verənləri tam dərk etməmişdi…

Savalan kişi Talıbı gözləyən fəlakəti dü-şündükcə öz dərdi, ailəsinin əsir düşməsi yadından çıxdı. Başını dizlərinə tərəf büküb, əlləri ilə üzünü örtdü. Birdən maşın ləngər vurub, dayandı. Arxadan gələn vilisin sürücüsüdə, idarə etdiyi maşını sağa verib, saxladı. Həmin an qabaq hissədən arvad-uşağın göylərə yüksələn ağlaşması eşidildi. Az keçmədi ki, kişilərin olduğu maşının qapısı açıldı. Avtomatı üstlərinə tuşlayan 4 erməni əsgəri müxtəlif təhqiramiz sözlərlə onların yerə düşməsini əmr etdilər. Yazıq, biçarə, insanlar qorxa-qorxa kamazın kuzovundan yerə düşüb, göstərişə əsasən sıraya düzüldülər. Azərin ruhsuz bədənindən başqa bir nəfər də kuzovda uzanılı qalmışdı. Bu dəllək Mehdi kişi idi. İri gövdəli, saqqallı erməni avtomatını kuzova tuşlayıb ardıcıl atəş açdı. Dəllək Mehdi ayaqlarını, daha sonra sağ əlini qıcıb, həmişəlik gözlərini yumdu. Həmin erməni şaxtanın sazağında titrəyən insanlara yaxınlaşıb, avtomatının qundağı ilə adamların başlarına, sinələrinə ardıcıl zərbələ vurduqdan sonra - paltarlarınızı soyunun-əmrini verdi. Biçarə insanlar qorxudan göstərişi yerinə yetirməyə başladılar. Əlləri soyuqdan donduğundan köynəklərinin düymələrini açmaqda çətinlik

çəkənlər daha amansız işgəncəyə məruz qalırdılar. Erməni əsgərlər həmin donmuş biçarələri təpiklə yerə yıxır, sonra da avtomatlarının süngüsü ilə köynəklərini öndən və arxadan kəsib, onları soyundururdular.

Talıb gödəkçəsini çıxartsa da isti, yun jaketini çıxarmadı. Deyəsən, bu, soyunmaq əmrini verən yekəpər, saqqallı erməni zabitinin gözündən yayınmadı. Alıcı quş kimi cumub Talıba yaxınlaşınca onun sinəsinə bir təpik vurdu. Əgər bu zərbə başqa bir əsirə dəysə idi, arxası üstə yerə yıxılardı. Talıbın isə şax dayanması saqqallı erməni zabitini təəccübləndirdi. Təhqiramiz sözlər səsləndirməklə ardıcıl olaraq ona təpik, yumruq vurdu. Atasını, bacısını, nişanlısını itirən, anasının, qardaşının öldüklərindən, qaldıqlarından xəbərsiz olan, elindən, obasından məhrum olan Talıba erməni zabitinin fiziki zərbələri təsir etmirdi. Sanki ruhsuz bədən idi. Elə donmuş vəziyyətdə sağında-solunda kişilərin təhqir olunmasını, qadın və qızların əyinlərindəki paltarları cırıb, döyə-döyə zorlamalarını seyr edirdi. Bu laqeydlik erməni zabitini daha da qəzəbləndirirdi. Birdən erməni zabiti avtomatını Talıbın üstünə çəkib, diz çökməsini əmr etdi. Talıb yenə gözlərini uzaq nöqtəyə dikib susdu. Yerdə erməni əsgərinin vurduğu təpik zərbələrindən ciddi zədə aldığı üçün əlləri ilə qarnını tutub qıvrılan Savalan kişi bir anlıq gözlərini açıb sağına-soluna boylandı. Erməni zabitinin Talıbı güllələmək üçün avtomatını

hazır vəziyyətə gətirdiyini görüncə özünü toparlayıb köməyə tələsdi. Çətinliklə də olsa ayağa qalxıb, Talıba yaxınlaşdı. Onu qucaqlayıb, erməni zabitinin tələbini yerinə yetirməsini xahiş etdi. Bu mənzərə ermənini daha da özündən çıxartdı. Avtomatının qundağı ilə Savalan kişinin sinəsinə ardıcıl iki zərbə vurdu. Savalan kişi zərbənin təsirindən səntirləyib, ağızı üstə yerə yıxıldı.

Talıb Savalan kişiyə kömək etmək istədi. Ancaq erməni zabiti ona imkan vermədi. Yaxasından tutub, dərənin uc hissəsinə tərəf sürüdü. Niyyəti Talıbı güllələdikdən sonra dərə aşağı atmaq idi. Bu an – Arman, əl saxla, mənim o türklə özəl haqq-hesabım var, - deyə arxadan səs gəldi.

Erməni zabiti qəzəbli səslə qışqırdı. - Bunu gəbərtməsəm Vinka nənəmin çörəyi haramın olsun - deyib, avtomatını Talıba tuşladı.

Bayaqkı səs bu dəfə əmr etdi.

- Zabit, silahını geri çək. Yoxsa səni də, nənəni də dünyaya gəlməyinizə peşman edərəm.

Erməni zabiti tələbin yerinə yetirilməyəcəyi təqdirdə vəziyyətinin ağır olacağını deyəsən başa düşdü. Ona görə də avtomatını aşağı endirdi. Sonra yerə tüpürüb, kənara çəkildi.

Talıb jaketinin yaxalığını düzəldib aşağı əyildi. Yerdən qar götürüb, yumruq zərbəsindən burnundan açılan qanı sildi. Başını qaldıranda, onu tanıdı. O, dəfələrlə cüdo yarışlarında

üz-üzə gəldiyi, ev-eşiklərini viran qoyan 2-ci korpusun komandiri Samvel Xaçaturyan idi. Xaçaturyan ona baxan Talıba nəzər yetirdi. Sonra da kinayə ilə söz atdı.

- Hanı, o idman yarışlarındakı qürur, təkəbbür, mənəm-mənəmlik?

Talıb dinmədi. Xaçaturyan Talıbın sinəsinə bir yumruq vurdu.

- Bura idman meydançası deyil ki, hakimləri ələ alıb, birincilik qazanasan. Bura pulun işləmədiyi, yuxarıların sözünün keçmədiyi bir meydandır. Ona görə də biz qalib gəldik.

Erməni komandiri sözlərinə ara verib, Talıba sərt nəzərlə baxdı. Onun dinmədiyini görüb, dedi:

- Böyük Ermənistanın sərhədlərini bərpa etdikdən sonra sənlə görüşəcəyik, kişi kimi sən və mən. Dillənmirsən, çünki haqlı olduğumu, düz danışdığımı başa düşürsən.

Talıb özündən asılı olmadan gülümsədi. Bu Xaçaturyanın nəzərindən qaçmadı. Qalın, cod saqqalına əli ilə sığal çəkib dedi:

- Nə fikirləşdiyini təxmin edirəm. Amma nə fikirləşdiyin mənim vecimə deyil. Mənim üçün indi əsas məqsəd, böyük Ermənistanın paytaxtında sənlə təkbətək döyüş keçirməkdir. Təbii ki, orada pulla ələ alınan hakimlər olmayacaq.

Samvel Xaçaturyan Talıbın yenə dillənmədiyini görüb, acıqlı səslə onun üstünə qışqırdı:

- Sənə nifrət edirəm. Dəfələrlə Ermənistan yığmasına düşmək arzularımın qarşısını sən almısan.

Talıb istədi ermənіyə "sənə nifrət etmək üçün yeganə səbəb onun sənə oxºaya bilməməsidir" aforizmini xatırlatsın. Ancaq demədi, əvəzində - Savalan kişini, Bəxtiyarı və digər yaşlı insanları burax-deyə bildirdi.

Samvel Xaçaturyan bir anlıq kinayə ilə onu süzüb dedi:

- Hansıdır o dediyin Savalan, Bəxtiyar?

Talıb, əli ilə hələ də yerdə uzanılı qalan Savalanı və dizlərini büküb, qarın üstündə oturmuş Bəxtiyarı göstərdi.

Xaçaturyan iki əsgərə qarın üstündə uzanılı qalan Savalan kişini onun yanına gətirmələrini əmr etdi.

Əsgərlər Savalanı yerdən qaldırıb Xaçaturyanın yanına gətirdilər. Erməni komandir Savalanın qəmli gözlərinə və sifətinə baxıb güldü. Sonra da tapancasını belindəki qoburdan çıxarıb, tətiyi çəkdi. Savalan kişi səndələdi, əlləri yuxarıya qalxdı, ayaqları büküldü, arxası üstə qarın üstünə yıxıldı. Gördüyü mənzərədən dəhşətə gələn Talıb qaçıb Savalan kişinin boynunu qucaqladı, hönkür-hönkür ağladı. Daha bir neçə atəş səsi eşitdi. Xaçaturyan Bəxtiyarı, daha sonra naxırçı Bilman kişini güllələdi. Ətraf ancaq qırmızı idi. Ara verməyən qar damcıları da qan izlərini silə bilmirdi. Bu ətrafda qorxu,

dəhşətli vahimə yaradırdı. Ermənilər isə sakitləşmək bilmirdilər. Hamı göz yaşı tökür, Allahdan yardım istəyirdi. Qoç qurbanlar, nəzir-niyaz deyənlərdə vardı. Azğınlaşmış ermənilərin işgəncə maşını isə susmaq bilmirdi. Ən tükürpədici, amansız qətliamlar isə hamilə qadınların zorlandıqdan sonra qarınlarının yarılıb uşaqlarının çıxarılaraq parçalanması idi. Daha dəhşətlisi isə valideynlərin gözləri önündə körpə və azyaşlı uşaqların qətlə yetirilməsi olurdu. Kəlbətinlə əsirlərin qızıl dişlərini çıxarıb, onlara fiziki işgəncə verir, namuslarını müdafiə etmək üçün önə çıxan kişiləri öldürürdülər. Qətliam və işgəncə iki saata yaxın çəkdi. Qaranlıq düşəndə Xaçaturyan əmr verdi:

- Əsirləri Xankəndinə aparıb, Sovxozun mal tövləsində yerləşdirin.

Fikrini tamamladıqdan sonra Xaçaturyan onu gözləyən vilisinə tərəf addımladı. Maşının qapısını açıb, minməmişdən əvvəl leytenant Armanı səslədi:

- Arman, bura gəl.

Qanlı əllərini qarda yuyub, təmizləməyə çalışan Arman Samvelin səsini eşidincə qaça-qaça ona yaxınlaşdı.

- Mən kəndə gedirəm - Erkişə. Sən dəstəni Xankəndinə apar. Yolda axmaqlıq da eləmə. Çalış o cüdoist özünə xətər yetirməsin.

Etimaddan ruhlanan Arman Xaçaturyanın qarşısında iki qat əyilib -baş üstə - dedi və ona yaxşı yol arzuladı.

Xaçaturyan getdikdən sonra Arman əsgərlərə öldürülənləri dərəyə atmağı və əsirləri maşınlara mindirib, yola davam etməyi əmr etdi. Özü isə hələ də Savalan kişinin cansız bədənini qucaqlayıb ağlayan Talıba yaxınlaşıb, arxadan ona bir təpik vurdu. Erməni vəhşiliyindən dərin sarsıntı keçirən Talıb gözlənilmədən sağ əli ilə Armanın ağzını, sol əli ilə boynunu tutub, cəld hərəkətlə burdu. Arman bir neçə saniyə ayaqlarını yerə döyəcləyib, canını tapşırdı. Talıb, eyni cəld hərəkətlə onun avtomatını və belindən asdığı qranatı götürüb, ayağa qalxdı. Artıq erməni əsgərlər onu görmüşdülər. Dərhal avtomatlarını ona tuşlayıb atmağa hazırlaşdılar. Ancaq Talıbın qranatı onların üstünə atmasından yaranan güclü patlayış erməni əsgərlərinin pərən-pərən düşməsinə səbəb oldu. Talıb vaxt itirməyib avtomatının darağını ermənilərin toplaşdığı istiqamətə boşaltdı. Ətrafda yaranan qarışıqlıqdan istifadə edən Talıb qaça-qaça dağın ucuna çatıb fikirləşmədən özünü qayadan aşağıya atdı. Arxadan avtomat, pulemyot səsləri eşidildi. Dəhşətli partlayışlar az qala dağ-dərəni yerindən oynadırdı. Talıb sağ-salamat idi. O, qarlı gicitkən kolunun üstünə düşdüyündən sadəcə yanaqları cızılmışdır. Kolun üstündən sürünüb çıxdı. Ayağa qalxıb, yarğanın arasına keçməyə çalışdı. Çətinliklə də olsa güllə yağışının, qranat

qəlpələrinin tutması mümkün olmayan yarğana keçdi. Amma burada çox qala bilməzdi. Ermənilər onu məhv etmək üçün dağı belə partlada bilərdilər. Ona görə də sağ qalmaq üçün tələsməli, yollar axtarmalı, düşünməli idi.

- Hə, hə tapdım, uşaqlıq xatirələrimin yadigarı olan mağaraya girməliyəm, Allahım sənə çox şükür - deyib, yarğanın içi ilə irəliləyib, qarşı dağa keçdi. Qaranlıq düşdüyündən ermənilər onu görə bilməzdi. Ancaq arxayın da ola bilməzdi. Gecə görücü aparatla onun hərəkətini müəyyənləşdirib, öldürə və ya əsir ala bilərdilər.

- Burdadır - deyə öz-özünə qərar verib, sıx bitən gicitkən kollarının arasından sivişib mağaraya girdi. Rahat nəfəs aldı. Mərmi, qranat partlayışları ardıcıl guruldayır, pulemyot, avtomat səsləri durmadan şaqqıldayırdı. Bir qədər sonra sakitlik yarandı. Deyəsən, ermənilər gülləbarandan onun sağ çıxa bilməyəcəyini düşünmüş, silahları işə salmağı dayandırmışdılar. Talıb, - yaxşı bundan sonra nə etsin, Ağdama necə gedib çıxsın? – deyə öz-özünə fikirləşdi. Qaranlıq mağaranın küncünə çəkilib oturdu. Gözləri önündə yaxın qohumlarına qarşı ermənilərin törətdiyi vəhşiliklər canlandı. Əllərini dizlərinin üstünə qoyub, ağladı. Dövləti qarğıdı, hakimiyyətdə olanları yamanladı. Onları vətəndaşlarını köməksiz qoymaqda ittiham etdi… Qəfil mina partlayışı, ardınca da pulemyot atəşləri onu göz yaşlarını silib, səs-küyə diqqət kəsilməyə məcbur

etdi. Bir xeyli səksəkə içində partlayışları dinlədi. Az keçmədi ki, yaxınlıqda danışıq və atəş səsləri də eşidildi. Başa düşdü ki, erməni zabitləri sakitləşməyiblər, onun ölüsünü, dirisini tapmaq üçün əsgərləri axtarışa göndəriblər.

Talıb ermənilərin bu yeri tapa biləcəklərini güman etmirdi. Ancaq yenə narahat idi. Amma az sonra atəş və partlayış səsləri kəsildi, dağlar qoynuna lal sükut çökdü. Talıb ayağa durub, mağaranın önünə gəldi, oğrun-oğrun ətrafı seyr etdi – sakitlikdir, - deyə öz-özünə söyləndi. Xəyalında gözəl, qayğısız uşaqlıq illəri canlandı, yadına düşdü ki, bir zaman bu yerlərə yemişan, turşəng yığmağa gələr, hər dəfə də mağaraya girib, süfrə açar, çörək yeyərdilər. Hətta bir dəfə üç dost sözlərini bir yerə qoyub, şam işığında gecəni mağarada qalıb, səhərə qədər deyib, gülüb söhbət etmişdilər. Ermənilər ev-eşiklərini əllərindən alıb, ailəsini öldürdüyü kimi uşaqlıq xatirələri olan bu yerləri də əllərindən almışdılar. Talıb səhərə qədər mağarada qalmaq istədi. Ancaq ehtiyat etdi ki, səhər açılar ermənilər yenidən axtarış aparıb, onun gizləndiyi yeri müəyyənləşdirə bilərlər. Dan yeri ağarmamış təhlükəsiz yerə çatmalı idi. Ona görə də asta addımlarla mağaradan çıxıb, gicitkan kollarını keçib, dağdan aşağı enməyə başladı. Cüneyd bulağına çatanda kəndlərinə boylandı. Evlər hələ də yanırdı. Küçələrdə, həyətlərin önündə yük maşınları, traktorlar dayanmışdı. Deyəsən, vəhşilər evləri qarət edirdilər. Talıb

yanıqlı ah çəkib, evlərinin olduğu yerə boylandı. Atasının, bacısının dəfn olunduğu bağçalarını düşündü. Nişanlısının və valideynlərinin cansız bədən-lərinin aqibətini fikirləşdi. Yenə də dövləti qınadı, ürəyində asdı-kəsdi. Gözləri yaşardı, hıçqıra-hıçqıra ağladı. Əkin sahəsinin qurtaracağındakı çinar ağacının qarşısında yerə çöküb, həsrətlə, göz yaşları içində alova bürünən kəndlərini seyr etdi. Bir anlıq fikrə getdi.

- Necə və hansı yolla kəndlərini qəsb edən, ailə üzvlərini qətlə yetirən erməni hərbiçilərindən qisas alsın? Çox baş sındırmadı. Beynində qurduğu planını dodağında pıçıltı ilə dilə gətirdi. Basqın edib, Xaçaturyanın ailəsinə ağrılar, acılar yaşatmaq. Amma kiminlə? Bu sualın da cavabını tapmaq çox çəkmədi - hə başqa kim ola bilərki? Onsuzda bizim itirəcəyimiz bir şey yoxdur.

Talıb qisas almağa yaxın olduğunu fikirləşəndə, bir qədər özünü rahat hiss etdi. Ancaq planını hərbidən, müharibə qaydalarından, məxfi əməliyyatlardan başı çıxmayan dostlarla həyata keçirmək, göz görəsi özlərini ölümə atmaq idi. Ona görə də planını korpus komandiri Cavadzadə ilə müzakirə etməli, hətta ondan kömək istəməli idi. Bu düşüncə ilə də ayağa qalxıb, yoluna davam etdi.

*** *** ***

Dan yeri söküləndən cəbhənin Cənub və Qərb cinahından başlayan hərbi əməliyyatlar uğurla nəticələnməkdə idi. Artıq 130-ə yaxın kənd və qəsəbə, strateji yüksəklik düşməndən azad edilmişdi, yalnız Əskəran uğrunda gedən döyüşlərdə düşmən müqavimət göstərir, hətta müəyyən hallarda Azərbaycanın ordu birləşmələrini geri çəkilməyə məcbur edirdi. Qarabağda ciddi dönüş əldə etmək baxımından Əskəran çox önəmli strateji məntəqə hesab olunduğundan

Məmməd Cavadzadə əməliyyatı dayandırmaq istəmirdi. Tələsirdi, sabah səhərə qədər də olsa Şoş və Xramort kəndlərini düşməndən təmizləyib, Əskərana daxil olmalı idi. Gecikmək ağır fəsadlar verə bilərdi. Ən azı düşmənə Rusiyanın Ermənistandakı hərbi bazasından kömək gələ bilərdi.

Narahat və əsəbi durumda olan Məmməd Cavadzadə növbəti dəfə komanda idarəetmə mərkəzindən düşmənin cəbhə xəttini müşahidə edib, saatına baxdı, 4-ə qalır, - gecə döyüşlərinə hazırlaşmaq lazım gələcək, - deyə qətiyyətlə qərar verdi. Havada təyyarə səsi eşidib, komanda mərkəzindən çıxdı, göyə baxıb, sağa-sola boylandı, "Delfin" helikopteri idi, cəbhənin qərb hissəsində Azərbaycanın mövqelərini bombalayırdı. Dərhal əmr verdi, artilleriya havadakı obyekti məhv

etsin. Köməkçiləri əmri artilleriyaçılara çatdırmaq üçün hava rabitə sistemini işə saldılar. Koordinatların düzgün müəyyənləşdirilməsi və artilleriyaçıların sərrast atəşləri öz müsbət nəticəsini verdi. Helikopter ilk öncə ləngər vurdu, daha sonra alova büründü və Naxçivanik istiqamətində yerə düşdü. Korpus komandiri rahat nəfəs aldı. Ratsiya ilə artillerya komandiri Qara Həmidovla əlaqə saxlayıb, helikopteri məhv etdiklərinə görə, ona və əsgərlərinə minnətdarlığını bildirdi. Onların döyüş ruhunu bir qədər də yüksəltmək üçün vətən və torpaqla bağlı gözləri yaşardan fikirlər söylədi. Danışığını yekunlaşdırıb, komanda idarəetmə mərkəzindən çıxdı, nəzərlərini ön cəbhəyə dikdi. Hər yer alova bürünmüşdü. Mərmi, raket partlayışları ara vermədən guruldayır, avtomat, pulemyot səsləri bir-birinə qarışıb, dəhşətli effekt yaradırdı. Bəzən mərmilər onun yaxınlığında partlayırdı. Ancaq bu partlayışlardan korpus komandiri gözlərini belə qırpmırdı. Sanki ölümə meydan oxuyurdu. Bu zaman köməkçi zabit ratsiyanı ona uzadıb - cənab polkovnik 4-cü alayın komandiri Fərəc Ağayevdir, - deyə bildirdi. Məmməd Cavadzadə tez-tələsik dəstəyi alıb, qulağına tutdu, - Cənab polkovnik, Şoş və Xramort kəndləri düşməndən azad edildi, Əskərana yolumuz açıqdır, - deyə Fərəc Ağayev raport verdi.

Polkovnik Məmməd Cavadzadə raportu dinlədikdən sonra növbəti əmrini verdi:

-Təxirə salmadan müdafiə üçün istehkamlar qurub, orda artilleriya qurğuları yerləşdirin.

Fərəc Ağayevin ratsiyada səsi eşidildi:

- Oldu, cənab polkovnik. Ancaq onu deyim ki, yaxın saatlarda cənubdan Mənəş kəndini erməni-rus hərbi birləşmələrindən azad edib, Əskərana yaxınlaşacağıq. Bunun üçün Bilal Kazımovun rəhbərlik etdiyi kəşfiyyat-diversiya dəstəsi ilə Kobaş düzündə qüvvələrimizi birləşdirməyi planlaşdırırıq. Ona görə də müdafiə-istehkam tədbirləri görməyə ehtiyac qalmayacaq. Biz Əskəranı azad etməyə hazırıq. Sizin əmrinizi gözləyirik.

Əminliklə deyilən qətiyyətli izahatdan razı qalsa da polkovnik bir anlıq nə cavab verəcəyini bilmədi. Fərəc Ağayevin səsi eşidildi:

- Cənab polkovnik, sizin əmrinizi gözləyirik, nə edək.

Məmməd Cavadzadə sanki bu dəqiqə qətiyyət göstərməsə sonra gec olacaq düşüncəsindən ayılıb, əmr verdi:

- Əskəranın düşməndən azad edilməsi üçün bu dəqiqədən etibarən səlahiyyət sahibisiniz. Azərbaycan bayrağının Əskəranın dövlət qurumlarının binalarından asılmasını təmin edin!

Fərəc Ağayev polkovnikin son anda qərarını dəyişərək əməliyyatı davam etdirməyə razılıq verməsindən razı qalmışdı. Hətta demək olar ki, sevincək olmuşdu. Ona görə də bayaqdan

ehtiyatla, sakit səslə dediyi sözlərini bu dəfə daha uca səslə və qətiyyətlə dedi:

- Bu axşam Əskəranı azad edəcəyik! Yolumuz Sərsəng su anbarına və Ağdərə rayonunadır.

Polkovnik - uğurlar, Allah köməyiniz olsun! Uşaqlardan muğayat olun - deyib, danışığı yekunlaşdırdı.

Məmməd Cavadzadə söhbəti bitirdikdən sonra yenidən cəbhə xəttinə baxdı. Bu zaman yenicə leytenant rütbəsi almış Emin Şahbazov yaxınlaşıb, polkovnikə hərbi salam verdi, raport verməsi üçün icazə istədi:

Məmməd Cavadzadə cəngavər cüssəli gənc zabiti süzüb, - buyur eşidirəm, - deyə bildirdi.

- Cənab polkovnik, ordumuz tərəfindən vurularaq yerə salınan "Delfin" helikopteri Rusiyaya məxsusdur. Helikopteri idarə edən iki rus zabiti paraşütdən istifadə etməklə ölümün cəngindən qurtula biliblər. Onlar Asif Bəşirovun kəşfiyyat dəstəsi tərəfindən həbs olunublar.

Polkovnik soyuqqanlı şəkildə sual etdi:

- Onlar hazırda hardadılar, izahat veriblərmi?

- Cənab polkovnik, təhlükəsiz yerdədirlər, Naxçıvanikdə saxlanılırlar. İlkin izahatlarında Rusiyanın Gümrüdəki hərbi bazasından Qarabağın qaynar nöqtəsinə göndərildiklərini bildiriblər.

Polkovnik qaşlarını çatıb, sağ əli ilə çənəsinə əl gəzdirdi, - Rusiya qardaşlıq köməyini ermənilərdən əsirgəmir, - deyə gənc zabitlə məsləhətləşirmiş kimi söyləndi.

Şahbazov polkovnikin sözünə qüvvət olaraq dedi:

- Cənab polkovnik, Ermənistanın havada döyüş aparmaq üçün helikopteri və ya təyyarəsi yoxdur. Rusiya Gürcüstandakı Cavaxetiya və Ermənistandakı Gümrü hərbi bazalarındakı helikopter, tanklar və digər texnikalarla ermənilərin üzləşdikləri boşluğu doldurmağa çalışırlar.

- Bəli, düz deyirsən zabit, Moskvanın Qraçov dəstəsi ermənilərə böyük dəstək göstərir.

- Elədir ki, var cənab polkovnik.

Məmməd Cavadzadə ürək ağrısı ilə, köməkçisinə - o, gün Qurbanovun idarə etdiyi Su-25 qırıcı bombardmançı təyyarəni də Rusiyaya məxsus üç qırıcının müşayəti ilə havada vurdular, - deyə qəzəblə bildirdi.

Leytenant Emin Şahbazov Məmməd Cavadzadənin narahat simasına baxıb, köks ötürdü. Düşündü ki, kaş elə bir gücü, imkanı olaydı ki, polkovniki, qayğılardan, narahatçılıqlardan qurtara biləydi. Ermənilərin kökünü kəsib, bu yerlərə sülh və əminamanlıq gətirəydi.

Deyəsən, Əfqanıstan, daha sonra Qarabağda bir sıra qanlı döyüşlərin şahidi və iştirakçısı olmuş polkovnik

Məmməd Cavadzadə gənc zabitin üz cizgilərinin saralmasından sanki onun nə düşündüyünü hiss etmişdi.

- Narahat olmayın, Rusiya deyil, bütün dünya erməni separatçılarına, terrorçularına kömək etsə də, Azərbaycan öz ərazisində hansısa qondarma rejimin qurulmasına imkan verməyəcək. Nə olursa olsun, biz qalib gələcəyik. Çünki bizim mübarizəmiz, işimiz haqqa, ədalətə söykənir.

Polkovnik danışdıqca gənc zabit heyranlıqla gözlərini ona dikib, düşüncələrində yenə də var-gəl edirdi - Belə qorxmaz, qətiyyətli zabiti olan vətən məğlub ola bilməz!

Söhbət-məsləhətləşmə zamanı komanda idarəetmə mərkəzinin yaxınlığına ardıcıl iki mərmi düşdü. Partlayışın gücündən komanda idarəetmə mərkəzinin sağ hissəsi dağıldı. Bu zaman mərminin ətrafa səpələnən qəlpələrindən yaxınlıqdakı vilisin benzin çəninə dəydiyindən daha bir güclü partlayış qopdu. Partlayışlardan polkovnik Məmməd Cavadzadəyə xətər dəyə biləcəyindən ehtiyat edən leytenant Emin Şahbazov cəld hərəkətlə irəliləyib, polkovniki qucaqladı, aşağı əyilməsini xahiş etdi. Polkovnikin aşağı əyilməsi ilə daha bir neçə qəlpə artıq bir tərəfi uçmuş idarəetmə mərkəzinin üst hissəsindən dəyib, tavanı dağıtdı. Ətrafı toz-duman bürüdü. Eyni anda bir neçə əsgər içəri daxil olub, komandiri axtardılar. Məmməd Cavadzadə Emin Şahbazovun köməkliyi ilə ayağa qalxıb, üst-başının tozunu çırpdı. Komanda idarəetmə

mərkəzindən çıxa-çıxa - ölüm-itim, yaralanan olmadı ki - köməkçilərinə sual etdi.

- Hər zaman kölgəsi kimi onu müşayiət edən kiçik çavuş Qubad Mehdixanlı - salamatçılıqdır, cənab polkovnik, - deyə komandirini intizardan qurtardı.

Polkovnik - Allaha çox şükür - deyib gecənin qaranlığında mərmi və raket partlayışlarından yaranan alovdan aydın görünən qarlı dağları, yanan kənd və qəsəbələri seyr edib, əmr etdi:

- İrimiqyaslı xəritələri, gecə görmə cihazlarını və digər texniki vasitələri götürməklə, Əskərana doğru hərəkət edilsin.

Hərbi qanunlara görə, korpus komandiri təhlükəsiz bir yerdə dayanıb, müəyyən göstərişləri, tapşırıqları ilə döyüşü idarə etməlidir. Məmməd Cavadzadə isə bu qanunları redaktə etməklə birbaşa aktiv döyüşlərin getdiyi ərazidə olmağa qərar vermişdi. Əmr müzakirə edilmir, icra edilir - məsələsinə uyğun olaraq əsgər və zabit heyəti hazırlığa başlamışdı...

*** *** ***

Cəbhənin müxtəlif sahələrində bir növ nisbi sakitlik idi, arada bir mərmi, raket partlayışları və avtomat, pulemyot səsləri eşidilməsinə baxmayaraq aktiv döyüşlər müşahidə olunmurdu. Atılan mərmilər, raketlər sanki tərəflərin bir-birinin sayıqlığını yoxlamaq üçün atılırdı. Hava da bir az sakitləşmişdi. Qar yenə yağsa da, əvvəlkinə nisbətən seyrək idi. Korpus komandiri Məmməd Cavadzadə növbəti dəfə durbinlə düşmənin hərəkət edə biləcəyi nöqtələri müşahidə edib, asta addımlarla otağına tərəf getdi…

Üç gün çəkən uğurlu əməliyyatdan sonra əsgərlər düşmənlə üzbəüz təpələrin arxasında səngərlər qazıb, müdafiə tədbirləri görmüşdülər. Arada bir baş-başa verib söhbətlər edir, yanında döyüş yoldaşlarının düşmən gülləsinə tuş gələrək həyatlarını itirməsini təəssüf hissi ilə xatırlayır, bəzən isə hirsindən, hikkəsindən yumruqlarını düyünləyib, düşmənə hədə gəlirdilər. Korpus komandiri Məmməd Cavadzadənin ətrafa göz gəzdirdikdən sonra otağına tərəf addımlaması əsgərlərin söhbətlərini dayandırıb, gözlərini ona tikməsinə səbəb oldu, sakitlik yarandı. Polkovnik getdikdən sonra əsgərlər yenidən baş - başa verib söhbətə başladılar.

Məmməd Cavadzadə otağına keçib, gödəkcəsini və papağını çıxarıb pəncərənin yanındakı stolun üstünə qoydu, yaxınlaşıb dəyirmi masanın ətrafındakı stulda əyləşdi. Köməkçisi Qubad Mehdixanlı içəri daxil olub, hərbi salam verdi, məlumat vermək üçün icazə istədi.

Polkovnikin icazəsindən sonra gənc əsgər - cənab polkovnik, MTN-in yerli şöbəsinin rəis müavini Mehdi Qələndərli sizinlə görüşmək istəyir.

Təcrübəli zabit qaşlarını çatıb, gözlərini bir anlıq köməkçisinə dikdi. Ani xəyala dalıb, - nə məsələdir görəsən, - deyə pıçıldadı. Sonra uca səslə - qoy gəlsin, görək nə istəyir, - deyə köməkçisinə təlimat verdi.

Gənc əsgər otağı tərk etdikdən sonra uca boylu, qarayanız, qalın qaşlı, qıvrım saçlı Mehdi Qələndərli içəri daxil olub, - Cənab polkovnik, sizi uğurlu əməliyyat münasibəti ilə, xüsusi ilə də Əskəran kimi strateji qəsəbəni düşməndən azad etməyiniz münasibətilə təbrik edirəm - deyib, salam verdi. Polkovnik salamı və təbrikləri qəbul etdikdən sonra - buyurun əyləşin, - deyə qonağına yer göstərdi. Köməkçisi yenidən qapını döyüb gətirdiyi çayı polkovnikin və Mehdi Qələndərlinin qarşısına qoyduqdan sonra - başqa bir əmriniz varmı cənab polkovnik, - deyə sual dolu nəzərlərlə komandirinə baxdı.

Polkovnik - gedə bilərsən- deyib üzünü qonağa tutdu:

- Yəqin ki, gəlişinizin bir məqsədi var ?

Qələndərli gözlənilmədən söhbətin onun gəlişinin səbəbinə yönəlməsindən bir qədər çaş-baş qaldı, əllərini ovuşdurub, dərindən nəfəs aldı.

- Heç elə-belə sizi qələbə münasibətilə təbrik etmək üçün gəldim.

Polkovnik isə qonağının gəlişinin elə-belə olmadığını təxmin etmişdi. Ona görə də Qələndərlinin sərbəst və səmimi olması üçün cəhd göstərdi.

- Bizi çox vaxtı İcra hakimiyyətlərindən, Müdafiə Nazirliyindən yoxlayıb, hal-əhval tutub, problem və qayğılarımızla maraqlanırlar. MTN əməkdaşının ilin-günün bu

vaxtında bizlərə təşrif buyurması gözlənilməz haldır, elə deyilmi?

Qələndərli polkovnikin dediklərinin sonunda verilən suala cavab verməsədə, qımışdı. Elə bu təbəssümlədə açıq söhbətə, keçdi:

- Sizin əsgərlər çox qiymətli ermənini əsir götürüblər, yəqin bundan xəbəriniz var?

Polkovnik tövrünü pozmadan dedi:

- Ermənin ağınada, qarasınada lənət, onların qiymətlisi ola bilməz.

Qələndərli yanlışlığa yol verdiyini indi başa düşdüyündən, tez fikrini redaktə etdi:

- İnformasiya almaq yükü baxımından deyirəm.

Polkovnikdə dərinə getməyib, fikrini davam etdirdi:

- Torpaqlarımızı düşməndən azad etdiyimiz zaman təslim olanlara biz aman vermişik. Bu baxımdan da erməni əsirlərinin olmasını təbii qarşılamaq lazımdır.

Qələndərli xoş ovqat yaratmaq üçün dedi:

- Bu böyük nailiyyət və uğurlu hərbi əməliyyatdır. Bəlkə də müharibə başlayandan bu günə qədər Azərbaycan ordusu tərəfindən bu cür uğurlu əməliyyat olmayıb.

- Hə, uğurlu əməliyat idi.

- Bu sizin uğurunuzdur, sizin sərkərdəlik bacarığınızdır, cənab polkovnik.

-Xeyir bu bizim əsgərlərin, zabitlərin, döyüşən ordunun uğurudur. Qələbəni yalnız bir -iki nəfərin adı ilə bağlamaq düzgün olmaz.

Qələndərli söhbətin söz dueli ilə davam edə biləcəyindən narahat olduğundan söhbəti dəyişməli oldu.

- Həmin əsirlər arasında bizim üçün önəmli, əhəmiyyətli olanları da var. Xüsusi ilə də bir əsir bizi çox maraqlandırır.

Polkovnik yalnız indi Qələndərlinin gəlişinin məqsədini başa düşdü.

- Bəlkə deyəsiniz o əsir kimdir, nəçidir?

Qələndərli birbaşa ad məsələsinə keçməklə polkovniki əsəbləşdirə biləcəyini düşündüyündən, bir anlıq fikirləşməli oldu. Bu polkovnikin gözündən yayınmadı.

- Mehdi müəllim, sözünüzü deyin, kimdir ki, o erməni əsir?

Mehdi Qələndərli söhbəti uzatmayıb birbaşa mətləbə keçdi.

- Cənab polkovnik, əsir aldığınız ermənilər arasında Jozef Marko adında bir erməni var, Arabu dəstəsinin komandir müavini olub. Rəhbərliyin tapşırığıdır, onu bizə verməlisiniz

Korpus komandiri Məmməd Cavadzadə duruxdu, sual dolu nəzərlərlə Qələndərlinin ətli sifətinə baxdı. Jozef Markonun niyə bu qədər MTN üçün qiymətli olduğunu aydınlaşdırmaq üçün sual verməli oldu:

- Bəlkə izah edəsiniz niyə bu qədər sizin üçün azərbaycanlıları qətlə yetirən, ailələri evsiz-eşiksiz qoyan Marko qiymətlidir?

- Mən də bilmirəm. Ancaq anladığım odur ki, Moskvadan Azərbaycana zəng olunub. Xahiş edilib ki, əsir alınan Marko Moskvaya təhvil verilsin.

Polkovnik Moskva sözünü eşidincə bir qədərdə təəccübləndi, qaşlarını çatıb, ağır-ağır dedi:

- Axı bildiyim qədər Marko Meksikada doğulub, ABŞ-da yaşayan ermənidir. Əgər lazımdırsa ABŞ və ya Meksika bu ermənini tələb edə bilərdi. Niyə məhz Rusiya?

Qələndərli açıq söhbətə keçdi:

- ABŞ kəşfiyyatından, Rusiyadakı həmkarlarından xahiş olunub.

- Bəlkə bir qədər də açıq danışasınız, - deyə polkovnik növbəti dəfə israredici sual etdi.

Qələndərli düyünü açmaq üçün dərinə getməli oldu:

- Jozef Marko ABŞ-dakı məşhur milyarder Sorosun müşaviri, xanım Migelan Braunun qardaşıdır. Amerikalılar da Azərbaycanla əlaqələr qurmağa çətinlik çəkdikləri üçün məsələni Moskva vasitəsilə həll etməyə çalışıblar. Azərbaycan da Moskvanın xahişini yerinə yetirmək məcburiyyətindədir.

Polkovnik acı gülüşlə, Qələndərlinin dediklərini dinləyib, eyni acı təbəssümlə də dedi:

- Niyə məcbur olmalıyıq ki?

- Cənab polkovnik, sizin bilmədiyiniz çox şeylər var.

- Məsələ milli maraqlarla bağlı olduğu üçün mənimdə sizin bildiklərinizi bilməyə haqqım var.

- Narahat olmayın, biz milli maraqlarımızı heç zaman ermənilərə və ya ruslara satmarıq.

- Niyə onda Markonu tələb edirsiniz? Bilirsinizmi, Qarabağda işgəncə ilə körpələri, qadınları, qocaları, uşaqları öldürən elə Marko kimilərdir?

Məmməd Cavadzadə Qələndərlinin gözlərini döyə-döyə sakitcə onu dinlədiyini görüb, xatırlatma etdi:

- Arabu dəstəsi 200-ə yaxın azərbaycanlı əsgərin öldürülməsində, 100-ə yaxın mülki azərbaycanlı insanın qətlə yetirilməsində, 150 vətəndaşımızın girov götürülməsində, Kosaların, Şellinin darmadağın olunmasında əsas qüvvə olub, bunu bilirsinizmi? Əskəranda güclü müqavimətlə üzləşməyimizdə, Yaqub və Allahverdi kimi komandirlərin qətlə yetirilməsində və neçə-neçə hərbi sərkərdələrin həyatlarına son qoyulmasında bu terrorçunun və bunu kimi vəhşilərin xüsusi rolu olduğunu bilirsinizmi?

Qələndərli başını aşağı salıb, ani fikrə getdi.

Polkovnik "çekist"in susduğunu görüb, əlavə etdi:

-Niyə cavab vermirsiniz, dillənində?

- Mən əmr quluyam, rəhbərliyin tapşırığıdır, yerinə yetirməliyəm. Markonu nə yolla olur, olsun özümlə Bakıya aparıb, aeroportdan Moskvaya yola salmalıyam.

Polkovnik ayağa qalxıb, sərt formada dedi:

- Biz onu verməyəcəyik. Hərbi qaydalara, qanunlara uyğun olaraq mühakimə olunacaq. Bir də bu kimi məsələlər hərbi şurada müzakirə olunaraq qərar verilir. Sabah axşam hərbi şuranın iclasını çağırmışam. Cənub-Qərb dairəsi üzrə hərbi komandirlərin iştirakı ilə toplantı olacaq. Bu, toplantıda sizin təklifiniz müzakirə olunacaq.

Qələndərli pərt oldu:

- Bu məxfi məsələdir, müzakirə edilməsi məsləhət deyil.

- Mənim döyüşən ordu komandirlərindən, əsgər və zabitlərindən gizli sirrim ola bilməz. Biz bir-birimizə inanır və etibar edirik.

Qələndərli ayağa durub, nə zamansa ermənilərin tibb məntəqəsi olmuş otağın, top mərmilərinin zərbəsindən çatlamış divarlarına ani də olsa göz gəzdirib başını yelləyə-yelləyə dedi:

- Buna görə, başınız ağrıya bilər.

- Məni hədələyirsiniz, - deyə polovnik əsəbi halda Qələndərliyə baxdı.

Qələndərli narahat oldu, sağına soluna boylanıb, pıçıltı ilə dedi:

-Başa düşün, sizin dirənişiniz yuxarılarda yaxşı qarşılanmayacaq, bunun fərqindəsinizmi?

Polkovnik Qələndərlini ikrah dolu nəzərlərlə süzüb dedi:

- Bizim üçün torpağımızın bütövlüyü və insanların etdiklərimizə necə münasibət və ya fikir bildirəcəyidir. Hər kəs öz üzərinə düşən işi və vəzifəni yerinə yetirməlidir.

Qələndərli söz atdı:

- Hər halda, məsləhət görərdim ki, məxfi hesab olunan bu məsələ hərbi şuranızda müzakirə olunmasın.

- Məsləhətinizi nəzərə almağa çalışarıq,- deməklə polkovnik söhbətə yekun vurduğunu nümayiş etdirdi.

Qələndərli əl tutmadan - sağ olun - deyib, otağı tərk etdikdən sonra polkovnik pəncərəyə yaxınlaşdı. Ordan azad olunan Əskəran qəsəbəsinin hələ də müxtəlif yerlərində bombaların, mərmilərin partlayışları nəticəsində yanan evləri müşahidə etdi. Nəzərləri evlərə, küçələrə dikilsə də beynində, düşüncəsində Qələndərli ilə olan söhbətləri çək-çevir edirdi. Bu vəziyyət bir qədər çəkdi. Nəhayət, polkovnik geri çevrilib, yenidən stulunda əyləşdi, - Mehdixanlı, Mehdixanlı - deyə köməkçisini yanına çağırdı. Gənc əsgər Qubad Mehdixanlı içəri daxil olub, hərbi salam verdi və gözlərini polkovnikə dikdi.

- Əsirlər saxlanılan hərbi düşərgə ilə əlaqə saxla, orda Jozef Marko adında bir erməni var, onu mənim yanıma gətirsinlər.

Əsgər,- oldu cənab polkovnik, - deyib otaqdan çıxdı.

Bir qədər sonra istehkam alayının komandiri Bəxtiyar Hacıyev, kəşfiyyat dəstəsinin komandiri Asif Bəşirov və daha iki mülki geyimli şəxs qapını döyüb, otağa daxil oldular. Korpus komandiri Cavadzadə yerindən durub, içəri daxil olanlara yaxınlaşdı, onlarla səmimi, mehriban görüşüb, oturmaq üçün yer göstərdi. Onlar əyləşdikdən sonra hal-əhval tutuldu, ailələrdən, dostlardan söhbətlər olundu. Cəbhə-nin Horadiz istiqamətindəki mövcud durum, Sərsəng su anbarı, Ağdərə istiqamətində ermənilərin hərbi düzülüşləri barədə qısa da olsa söhbətlər aparıldı.

Polkovnik Cavadzadə Asif Bəşirova üzünü tutub, - komandir Bilal Kazımovun vəziyyəti necədir, - deyə sual etdi.

Bəşirov bir anlıq susdu, gözləri nəmləndi başını aşağı salıb, ağalar səslə dedi:

- Onu itirdik - cənab polkovnik, Allah rəhmət eləsin.

Eşitdiyi xəbərdən acı təəssüf hissi keçirən Məmməd Cavadzadə:

- Heyif ondan Allah rəhmət eləsin.

Otaqda olanlar da - Allah rəhmət eləsin - dedilər.

Polkovnikin danışdıqca hərdən masa arxasında əyləşən mülki geyimli şəxslərə baxdığını görən Asif Bəşirov izahat verdi.

- Cənab polkovnik, bu yanımda oturan sinif yoldaşım, Talıbdır. Sırxavənddə ermənilər tərəfindən ailəsi, yaxınları əsir düşüb, öldürülüb...

Polkovnik bir anlıq başını aşağı salıb, sağ əli ilə üzünü ovuşdurdu. Başını yuxarı qaldırıb, gözlərindən narahatçılıq, yorğunluq, bədbinlik yağan Talıba baxıb, təskinlik verdi.

- Bu vətən bizimdir, bu torpaq uğrunda uşaqlı-böyüklü, hamımız canımızı qurban verməyə hazır olmalıyıq. Qarabağın müxtəlif yaşayış yerlərində erməni vəhşiliyinə məruz qalan insanlarımız var. Allah hər birinə rəhmət eləsin, onlar günahsız, dinc insanlar olublar. Narahat olmayın, qisasımızı alacağıq. Sadəcə, bir qədər gözləmək və dözmək lazımdır.

Polkovnikin "dözməzk lazımdır" sözlərini eşidincə, Talıb, ağlar səslə söyləndi:

- Cənab polkovnik, mənim 55 yaşlı atam öldürüldü, 18 yaşlı bacım gözümün qarşısında can verdi, anam və qardaşımdan xəbərim yoxdur. Onların həyatından, taleyindən bixəbərəm. Kəndin 100-dən çox sakini ermənilərin 2-ci korpusunun komandirinin əsirliyindədir. Bunlara dözməkmi olar?

Asif Bəşirov dərindən ah çəkib, Talıba təsəlli verməyə çalışdı.

- Talıb, qardaşım, Allah sənə səbr versin. Bütün şəhidlərimizə Allah qəni-qəni rəhmət etsin. Biz necə ki,

Əskəranı, Naxçıvaniki, Şoş, Xramort, Mənəc, Xanabad və digər kəndləri erməni quldurlarından təmizlədik, yaxın vaxtlarda da sənin doğulub, boya-başa çatdığın, amma indi erməni işğalı altında olan o torpaqları da quldurlardan təmizləyəcəyik…

Mühəndis İstehkam Alayın komandiri Bəxtiyar Hacıyev də söhbətə qoşuldu.

- Sadəcə, səbr etmək lazımdır.

- Talıb dözməyib ona təskinlik verənlərə etiraz etdi:

- Dözə bilmərəm. Mənim anam və qardaşım erməni əsirliyindədir. Onları xilas etməliyik.

Polkovnik Məmməd Cavadzadə bu gəncin dərdinə şərik olduğunu nümayiş etdirmək üçün xoş nəvazişlə dedi:

- Adın deyəsən, Talıb oldu.

Talıb - hə - deyincə, polkovnik əlavə etdi:

- Talıb, yaxın günlərdə Sərsəng su anbarını, eləcə də Ağdərəni düşməndən azad edəcəyik. Yolumuz Xankəndinədir. Bu hərbi sirr olsa da, sənin dərdinə məlhəm ola biləcəyini düşündüyümdən təlimatı pozdum. Arxayın ol, yaxın günlərdə torpaq bütövlüyümüzü bərpa edəcəyik, hər bir şəhidin qisası alınacaq, əsirlər və girovlar azad olunacaqlar.

Talıb yenidən gözlərini ani yumub, qəmgin-qəmgin söyləndi:

- Cənab polkovnik, mən o vaxtı gözləyə bilmərəm.

Polkovnik təəccüblə, Talıbın fikrini öyrənmək üçün sual etdi:

- Nə edə bilərik?

Talıb birbaşa düşündüyünü dilə gətirdi:

- Mən 2-ci korpusun komandiri Samvel Xaçaturyanın evinə gedib, onun ailəsini girov götürəcəm, bununla da anamı, qardaşımı və digər yaxınlarımı əsirlikdən azad edəcəyəm.

Məmməd Cavadzadə bir anlıq bu məğrur, qorxmaz oğlanın üzünə, qığılcım saçan gözlərinin içinə diqqətlə nəzər yetirib ayağa durdu. Yaxınlaşıb sağ əlini Talıbın çiyninə qoydu.

- Bu heç də asan məsələ deyil.

Talıb da ayağa durdu. Polkovnikin üzünə baxmadan dedi:

- Mən həyatım bahasına Erkiş kəndinə gedib, 2-ci korpusun komandirinin evində ailə-sini girov götürəcəm. Əgər orada erməni əsgərləri olsa, onları da öldürəcəyəm.

Polkovnik ağzını açıb fikir bildirmək istəyərkən Bəşirov:

- Cənab polkovnik, olar söz deyim?

Polkovnik:

- Buyur Bəşirov.

Bəşirov hörmət əlaməti olaraq, oturduğu stuldan ayağa qalxıb rəsmi görkəm aldı:

- Cənab polkovnik, mən Talıbı yaxşı tanıyıram. O, qarşısına qoyduğu məqsədinə nail ola bilər. Biz ona kömək etməliyik.

Polkovnik bir anlıq nə baş verdiyini aydınlaşdıra bilmədi. Otaqda sağa doğru 2-3 addım atdı, geriyə qayıdıb stulunda əyləşdi:

- Mən göz görə-görə sizləri ölümə göndərə bilmərəm.

Talıb da yerinə əyləşdikdən sonra dedi:

- Cənab polkovnik, ölsək, bu heç nəyi dəyişməyəcək. Bir də biz torpaqlarımızın bütövlüyü uğrunda canlarını qurban vermiş neçə-neçə oğuldan artıq deyilik ki?

Polkovnik İstehkam Alayının komandiri Bəxtiyar Hacıyevə üzünü tutub sual etdi:

- Siz nə deyirsiniz?

- Yəqin, bu oğlan Amerika kinolarına çox baxıb...

Bəşirov yersiz olsa da söz atdı:

- Düz deyirsiniz Bəxtiyar müəllim, bura kinoteatr deyil, hər an ölüb, öldürmək yeridir. Amma Talıb...

Bəxtiyar Hacıyev dostunun sözünü kəsib, üzünü polkovnikə tutdu:

- Mən sadəcə, bir gəncində erməni vəhşiliyinin qurbanı olmasını istəmirəm. Əgər istəyirsə, getsin.

Bəşirov polkovniki razı salmaq üçün cəhd etdi:

- Cənab polkovnik, Talıb bu bölgədə müharibəyə qədər ermənilərə qan uddurub. 2-ci korpusun komandirinin iki dəfə çənəsini sındırıb. Cüdo yarışlarında onun kürəyini yerə vurub.

Polkovnik səsinin tonunu qaldırdı:

- Bunlar məlum məsələ. Talıb Erkiş kəndinə gedib orda nə isə edə bilərmi? Bunu sizlərdən soruşuram.

Bəxtiyar Hacıyev:

- Məndə ona inam var. O, qarşısına qoyduğu məqsədinə çata bilər. Əgər Talıb ermənilərin silahlı dəstələrinin arasından böyük şücaət və qəhrəmanlıq göstərməklə, 10-a yaxın ermənini öldürüb, bir neçəsini də yaralayaraq, girovluqdan qaça bilibsə, deməli, digər əməliyyat planlarını da həyata keçirə bilər.

Bayaqdan hərbçilərin söhbətlərinə sakit tərzdə qulaq kəsilən Sırxavənd kəndinin icra nümayəndəsi Mürsəl Pənahov polkovnikə üzünü tutub dedi:

- Cənab polkovnik, mən kənd icra nümayəndəsiyəm, Bəxtiyar Hacıyevlə də yaxın dostam. Bizə etibar edin, Talıba silah və iki-üç nəfər təcrübəli əsgər verin, o Samvelin belini qıra bilər.

Polkovnik sol əlini masaya vurub, əsəbi halda dedi:

- Bizim davamız arvad-uşaqla deyil axı.

İcra nümayəndəsi kinayəli söz atdı:

- Siz nə qoyub, nə axtarırsınız, erməni əsgərləri evlərimizə basqın edib, qadınları, uşaqları girov götürür, onlara

qarşı min cür vəhşiliklər edir, öldürürlər, qocaları ağaclara bağlayıb yandırırlar, hamilə qadınların qarınlarını süngü ilə yarıb qətlə yetirirlər biz isə hümanizmdən danışırıq.

Polkovnik Məmməd Cavadzadə özü istəməsə də döyüş yoldaşlarının və icra nümayəndəsinin təkidindən sonra razılaşmalı oldu.

- Yaxşı get, Allah amanında. Amma bil ki, bu heç də asan əməliyyat olmayacaq.

Talıb razılığa görə, polkovnikə təşəkkür etsədə, acılarını da dilə gətirməyi unutmadı:

- Cənab polkovnik, mən onsuzda cismən də, ruhən də ölmüşəm. Amma istəyirəm ki, heç olmasa bir neçə ermənini öldürüm və ya onlara zərər yetirim. Bununla, bir qədər mənəvi, ruhi rahatlıq taparam.

Polkovnik artıq, danışmağın nəticəsiz olduğunu başa düşdüyündən Talıba üzünü tutub dedi:

- İndi məndən nə istəyirsən?

- İki təcrübəli əsgər və silah-sursat.

Polkovnik Məmməd Cavadzadə üzünü Bəşirova tutub göstəriş verdi:

- İki könüllü əsgər ayır, Talıba yoldaşlıq etsinlər. Silah-sursat da yaddan çıxmasın.

Polkovnik Məmməd Cavadzadə sözünü bitirib ayağa qalxdı. Bu o demək idi ki, artıq söhbət yekunlaşır. Masa

ətrafında olanlar da ayağa qalxıb, sağollaşmaq üçün polkovnikə yaxınlaşdılar.

Otaqdan çıxan zaman polkovnik Məmməd Cavadzadə Bəxtiyar Hacıyevə - siz qalın - deyə bildirdi.

Bəxtiyar Hacıyev Bəşirova əlini toxundurub asta səslə:

- Siz gedin birazdan səngərdə görüşərik.

Məmməd Cavadzadə stulunda oturduqdan sonra Hacıyevə - əyləşin - deyə ona oturmaq üçün qarşı stolu göstərdi.

Hacıyev polkovnikin qayğılı olduğunu hiss etdiyindən, burda nə isə ciddi mətləbin olduğunu düşündü. Bu xəyal içində var - gəl etdiyi vaxt polkovnik dilləndi:

- O əsir götürdüyümüz Jozef Marko haqqında nə məlumatın var?

Hacıyev verilən sualdan bir anlıq tutulduğundan, nə cavab verəcəyini, bilmədi. Udqundu, sonra özünü toparlayıb müəmmalı tərzdə dedi:

- Cənab polkovnik, kimdir ki, Marko?

- O, Arabu batalyonunun komandir müavini olub. Əskəranda əsgərlərimiz tərəfindən əsir götürülüb.

- Cənab polkovnik, bilirəm ki, 150-yə yaxın erməni əsgəri və zabiti əsir düşüb, amma onları şəxsiyyəti ilə bağlı mənim məlumatım yoxdur.

- Hə, məlumatın olsun ki, onların arasında Meksikada doğulan, Amerika vətəndaşı olan Jozef Marko adlı bir erməni də var.

Hacıyev qeyri-ixtiyari - nə olsun ki, ermənin ağına da, qarasına da lənət, - deyə bildirdi. Sonra əlavə etdi:

- Mənlik olsa idi, bütün erməni əsirlərinin hamısını bir dəqiqənin içində güllələyərdim.

- Yox, Hacıyev səhvin var.

Hacıyev təəccüb dolu nəzərlərlə, polkovnikə baxıb dedi:

-Niyə?

- Hacıyev, biz zərərsizləşdirdiyimiz ermənilər güllələmək yox, onlara başa salmalıyıq ki, bu torpaqlar Azərbaycana, azərbaycanlılara məxsusdur. Biz insanlığımızı, bəşəri dəyərlərə hörmət bəslədiyimizi, kamil və böyük xalq olduğumuzu onlara başa salmalıyıq.

- Cənab polkovnik, ermənilər yalnız öldürməyi, barbar həyat yaşamağı, başqalarının torpağına göz dikməyi bilirlər. Onlar belə öyrədilib, belə təlimat alıb, belə təlim keçiblər.

Polkovnik Məmməd Cavadzadə - nə isə - deyib, bayaqkı söhbətinə qayıtdı:

- Əsirlər arasında Marko deyilən bir əsirlə bağlı çox ciddi problemimiz var.

- Nə problemdir ki?

- Bayaq MTN-in əməkdaşı Qələndərli gəlmişdi, onu tələb edirdi.

- Cənab polkovnik, MTN-in o əsirlə nə əlaqəsi ola bilər?

- Var, Hacıyev var. Deyir ki, Moskvadan tələb edirlər həmin əsiri.

- Moskvadan?

- Bəli-bəli Moskvadan. Onun deməyinə görə, Moskvadanda Vaşinqtondan xahiş olunub.

- Başa düşmədim, cənab polkovnik, əsirlər arasında üç rus əsgəri və bir zabit də var. Niyə Moskva öz vətəndaşlarını deyil, Amerika vətəndaşını tələb edir?

- Mən də heç nə başa düşmürəm. Amma bu reallıqdır ki, Mosvadakılar öz vətəndaşlarını deyil amerikalını istəyirlər. Qələndərli də yanıma Markoya görə, gəlmişdi.

- Xahiş etdi, yoxsa tələb etdi?

- Hələ ki xahiş edir, söz arası hədələməyi də unutmadı.

- Elədirsə, ciddi tədbirlər görməliyik.

- Sənə bir tapşırığım var. Markonu daha təhlükəsiz bir yerdə gizlədin. Qələndərlidən nə desən çıxar. Birdən basqın təşkil edər.

- Narahat olma, cənab polkovnik biz əsirləri Goranboydakı hərbi bazamıza göndərmişik. Hazırda onlar orada saxlanılırlar.

- Yaxşı, çalış onların aradan çıxarılmasına imkan verilməsin. Bir də demişəm, indilərdə o Markodu, nə zibildi yanıma gətirməlidirlər.

- Nəyə lazımdır ki?

- Bəzi məlumatları dəqiqləşdirmək istəyirəm.

- Necə istəyirsiniz, cənab polkovnik.

- Sən də qal, onunla bir danışaq görək, bizə daha nələr deyə bilər.

- Olsun cənab polkovnik, siz necə istəyirsiniz.

Az sonra qapı döyüldü. İki əsgər qara, hündür, saqqallı, göygöz, qolları bağlı bir nəfəri içəri gətirdilər.

Polkovnik əsgərlərə əsiri pəncərənin yanındakı stulda oturtmağı əmr etdi. Əsgərlər əmri yerinə yetirmək üçün Markonu sürüyə-sürüyə pəncərənin yanındakı stulda əyləşdirdilər.

Polkovnik ayağa durub əsirə yaxınlaşdı. Onun üzünə diqqətlə nəzər yetirdi. Üzü-gözü qaralmışdı, dodağı partlamışdı. Görünür, əsgərlər onu o ki, var döymüşdülər.

Polkovnik Məmməd Cavadzadə ironiya ilə onun sifətinə baxıb, sərt formada dedi:

- Sən kimsən və buralarda nə qələt edirdin?

Marko dillənmədi. Başını aşağı salıb, fısıldadı.

Polkovnikin yenidən sərt səsi eşidildi:

- Sən buralarda neyləyirsən? Nə vaxtdan Qarabağdasan və hansı döyüşlərdə iştirak etmisən?

Markonun yenə dillənmədiyini görən Hacıyev yaxınlaşıb, onun başına bir yumruq vurdu və əsəbi tərzdə dedi:

- Ayağa qalx və suallara cavab ver küçük!

Deyəsən, Marko döyüləcəyindən qorxduğundan dərhal əmri yerinə yetirdi. Ayağa qalxıb yazıq görkəm aldı. Bir az sonra ağlamağa başladı. Göz yaşlarını pencəyinin ətəyi ilə silib, sakit şəkildə dayandı.

Markonun hıçqırtısını dinləyən Hacıyev özünü saxlaya bilməyib, onun üzünə tüpürdü.

- Şərəfsiz , alçaq, tülkülük edirsən, göz yaşı tökənə bir bax !

Hacıyev əlini qaldırıb, ona yumruq vurmaq istədi.

Məmməd Cavadzadə - dayan Hacıyev, burada yox, - deyə ona məsləhət verdi.

Sonra da bayaqkı sualını təkrarladı.

- Sənin ləyəm, nə vaxtdan buralardasan?

Əsir pokovnikin qəzəbli üzünə baxmadan titrək səslə dedi:

- Bir il səkkiz ay olacaq.

- Haradan gəlmisən?

- Amerikadan.

- Yəqin ki, erməni lobbisi və yaxud da hansısa erməni milyarderi səni göndərib bura, eləmi?

- Elədir ki, var. Məni aldatdılar.

- Kim aldatdı ki, səni? Bu nə nağıldır danışırsan? Neçə yaşın var?

- 57

- Ay tula, 57 yaşındasan, uşaqsan ki, səni aldadalar? Ağlın harda idi bəs?

- Ağlım olmayıb. Ağlım olmadığına görə də burdayam.

- İmkanlı ailədənsən, vəzifəli şəxslərin yaxınlarındansan. Amerika hakim dairələrinə bağlı bir insansan, düzdür?

- Bəli, elədir ki var. Mənim əmim oğlu ABŞ Dövlət Departamentində işləyir, tanınmış adamdır, Olbert Kvant. Bacım Soros Fondunun sahibi Corc Sorosun müşaviridir. Başqa qohumlarım da siyasi hakimiyyətdə təmsil olunurlar.

Polkovnik təəccüblə, onun sifətinə baxıb, ironiya ilə dedi:

- Belə çıxır ki, səni onlar təlimatlandırıb, bura göndəriblər?

- Xeyir, mən ABŞ Konqresində təmsil olunan erməni dostum Levon Artisuninin xahişi ilə Qarabağa gəlmişəm.

- Niyə məhz sən?

- Çünki mən müasir silahlarla davranmaq üzrə kifayət qədər bilik və savadı olan mütəxəssisəm. Raketlərin atılmasında, tankların hədəfləri dəqiq vurmasında mənim

kifayət qədər bilik və bacarığım var. İstəsəniz sizə ermənilər vurmaqda kömək edə bilərəm…

Hacıyev özünü saxlaya bilməyib, onun ağzının üstündən bir şillə vurdu. Zərbənin təsirindən Marko Jozef yerə yıxıldı. Əsgərlər yaxınlaşıb, onu ayağa qaldırdılar.

Marko yenidən göz yaşları tökdü. Yalvarışlı səslə dedi:

- Xahiş edirəm, döyməyin, bir də acmışam, mümkündürsə mənə yemək verin.

Susqunluğu görüb, yenidən ağlar səslə dil tökməyə başladı:

- Səhv etmişəm. Etdiyim əməllərə görə çox peşmanam. İstəyirsiniz mən mətbuat və ya televiziyalar vasitəsi ilə sizlərdən, Azərbaycan xalqından üzr istəyim.

Hacıyev sərt, kinayəli nəzərlərlə onu ayaqdan başa qədər süzüb, dedi:

- Tülkü, bilmirsən ki, sonrakı peşmançılıq fayda verməz?

- Bilirəm, başa düşürəm. Amma mənim başqa çıxış yolum yox idi. Öldürsəniz də haqlısınız. Bir neçə dəfə bu ərazilərdən getmək istəmişəm, amma məni buraxmayıblar. Gizli qaçmaq imkanlarım da olmayıb, çünki sərhədi keçəndə mütləq məni saxlayıb, cəzalandıra bilərdilər.

Məmməd Cavadzadə əsgərlərə üzünü tutub əmr etdi:

- Buna yemək verin.

Hacıyev mane olmaq istədi.

Polkovnik:

- Biz insanlığımızı yerinə yetiririk. Bu tarakanlar başa düşməlidirlər ki, nəyinsə və kimisə təlimatı ilə buralara gəlmək və döyüşmək onlar üçün dəhşətli sonluqla nəticələnə bilər.

Bəxtiyar Hacıyev bir söz demədi, Markonun sinəsindən tutub silkələdi:

- Şərəfsiz, alçaq, etdiyin vəhşiliklər cavabsız qalmayacaq, indi sənə yemək gətirərlər, ye, ancaq səni cəzalandıracayıq.

Məmməd Cavadzadə də Hacıyevə ani nəzər yetirib, Markoya üzünü tutdu:

- Sən məhkəmə qarşısına çıxacaqsan. Nə qərar verilsə, o cəzanı da alacaqsan.

Marko başını aşağı salıb, hıçqırtı ilə ağladı. O vəziyyətdə də kəsik-kəsik sözlərlə dedi:

- Nə cəza verilsə, qəbulumdur. Yetər ki, ermənilərin yanında olmayım. Artıq mənim kimi neçə-neçə gəlmə erməni Qarabağdan qaçmağa fürsət axtarır.

Hacıyev söz atdı:

- Alçaq, şərəfsiz sənin sayəndə neçə-neçə azərbaycanlı qətlə yetirildi, həyatlarını itirdi, bilirsənmi bunu?

- Bəli, bilirəm. Üzr istəyirəm, bağışlayın.

Az sonra əsgər sinidə çörək və kasada ət şorbası içəri daxil oldu. Polkovnikin göstərişi əsasında sinini masaya qoyub, gəldiyi kimi də sakitcə, otağı tərk etdi.

Məməd Cavadzadə qeyri-ixtiyarı söyləndi:

- Çörəyini ye, amma bil ki, bu çörək sənə halal edilmir.

Marko bir söz deməyib, axsaya-axsaya masaya yaxınlaşdı, oturub, acgözlüklə çörəkdən kəsib, kasadakı şorbanı yeməyə başladı.

Polkovnik Məmməd Cavadzadə Hacıyevə üzünü tutub dedi:

- Hacıyev, bunu lazım bildiyin yerdə saxla.

Bəxtiyar Hacıyev polkovnikin narahatlığını başa düşdüyündən, əminliklə - cənab polkovnik, ən münasib yer Goranboy hərbi bazasıdır, ora bizim güvənli yerimiz ola bilər, - deyə bildirdi. Məmməd Cavadzadənin - olsun - sözünü eşidincə, əlavə etdi:

- Bu zibil mənim nəzarətim altında olacaq, buna əmin olun.

- Yaxşı, inanıram sənə - deyən polkovnik sözünü bitirdikdən sonra sağollaşıb otağı tərk etdi.

*** *** ***

Plana uyğun aparılan uğurlu hərbi əməliyyatdan sonra, döyüşən ordunun əsgər və zabit heyəti geriyə - hərbi hissələrinə qayıtmış, onları arxa cəbhədəki ehtiyatda olan hərbi

briqadalar əvəz eləmişdi. Bu gün qalib ordunun heyəti istirahət edirdi. Hərbi hissənin həyətində qələbəlik idi. Valideynləri də övladlarının görüşünə gəlmişdi. Qucaqlaşıb, öpüşən valideyn və əsgərlər bir-biri ilə şirin söhbət edirdilər. Bu məqamda bəzi valideynlərin öz övladlarını soraqlaşması, bir-bir əsgərlərə yaxınlaşıb - Mahiri, Cabiri, Elşəni, Firuzu… gördünmü oğul?, - ağır, gərgin vəziyyət yaradırdı. Əsgərlər isə susur, - komandanlığa müraciət edin, - deməklə şəhid əsgər yoldaşının sorağını valideynə verməkdən çəkinirdilər. Valideynlər də əsgərlərin susmasından nə isə hiss etsə də "ümid sonda ölər" məsəlinə uyğun olaraq komandanlığa doğru yol alırdılar.

Gənc əsgərlər Alı Məmmədov, Şakir Quliyev, Cavid Axundov və Oruc Muradov Qismət İsmayılzadənin onlara gətirdiyi azuqəni hərbi hissənin həyətində qurulmuş dəmir masanın üzərinə qoyub yeyir, içir və hərdəndə dillərini dinc qoymadan uğurlu əməliyyat zamanı erməni dığalarının necə qaçmasından, əsir düşən zaman alçalmalarından, yalvar- yaxar etmələrindən danışb, gülürdülər. Qismət İsmayılzadə bu qoçaq oğlanların şirin-şirin söhbətlərini dinlədikcə, onlara qibtə ilə baxırdı. Hərdən də, - kaş məndə bunlarla döyüşdə olaydım, - deyə düşünürdü. Qismət İsmayılzadə Oruc Muradovla Rusiyada hərbi xidmətdə bir yerdə olmuşdu. Bir yatıb, birgə durmuşdular. O qədər mehriban, bir-birinə yaxın olmuşdular ki, hərbi hissə komandanlığı onların əkiz qardaş olduğunu

düşünmüşdü. Hərdən bununla bağlı onlara sualda verilmişdi. Onlar isə sadəcə, biz bir - birimizə bağlı olan və qardaşdan da artıq dostlarıq demişdilər. İndi bir dost döyüşən orduda xidmət edən əsgər dostuna baş çəkməyə gəlmişdi. Gələrkən hər zaman olduğu kimi özü ilə evdə hazırlatdığı biş-düşü, dükandan aldığı azuqəni də gətirmişdi.

Keçmiş əsgər dostları ötən günləri xatırlayıb zarafatlaşırdılar.

Hərdən Qismət dəfələrlə dediyi sözləri yenidən təkrarlayırdı:

- Nahaq mənsiz Qarabağa gəldin. Gərək mənə də xəbər edəydin.

Muradov isə - ailəlisən, sən uşaqların təlim-tərbiyəsi ilə məşğul ol, onları vətənə sevgi, məhəbbət ruhunda tərbiyə et, bu elə birgə səngərdə olmağımız deməkdir, - deyə dostuna təskinlik verirdi.

Bu arada hərbi hissənin əsgərlərindən biri Alı Məmmədova yaxınlaşıb - ailən gəlib, səni məntəqənin yanında gözləyir, - deyə bildirdi. Eşitdiyi xəbərdən sevincək olan Alı dostlarından ayrılıb, əsgərin ardınca məntəqəyə doğru addımladı, yaxınlaşanda gözlərinə inanmadı. Atası, anası, qardaşı ilə bərabər sevdiyi, bütün varlığı ilə bağlandığı, ilk məhəbbəti Aysun da orda idi. Qızardı, nə qədər olmasa valideynlərinin yanında Aysunla göz-gözə gəlmək ona çox çətin görünürdü. Valideynlərinə yaxınlaşsa da gözlərini Aysundan çəkə bilmədi. İlk olaraq anası ilə görüşüb, öpüşdü. Atasına əl verib, onunla da qucaqlaşdı. Kiçik qardaşı Fəxrəddinlə görüşub, onun başını sığalladı - böyümüsən ha maşallah! - deyməyidə unutmadı.

Daha sonra Aysunla salamlaşdı. Aysun salamı alıb, oğrun-oğrun onun üzünə, vücuduna tamaşa etdi. Anası Almaz xala oğlunun qolundan tutub, özünə tərəf çəkdi. Sankı, geciksə, Aysun onu əlindən alıb apara bilərdi.

- Harda oturaq, - deyə Almaz xala hələ də oğlu ilə Aysunun ürəklərində, beyinlərində bir - biri ilə danışmalarına önəm vermədən söz atdı. Anasının atmacasından sonra Alı hələ də Aysunun sehrinin əsiri olduğunu dərk etdi. Tez özünü ələ alıb - hə, düz deyirsən gəlin o ağacın yanındakı masada əyləşək, - deyə əli ilə bir neçə addım irəlidəki masanı göstərdi.

Atası Alxas müəllim zənbili və sallofan kloku götürüb, oğlu Fəxrəddinə - sən də çantanı götür, - deyə göstəriş verdi. Yaxınlaşıb, ağacın altındakı masada əyləşdilər. Almaz xala çantadakı stəkanları çıxarınca, Aysun tez-tələsik zənbildən ağ süfrəni götürüb masanın üstünə sərdi. Sonrada yarpaq dolmasını və balondakı dovğanı çıxarıb, masanın üstünə düzdü.

Alı üzünü anasına tutub, nəvazişlə dedi:

- Ana bəlkə, lazım deyil, bayaq qələbə münasibəti ilə hərbi hissənin yeməkxanasında ziyafət təşkil olunmuşdu, bir qədər əvvəl Orucun dostu Qismət də bizə biş-düşlə qonaq gəlmişdi, o ki var yeyib-içmişəm...

- Nuş olsun, bala, bizimlə də yeyəndə, nə olar ki - deyincə Alı anasını qırmamaq üçün - yaxşı ana, sənin bişirdiyin bu yeməklərdən dadmaq mənə xoş olar, - deyə çörək dilimlərindən birini götürdü.

- Hə, bala, bu yarpaq dolmasını, aşı Aysun bişirib. Axşam gəldi qazan asdı, bu yeməkləri bişirdi. Mənə də imkan vermədi, dedi özüm bişirəcəm.

Alı gülümsəsə də utandığından anasına söz deyə bilmədi. Sadəcə, - sağ olsun - deməklə kifayətləndi.

Atası oğlunun alnına tökülmüş şabalıdı saçlarını sağ əli ilə yuxarı istiqamətə sığallayıb dedi:

- Bala, necədir vəziyyətin, öyrəşə bilirsənmi?

Alı atasının narahat üzünə baxıb dedi:

- Ata, Allah-təala insanı ən mükəmməl varlıq olaraq yaradıb. Bu varlıq istənilən mühitə öyrəşə bilir. Mən də Allahın köməyi ilə öyrəşmişəm. Əsgər dostlarımla isinişmişəm. Hətta onlardan ayrıla da bilmirəm.

Anası dilləndi:

- O, əsgər dostlarını da, səni də Allah saxlasın, bala.

Atası isə sözünə qarğışla başladı:

- Allah bu ermənilərə lənət eləsin. Allah onların cəzasını, bəlasını versin. İnşallah da verər.

- Verir ata, verir. Az keçməz, Xankəndindən sizə salamlar göndərərəm. Siz deyin görüm qohum-əqraba necədir, təzə xəbər-ətər varmı? -deyə Alı müharibə mövzusunu dəyişməyə çalışdı.

Anası dillənmək istəyərkən, atası stəkandakı çaydan bir qurtum içib, dedi:

- Hər şey yaxşıdır, Firuzə xalanın qızı Aynura tələbə yoldaşı elçi gəlib. Başqa yenilik, xəbər yoxdur. Amma...

Alxas müəllimin fikrini tamamlamadan susması, Alıda təəccüb yaratdı:

- Hə, ata nə amma?

Alxas müəllim oğlunu intizarda saxlamq istəmədi.

- A bala, şəhərdə vəziyyət rusun istədiyi kimi elə uruscadır.

Maraq dolu nəzərlərlə atasına baxan Alı sual etdi:

- Nə olub ki?

- Deyəsən, bəzi qüvvələr indikiləri devirib, hakimiyyətə gəlməyə çalışırlar. Açıq şəkildə stol davası gedir. Allah özü bu xalqa, dövlətə rəhm etsin.

Alxas müəllim sözünü bitirib, oğlunu şübhəli nəzərlə süzdü. Alı bu baxışlardan tutuldu - nəsə olub, - deyə Alı atasına sual etdi

- A bala, bilmək istəyirəm şəhərdəki qaçdı- qovdu buralara gəlib, çıxıbmı?

Alı atasına təskinlik verdi:

- Yox ata, hərbiçiləri arxada hansı qovğanın, davanın getdiyi maraqlandırmır. Biz yalnız qabağı düşünür, düşmənlə haqq-hesab haqqında fikirləşirik.

- Elə olsun bala, elə olsun. Allah eləməsin ki, siyasi hakimiyyət uğrunda mübarizə aparanlar hərbiçiləri də öz təsiri altına alsınlar. Vay onda bu xalqın, bu dövlətin halına.

- Narahat olma, ata. Korpus komandirimiz Məmməd Cavadzadə və digər hərbi komandirlər heç zaman siyasi tora düşməzlər və buna da imkan verməzlər.

Anası boşqaba çəkdiyi yarpaq dolmasını və isti təndir çörəyini oğluna uzadıb dedi:

- Ye bala, gör neçə vaxtdır ki, evdə bişirilən yeməklərdən dadmırsan.

Aysun da stəkana süzdüyü dovğanı Alının qarşısına qoydu. Gözlərini isə ondan çəkmirdi. Elə bil, ətrafda heç kim yox idi. Bir o, bir də Alı idi. Əlləri ilə çay süzüb, yemək çəksədə beynində Alı ilə söhbət edirdi, danışırdı. Alı da çaşqın idi. Bu onun əllərinin və səsinin titrəməsindən də hiss olunurdu. Sanki iti gözlərin nəzarət etdiyi bu dar məkanda ürəklərin və qəlblərin qızğın söhbəti, deyişməsi, gedirdi.

- Vəziyyətə nəzarət etməsə, valideynlərimin qarşısında biabır olacağıq, - deyə Alı düşündü. Başını qaldırıb anasının üzünə baxmadan – ana, hamı üçün çəkin ki, bir yerdə, evimizdə olduğu kimi yeyək, - deyə xahiş etdi. Aysunda işarəni başa düşdüyündən özünü yığışdırıb əl-ayaq etdi. Boşqablara yarpaq dolmasından, dovğadan çəkib, masa arxasında əyləşənlərin qarşısına qoydu. Özü də kasaya tökdüyü yeməkdən ağzına qoyub, çeynəyə-çeynəyə yenə də diqqətlə Alıya baxmağa başladı. Ürəyindən keçirtdi ki, kaş elə bir imkan, elə bir məqam yarana biləydi ki, Alı ilə ikilikdə qala, onunla söhbət edə, darıxdığını, onu çox sevdiyini dilə gətirə biləydi. Amma düşündü ki, hərbi hissədə qələbəlikdir. Çoxlu insanlar var, bir də valideynlərinin qabağında söhbət etmək, ayıb olar.

Fəxrəddin çörəyini yeyib, salfetlə əlini sildikdən sonra üzünü atasına tutub, hərbi hissənin həyəti ilə tanış olması üçün ondan izin istədi.

Atası ona etiraz etdi:

- Bala, otur, inşallah sən də hərbi xidmətdə olarsan, o zaman əyani şəkildə hər şeyi gözünlə görərsən.

Alı qardaşının hərbi hissə ilə tanış olmaq marağının onun uşaqlıq şıltaqlığı ilə əlaqləndirsə də, ona kömək etmək üçün atasından icazə istədi:

- Ata izn ver, getsin, görsün ki, formalaşan Azərbaycan ordusunun necə hərbi hissəsi, necə güclü əsgərləri var.

Alının Fəxrəddinə arxa durmasından sonra atası bir söz demədi, susdu. Bunu razılıq əlaməti kimi başa düşən Fəxrəddin ayağa durub hərbi hissənin sağ tərəfinə getdi.

Artıq nahar bitmək üzrə idi. Kasalar və boşqablar yığışdırıldıqdan sonra anası termosu götürüb, stəkanlara çay süzdü. Çay süfrəsi arxasında bir xeyli söhbət etdilər. Bu məqamda Aysun bulaşıq yemək qablarını yumaq üçün Alıya dedi:

- Burada su varmı?

Alı:

- Hə var, amma sən o yeri tapa bilməzsən. Fəxrəddindəki getdi, yoxsa ona deyərdim birlikdə gedib qabları yuyardınız.

Anası oğlunun ürəyindən keçənləri başa düşdüyündən, - bəlkə özün Aysuna yol göstərəsən, - deyə məsləhət verdi.

Bu təklif anasından gəldiyindən, Alı sevincək oldu.

- Yaxşı ana, mən gedərəm. Siz çayınızı için, biz qabları yuyub gətirək.

Aysun gözlənilməz fürsətdən sevincək olduğundan tez-tələsik qab-qacağı bir sallofona yığıb, Alının ardınca addımladı. Yaşıl çəmənliyi keçib, daşdan düzəldilmiş bulağa çatanda Alı geri çevrildi, Aysunun ağ, gözəl simasına baxıb dedi:

- Aysun, nə yaxşı gəldin, gəlişin qələbə sevincimin üstünə sevinc əlavə etdi, xoşbəxtlik bəxş etdi.

Aysun alındı:

- Necə gəlməyə bilərəm ki, axı biz bir-birimizə könül vermişik. Gör neçə vaxtdır ki, mən səni görmürəm. Dəli-divanə olmuşam. Gecələr yuxum ərşə çəkilir, gündüzlər işə necə gedib-gəldiyimi, necə işlədiyimi belə unutmuşam.

Alı ətrafda ora-bura gedən əsgərlərə, baş-başa verib söhbət edən valideyn-əsgərlərə fikir vermədən Aysunun əlindən tutub, bulağın sol tərəfində qoyulmuş, stola tərəf çəkdi, əyləşincə dedi:

- Bəlkə danışasan, işləriniz, dolanışığınız, ailənizdəki vəziyyət necədir?

- Necə qoyub gəlmisən, indi də elədir. Bir dənə nigarançılıq və narahatçılıq səsninlə bağlıdır. Alı xahiş edirəm, özündən muğayat ol.

Alı Aysunun yanaqlarına süzülən göz yaşlarını görüncə, tələşla - nigaran qalma Aysun, hərbi xidməti başa vurub,

qayıdacam, - deyə bildirdi. Sonra cibindən çıxardığı dəsmalla onun qonur gözlərindən axan yaşı silib dedi:

- Doğrudan da gözlər nə rəngdə olursa, olsun axan yaş hər kəsdə eyni olur. Sənin gözlərin qonur, anamın gözləri isə qaradır. Ancaq hər ikinizin gözlərinizdən süzülən yaş eynidir.

Aysun dərsini bilmədiyi üçün başını aşağa əyib, dırnaqlarını didişdirən uşaq kimi dodağının altında mızıldandı. Bu Alının nəzərindən qaçmadı, söz atdı:

- Ay qız, dərsdə deyilsən ey, qarğa dili ilə danışmaqla Arif müəllimi yola verəsən. Bir açıq danış görüm nə deyirsən.

Alının sözləri Aysunun üzünə təbəssüm gətirsə də, həminki gərgin durumda Alının əlindən tutub, dedi:

- Alı Ulu Tanrıya nəzir demişəm, sağ-salamat gəl, aparıb Mir Mövsüm Ağada qoç-qurban kəsərik.

- Allah qurbanını qəbul eləsin, əzizim.

- Sağ ol, - deyə Aysun pıçıltı ilə söyləndi.

- Gələrəm, Şıxeyyub babanı da ziyarət edərik.

- İnşallah.

- İndi isə ağlama.

- Alı, mən mətbuatdan cəbhədə baş verənlərin hamısını oxuyuram. Hər gün Ermənistanın və Rusiyanın mətbuatını izləyirəm, onlar güclənirlər.

Alı ətrafa göz gəzdirdi, kimsənin onlara baxmadığını görüncə sağ əlini Aysunun çiyninə qoyub dedi:

- Əzizim, narahat olma, onların arxasında hansı güc, hansı qüvvə dayanırsa, dayansın biz qalib gələcəyik, çünki bu torpaq bizimdir. Zor gücünə bu torpaqlara əsgər gətirsələr də onlar döyüşmürlər. Çünki başa düşürlər ki, bu torpaq onların deyil.

Alı xidmət etdiyi ordunun gücünü, qüdrətini Aysuna nümayiş etdirmək üçün qürurla dedi:

- Biz üç gün ərzində 130-a yaxın kənd, qəsəbə, mərkəzi əraziləri ermənilərdən aldıq. Bu günlərdə Ağdərəni və Xankəndini də alıb, müharibəyə son qoyacağıq.

- Təki sən deyən olsun Alı. Sən Allah özündən muğayat ol. Allah eləməsin ki, sənə bir şey olsun, həmin gün özümü öldürərəm.

Alı xoşagələməz söhbəti dəyişmək üçün gülə-gülə dedi:

- Sən ölmək yox, mənə çoxlu uşaqlar vermək haqqında düşün. Başa düş ki, sən mənə ən azı 7 oğul, 1 qız verəcəksən.

Aysun gülümsədi, başını aşağı saldı. Alı isə dil-boğaza qoymadan hey danışırdı:

- Hə nə deyirsən danışdıq, 7 oğul, 1 qız?

Aysun qızardı. Bir an sonra qəh-qəhə çəkib güldü.

- Yaxşı, sən necə istəyirsən, elə də olacaq. 6,7, 10 nə qədər uşaq lazımdır, mən sənə onlara verəcəm. Yetər ki, sən bunu istə. Yetər ki, sən mənim başımın üstündə ol. Yetər ki, biz bir ailə olaq, bir yerdə yaşayaq.

Alı xoş ovqatla söbətə axar verməsindən sevindi. Bir xeyli də, söhbət etdikdən sonra Aysunla bulağa yaxınlaşıb, birlikdə qabları yudular. Sonra da valideynlərinə yaxınlaşıb, masa arxasında şirin-şirin söhbət edərək, çay içdilər. Sanki 10-15 km qabaqda müharibə getmirdi. Sanki sakit bir gün idi…

Alı nə fikirləşdisə, valideynlərindən icazə alıb, gözdən itdi. Az sonra əsgər dostları Şakir Quliyev, Cavid Axundov, Oruc Muradov və dostları Qismət İsmayılzadə ilə geri qayıtdı. Alı dostlarına - Bu mənim anam, atam, qardaşım və sevdiyim qızdır, - deyə yaxınlarını təqdim etdi. Ayaqüstü salam-kəlamdan sonra Alı onları masa arxasında əyləşməyə dəvət etdi. Aysun yenidən masa üzərinə evdən bişirilib gətirilən yeməklərdən düzdü. Əsgər yoldaşları istəməsələr də Alını qırmadılar. Çörək yedilər, çay içdilər. Bir- biri haqqında məlumatlar verdilər. Şirin söhbət xeyli çəkdi...

*** *** ***

Maşın işğaldan azad edilən Əskəranın boş, yiyəsiz küçə və meydanlarından keçib, Xramort istiqamətinə yol alanda Mehdi Qələndərli rahat nəfəs aldı. Hətta bir qədər də sakitləşmək üçün "Jiquli"nin yan şüşəsini də açdı. Qışın sərt soyuğu onun üzünə vuranda, hiss etdiki, ürəyinin döyüntüsü tamamilə kəsildi. Bu bir qədər çəkdi. Daha sonra salona soyuq hava axınının yayılmaması üçün şüşəni bağladı. Yanında oturan həmkarı Cəlal Xuduyev Mehdi Qələndərlinin narahat və qayğılı olduğunu hiss etdiyindən ona - Mehdi müəllim, nə isə olub, - deyə sual etdi.

Mehdi Qələndərli uzun illərin dostu, həmkarı Cəlalın qarşısında acizliyini, zəifliyini göstərməmək üçün gülümsəyərək dedi:

- Heç narahat olma, hələ ki, yaxşılıqdı.

Cəlal Xuduyev yenidən sual etdi:

- Bəlkə, Bakıya qayıdaq, rəislə görüşək, məsələnin ciddiliyini onun nəzərinə çatdıraq. Qoy onun özü problemin həlli ilə bağlı bir yol tapsın.

Mehdi Qələndərli artıq qaralmaqda olan havaya şüşənin arxasından baxıb, yenidən dostuna dedi:

- 4-cü alayın komandiri Fərəc Ağayevlə görüşək, əgər bir şey alınmasa, elə sən deyən kimi edərik.

Qabaq oturacaqda, sürücünün yanında əyləşən Xanoğlan Qasımov da arxaya çevrilib, həmkarlarına məsləhət üçün dedi:

- Gərək biz Horadizə gedib, gecəni orada qalıb, sonra Xramorta gələrdik. "Gecənin xeyrindənsə, gündüzün şəri yaxşıdır"- deyiblər.

Mehdi Qələndərli dostunun narahatçılığını başa düşdüyündən, ona təskinlik vermək üçün dedi:

- 10 dəqiqəlik yoldur. Görüşək hə, hə, yox, yox.

Cəlal Xuduyev əlavə eti:

- Əgər Fərəc Ağayev bizi əliboş yola salsa, Horadizə deyil, birbaşa Bakıya gedərik.

Bundan sonra maşında əyləşənlər dinmədilər. Xramorta daxil olub, küçələrlə hərəkət edəndə, yolun sağ və solunda mərmi və raketlərin zərbəsindən partlayan maşınlar, tanklar gözə dəyirdi. Əksəriyyəti də erməni tankları və avtomobilləri idi. Evlərin əksəriyyəti sağ-salamat idi. Bu o demək idi ki, müharibənin keçdiyi bu küçələr o qədər zərər görməyiblər. Bəzi evlərdə hələ də çıraqlar yanırdı.

Mehdi Qələndərli bir qədər diqqətlə baxıb, Cəlal Xuduyevə sual etdi:

- O evlərdə yanan işıqlar nə deməkdir?

Cəlal Xuduyev, söz demək istəyərkən, öndə oturan Xanoğlan Qasımov hazırcavablıq etdi:

-Yəqin Ermənistandan qaçqın düşənlərdir. Hazır evləri zəbt edib, məskunlaşıblar. Onları qınamaq da olmaz. İndi elə bir vaxtdır ki, ev-eşik tapmaq bir az çətindir.

Cəlal Xuduyevdə sözünü eyni fikirlə davam etdirdi:

- Başqa kim ola bilər ki? Ya da əsgər və zabitlərdir ki, yorğunluqlarını almaq üçün 2-3 saatlıq həmin evlərdə dincəlirlər.

Bu səpkili söhbətlər bir neçə dəqiqə davam etdi. Onların qarşısını yolun sağ və solunda tanklar saxlanmış, ortada isə silahlı dayanan əsgərlər kəsdi. Sürücü maşını saxlayınca əsgər - kimsiniz və nə lazımdır, - deyə sual etdi.

Mehdi Qələndərli - rəisiniz kimdir? - deyə açdığı pəncərədən əsgərə müraciət etdi.

Qarşısında baş leytenant peyda olunca Mehdi Qələndərli vəsiqəsini çıxarıb göstərdi. Biz Fərəc Ağayevlə görüşməliyik, - deyə zabitə bildirdi.

Baş leytenant Mehdi Qələndərlinin vəsiqəsinə fənərin işığında diqqətlə baxdıqdan sonra - oldu Mehdi müəllim, - deyə, digərlərinin də vəsiqələrinə baxmaq istədiyini bildirdi.

Cəlal Xuduyev və Xanoğlan Qasımov, eləcə də sürücü vəsiqələrini göstərdikdən sonra zabit əsgərlərə - şlaqbaumu açın - əmrini verdi. Şlaqbaum açıldıqdan sonra maşın maneəsiz yoluna davam etdi. Daha bir keçid məntəqəsində onları saxladılar və maşınla irəli getməyin mümkün olmayacağını onlara başa saldılar. Mehdi Qələndərli maşından düşərək sürücüyə - siz maşında qalın, – deyə təlimat verdi.

İki əsgər önə keçib, onları Fərəc Ağayevin işğaldan azad edilən, müvəqqəti komanda mərkəzinə müşayiət edirdi. Əsgər Fərəc Ağayevin olduğu komanda mərkəzinə çatdıqdan sonra - xahiş edirik burada gözləyin, - deyə qonaqlara dayanmaq işarəsi verdi. Digər əsgər isə Fərəc Ağayevi qoruyan mühafizəçiyə yaxınlaşdı. Qısa söhbətdən sonra həmin mühafizəçi komanda mərkəzinə daxil oldu, iki-üç dəqiqə sonra geri qayıdıb, Mehdi Qələndərliyə - buyurun, komandir sizi gözləyir, - deyə bildiridi.

Fərəc Ağayevin yuxusuz, yorğun olduğu açıqca sezilirdi. Bir az əvvəl gözünün acısını almaq, az da olsa dincəlmək üçün dəmir çarpayıya uzansa da, əsgər onu oyatmışdı. Buna baxmayaraq komandir qonaqları mehribanlıqla qarşıladı. Mehdi Qələndərli bu vəziyyətdə onunla söhbət etməyin çətin olacağını anlasa da, artıq gec olduğunu dərk edib, söhbət üçün münasib giriş aradı. Taxta stullarda əyləşincə, ordan-burdan, döyüş yolundan, ermənilərin müqavimətinin qırılmasından, Azərbaycan ordusunun uğurlu hərbi əməliyyatından söhbət etdilər. Nəhayət, Mehdi Qələndərli gəlişinin məqsədini Fərəc Ağayevə anlatmağa çalışdı.

Alay komandiri qonaqlarının gəlişinin səbə-bini artıq təxmini də olsa bilirdi. Çünki Ağdamda polisdə işləyən dostu Cabbar ona Mehdi Qələndərli haqqında və onunla aparacağı söhbətin məğzi barədə üstüörtülü də olsa məlumatlar, fikirlər çatdırmışdı. Ona görə də Fərəc Ağayev birbaşa - mənlik nə lazımdır, - deyə Mehdi Qələndərliyə sual etdi.

Mehdi Qələndərli üzünü Xanoğlana və Cəlala tərəf çevirib, onların qayğılı görünən simalarına bir anlıq baxdıqdan sonra nəzərlərini Fərəc Ağayevə dikib, dedi:

- Biz sizin korpus komandiri Məmməd Cavadzadə ilə çox yaxın münasibətdə olduğunuzu bilirik və onu da öyrənmişik ki, cəbhə bölgəsində sizin böyük sərkərdəlik məharətiniz, nüfuzunuz, həm də yüksək hörmətiniz var. Xahiş edərdik ki,

imkanlarınızdan istifadə edərək, Jozef Marko adlı əsirin bizə verilməsinə köməklik edəsiniz.

Fərəc Ağayev gözlərini ilk baxışdan mehriban və xeyirxah insan təsiri bağışlayan Mehdi Qələndərlinin sifətinə dikib, daha sonra sakit səslə dedi:

- Bildiyim qədər siz artıq Məmməd müəllimin yanında olmusunuz. Mənim üçün maraqldır, onun cavabı nə olub?

Mehdi Qələndərli gizlətməyin mənasız olduğunu başa düşdüyündən Cavadzadə ilə aralarında olan söhbəti dilə gətirdi:

- O, bizi əliboş yola saldı.

- Səbəb kimi nə göstərdi?

- Sadəcə, o bizə erməni dığasını vermək istəmədi. Əsirlə bağlı qərarı hərbi şuranın verəcəyini bildirdi.

Fərəc Ağayev çox çətin bir məsələnin qarşısında qaldığını anladığından duruxdu:

- Mehdi müəllim, əgər Məmməd Cavadzadə məsələni hərbi şuranın öhdəsinə buraxırsa, deməli, erməni əsirini sizə vermək çətin olacaq.

Cəlal Xuduyev söz atdı:

- Onda biz zor gücü ilə Markonu onun əlindən alarıq.

Xanoğlan Qasımov da Cəlal Xuduyevə dəstək üçün fikir bildirdi:

- Qarşıdurma olmaması üçün biz hələ ki məsələnin sakit formada həllinə çalışırıq.

Fərəc Ağayev çekistlərin hədəyə keçdiklərini anladı. Həm də dərk etdi ki, onlar deyirlərsə, deməli, hər şey əllərindən gələr. Ona görə də ciddi problemə çevrilən məsələnin həlli üçün çıxış yolu göstərdi.

- Siz bir qədər gözləyə bilərsinizmi?

Mehdi Qələndərli:

- Haradasa bir gün dözmək olar.

Fərəc Ağayev:

- Mən Məmməd Cavadzadə ilə danışaram. Elə bilirəm ki, o məni başa düşər.

Bu dəfə Cəlal Xuduyev hədəni bir az da dərinləşdirmək üçün dedi:

- Biz bilirik ki, o erməni Marko Jozef Goranboy hərbi bazasında saxlanılır. İmkanımız var ki, onu oradan götürək, özü də qansız - qadasız.

Fərəc Ağayev zəiflik göstərmək istəmədi:

- Bu, heç də asan məsələ olmaz. Çünki bizim orada çox ciddi, peşəkar, təcrübəli, hər bir müqaviməti, hər bir gücü dəf etməyə qadir əsgər heyətimiz var.

Bu dəfə Xanoğlan söhbətə qoşuldu:

- Elə onların hesabına biz o Jozefi oradan götürə bilərik.

Fərəc Ağayev başa düşdü ki, Goranboy hərbi bazasında ələ alınan və çekistlərə işləyən əsgər və zabitlər var. Əgər çekstlər hərəkətə keçsələr, bu çox təhlükəli bir vəziyyətə səbəb olardı. Ən azı, Xankəndinə yaxınlaşmaqda olan, döyüşən hərbi heyətdə bir çaxnaşma, konflikt yaradardı. Ona görə də ağsaqqal məsləhəti verdi:

- Mehdi müəllim, biz erməni kimi zibillərə, tulalara görə içimizdə olan o vətənpərvərlik hissini, döyüş ruhunu aşağı sala bilmərik. Məsləhət edərdim ki, bir az səbirli olasınız.

Mehdi Qələndərli niyyətini və iki gündür ki, ürəyində gəzdirdiyi fikrini də Fərəc Ağayevə çatdırmalı oldu.

- Biz Jozef Markoya görə, sizlərə iki milyon ABŞ dolları da verməyə hazırıq.

Fərəc Ağayev çaşqın halda onun üzünə baxıb, təəccüblə dedi:

- Bu boyda pul sizdə hardandır?

- Varlığa nə darlıq, Jozef Markonu bizdən tələb edənlər qarşılığında pul da verirlər.

Fərəc Ağayev indi hər şeyi başa düşməyə başladı. Deməli, bu çekistlər pula görə burdadırlar. Pul əldə etmək üçün Markonu tələb edirlər. Cəlal Xuduyev yenidən hədələdi:

- Ya pulu götürün, ya da ki, biz xoşagəlməz sonluqla nəticələnsə belə Jozefi əldə edəcəyik, seçim sizlərindir.

Mehdi Qələndərli də söz atmalı oldu:

- Mən rəhbərliyin tağşırığını nə yolla olur olsun, yerinə yetirməliyəm. Bunun üçün bir-iki əsgərin həyatını itirməsi də o qədər ciddi faciə sayılmaz.

Fərəc Ağayev son sözləri eşidəndə içində əsdi, coşdu, istədi onları təhqir və söyüşlərlə qovsun. Öz-özünə düşündü ki, necə yəni bir ermənyə görə, Azərbaycan əsgərinin canına qıymaq olar? Ancaq düşündüklərini dilə gətirmədi. Ağsaqqallıq etməyə, məsləhətlə bu problemin yoluna qoyulmasına, çalışdı. Bir daha Mehdi Qələndərliyə üzünü tutub dedi:

- Mehdi müəllim, siz pulunuzu cibinizə qoyun, özünüzə qismət olsun. Biz bura döyüşməyə və bu vətəni, bu dövləti yağı düşməndən qorumağa gəlmişik. Xahiş edirik bizi alçaltmağa, təhqir etməyə cəsarət etməyin. Onsuzda ermənilər qürurumuzu, mənliyimizi sındırmağa, alçaltmağa çalışırlar. Yəni, kifayət qədər ətrafımızda düşmənlərimiz var. İçimizdə düşmən yaratmaq məsləhət deyil.

Mehdi Qələndərli söz atdı:

- Biz eyni vətənin, eyni xalqın övladlarıyıq. Sizin öz işiniz , bizim də öz işimiz var. Hər kəs üzərinə düşən işi yerinə yetirməlidir.

Fərəc Ağayev bu şəxslərlə məsləhətləşməyin, fikir mübadiləsi aparmağın əhəmiyyətsiz olduğunu anladığından söhbəti yekunlaşdırmağa çalışdı. Ona görə də - Mehdi

müəllim, siz zəhmət olmasa Ağdamda olun, mən məsələni yoluna qoymağa çalışacağam, - deyib ayağa durdu.

Mehdi Qələndərli də söhbətin, xoş ovqatla bitməsindən deyəsən məmnun qalmışdı. Yaxınlaşıb Fərəc Ağayevə təşəkkür etdi.

- Biz sizin xəcalətinizdən çıxmağa çalışacağıq. Xidmətlərinizin rəhbərlik tərəfindən qiymətləndirilməsi məsləhəti ilə çıxış edəcəyik.

- Xəcalətli düşməniniz olsun, - deyə Fərəc Ağayev bildirdi.

Mehdi Qələndərli:

- İnşallah bu döyüşlər bir-iki həftəyə başa çatar. Bununla da sizlər rahat, sakit həyatınıza qayıdarsınız.

Fərəc Ağayevi acı gülüş bürüdü. Bunu Mehdi Qələndərlidə sezdi. Ancaq bu barədə bir söz demədi. Əksinə, əhval-ruhiyyəni artırmaq üçün gediş etdi:

- Sizə bir informasiya verim, artıq Ermənistanın 200-ə yaxın ziyalısı Azərbaycan və Ermənistan prezidentlərinə döyüşlərin dayandırılması xahişi ilə müraciət edib.

Fərəc Ağayev:

- Bu növbəti erməni hiyləsi ola bilər.

Mehdi Qələndərli verdiyi informasiyanın ciddi olduğunu nümayiş etdirmək üçün misal göstərdi:

- Dünən artıq 16 erməni ziyalısı Azərbaycanın 1-ci şəxsinin qəbulunda olub. Qarabağdakı azərbayacanlılar və ermənilər arasındakı döyüşün dayandırılması, bölgəyə sülhün gətirilməsi üçün təkliflərini, xahişlərini çatdırıblar.

Fərəc Ağayev başını bulayıb, sərt formada dedi:

- Erməni elə bir hiyləgər, yaramaz məxluqdur ki, ilan ulduz görməsə ölmədiyi kimi onlar da bizim zorumuzu, gücümüzü, zərbəmizi görmədən, duymadan, hiss etmədən dayanmayacaqlar.

Mehdi Qələndərli dostcasına əlini Fərəc Ağayevin sağ çiyninə qoyub dedi:

- Mən sizi əmin etdim. İnanın ki, bu belədir. Yaxın günlərdə bu yerlərdə sakitlik olacaq. Azərbaycan bayrağı topsuz, tüfəngsiz Xankəndində dalğalanacaq. Arxayın olun.

Fərəc Ağayev də deyəsən, artıq yumşalmışdı, rahat nəfəs aldı. İçində bir inam kökləndiyini, bir əminlik yarandığını özündən asılı olmadan duydu, hiss etdi. Bu baxımdan da kövrək tərzdə fikirlərini dilə gətirdi:

- Kaş siz deyən olaydı. İstəmərəm gözlərimizin qarşısında körpə uşaqlar həyatlarını itirsinlər. Analar övladsız, gəlinlər ərsiz qalsınlar.

Alay komandiri sözlərini deyərkən, gözləri nəmləndi. Əli ilə gözlərinin yaşını silib, Mehdi Qələndərlini yola salmaq üçün komanda mərkəzinin qapısına doğru addımladı.

Qonaqlarını yola saldıqdan sonra Fərəc Ağayev stolda oturub, dərin xəyala daldı. Fikirləşdi ki, bu çekslərin tələbi yerinə yetirilməzsə, ciddi problemlər baş verə, hətta Məmməd Cavadzadəyə xətər yetirə bilərlər. Bu baxımdan tez-tələsik - əsgər, əsgər - deyə səsləndi. Qapının önündə uzunboylu, enlikürək, cavan bir əsgər peyda oldu:

- Eşidirəm, cənab komandir.

- Oradan Xəyyam Cəlilovu yanıma çağır, - deyə göstəriş verdi.

Az sonra Xəyyam Cəlilov içəri daxil olub, hərbi görkəm aldı, - eşidirəm cənab komandir - deyə bildirdi.

Fərəc Ağayev əsgərin çıxmasını gözlədikdən sonra Xəyyam Cəlilovu yanına çağırıb əyləşməyə yer göstərdi və dedi:

- Oğlum, sənə çox mühüm bir tapşırıq vermək istəyirəm. Ümid edirəm ki, bu tapşırığı heç kimə demədən yerinə yetirəcəksən.

Xəyyam Cəlilov bu müdrik, hər kəsdən nəvaziş və mehribanlıqla seçilən komandirə təəccüb dolu nəzərlərlə baxıb dedi:

- Cənab komandir sizin əmrinizi canımın bahasına da olsa, yerinə yetirərəm.

- Bilirəm, siz belə qoçaq övladlarsınız, belə əzmkar, döyüşkən ordunun hərbçilərisiniz, - deyə Fərəc Ağayev Xəyyam Cəlilovun çiyninə əlini qoyub, bir neçə dəfə döyəclədi.

Daha sonra əlavə etdi:

- Birbaşa burdan Məmməd Cavadzadənin yanına gedirsən. Bu kağızı da ona verirsən - deyib, əlində tutduğu məktubu Xəyyama uzatdı.

Xəyyam Cəlilov ayağa durub, - oldu cənab komandir - deyə getməsi üçün izin istədi.

Fərəc Ağayev də ayağa durub, əsgərə yaxşı yol arzuladı.

Əsgər getdikdən sonra Fərəc Ağayev xəyallara daldı. Düşündü ki, Mehdi Qələndərlinin dediyi kimi, doğrudanmı bu yerlərdə iki-üç həftədən sonra sakitlik olacaq. Bu fikirlər içində, yatmaq üçün yenidən dəmir çarpayıya uzandı.

*** *** ***

Küləyin yağan qarı sovuraraq üzlərinə vurması dəstənin irəliləməsinə çətinliklər yaradırdı. Ancaq düzəngahdan keçib, Qara qayanın ətəyinə çatanda, yerimək bir qədər asanlaşdı. Çünki külək yağan qarı dağın ətəyindəki dərələrə sovurduğundan cığırlarda, seyrəklik yaranmışdı. Dəstənin önündə olan Talıb ayaq saxlayıb ətrafa nəzər saldı. Bir anlıq uşaqlıq xatirələrinə daldı. Bu yerlərdə qoyun-quzu otarması, turşəng yığması, cır meyvələrdən dərməsi yadına düşdü. Yazda yaşıl libasa bürünən, gül-çiçəkli olan bu yerlərdə qarın yağması ilə, boran, çovğun başlayar və gediş-gəliş tam kəsilir…

- Talıb, buradan aşağıya enib, düzəngaha çıxmaq qorxuludur.

Bunu deyən Alı Məmmədov idi.

- Niyə ki? - deyə dəstənin sonunda dayanıb, gözlərini Alı Məmmədova dikən Oruc Muradov sual etdi.

Üzünə hopan qar dənələrini yun əlcəyi ilə silən Alı Məmmədov - ola bilsin aşağılara piyada əleyhinə minalar basdırılsın, - deyə narahatlığının səbəbini izah etdi.

Oruc Muradov başını aşağı yuxarı etməklə dostunun təklifi ilə razılaşdığını göstərdi:

- Hə, düz deyirsən, ola bilər ki, ermənilər əraziyə minalar basdırsınlar. Ona görə də yaxşı olardı ki, dağlıq hissə ilə yolumuza davam edək.

Uşaqlıq xatirələrindən ayılan Talıb, geri çevrilib, təcrübəli əsgərlərin fikirləri ilə razılaşdığını göstərmək üçün başı ilə, "hə" işarəsi verdi. Sonra da Mürsələ üzünü tutub, dedi:

- Mürsəl, səncə, burdan Erkişə nə qədər məsafə qalar?

Mürsəl başındakı qulaqlı papağını əli ilə düzəldib, nəzərlərini ucqarlara dikdi. Bir xeyli fikirləşdikdən, götür-qoy etdikdən sonra dedi:

- Təqribən 5 km metr.

Talıb da belə təxmin etdiyini deyib, məsləhət verdi:

- Kəndə səhərə yaxın çata bilərik, bu isə təhlükəlidir. Ona görə də, Erkiş kəndinə az qalmış, bir yerdə daldalanıb, gözləyərik.

Oruc Muradov bu fikirlərlə razılaşdığını göstərmək üçün, dilləndi:

- Hə, daldalı bir yerdə günümüzü keçirib, gecə Erkişə girərik.

Yorulduğu açıqca hiss olunan İlkin tövşiyyə-tövşiyyə söhbətə qoşuldu:

- Olmazmı elə gecəikən, kəndə girək?

Oruc Muradov İlkinə ani nəzər yetirib, pıçıltı ilə dedi:

- Yox, ola bilər ki, biz səhərə yaxın Erkişə çataq. Dan yeri söküləndən sonra ətraf işıqlı olur. Bizi görən olar, bu isə həyatımızın bitməsi ilə nəticələnər. Yaxşı olardı ki, Talıbın dediyi kimi, bir yerdə daldalanıb, vaxtı, məqamı gözləyək.

Bu sözlərdən sonra İlkin susdu. Öndə olan Talıb snayperin durbini ilə ətrafa nəzər saldı, - sakitlikdir - deyib, snayperini çiynindən asdı.

Mürsəlin səsi eşidildi:

- İndi, erməni dığaları xarabalarındadır. Bu qarda, çovğunda onlarda çölə, bayıra çıxmağa hal var.

Alı Məmmədov onun sözünə qüvvət verdi:

- Əslində, bu çovğunda nəinki mülki erməni, heç əsgərləri də səngərdən bayıra çıxmazlar. Yaxşı oldu elə bu havada Talıbın planının həyata keçirilməsi üçün yola çıxdıq.

Təpənin ətəyi ilə çətinliklə də olsa addımlayan Oruc Muradov əsgər dostunun qolundan tutub, dedi:

- Bu planı həyata keçirsək, demək olar ki, ermənilərə göz dağı çəkmiş olacağıq. Amma bacaracağıqmı?

İlkinin səsi eşidildi:

- Bacaracağıq qardaş, niyə də ki, bacarmayaq. Ancaq tam qisasımız torpaqlarımızın azad edilməsindən sonra olacaq.

Talıb söhbətə qoşuldu:

- İlkin, torpaq bütövlüyünün təminatı ordunun işidir. Bizim isə işimiz öz ailəmizin qisasını almaqdır.

Alı Məmmədov bir anlıq ayaq saxlayıb, Talıba narazılığını bildirdi:

-Bizim mübarizəmiz, davamız fərdlərin, ailələrin davası olmamalıdır, qardaşım. Ümumi maraqlarımızın təminatı naminə birgə çalışmalıyıq.

Talıb yola çıxmazdan öncə, Oruc və Alı ilə söhbətlər, müzakirələr aparmış, bir-biri ilə yaxından tanış olmuşdular. O qədər şirin, mehriban məsləhətləşmə aparmışdırlar ki, sanki, bir-birini uzun illərdi ki, tanıyırlarmış. Talıb ürəyində dönə - dönə Asif Bəşirova Oruc və Alı kimi mehriban əsgərləri ona yol yoldaşı olmağı məsləhət bildiyi üçün minnətdarlığını bildir-mişdi. İndi sözlərindən əskərlərin narazı qaldığını başa düşdüyündən səhvini düzəlmək üçün dedi:

- Qardaşım, fikrimi düz başa düşmədiniz. Demək istəyirəm ki, böyük işlərə, hədəflərə yalnız böyük ideyaları reallaşdırmaqla mümkündür. O ideyaları da vahid komandanlıq altında olan güclü, qüdrətli, ordu həyata keçirə bilər. Hələlik isə belə bir ordu yoxdur.

Mürsəl də, Talıba qahmar çıxmaq üçün söyləndi:

- Hə, biz yalnız ailəmizin qisasını almaq üçün bu yola çıxmışıq.

Alı Məmmədov onları fikirlərindən daşındarmağın çətin olacağını anladığından, bir söz demədi, susmalı oldu. Oruc Muradov Alı Məmmədovun incik qalmaması üçün onun qolundan çəkib, sakit formada dedi:

- Gəlin bu söhbətləri yığışdıraq. Çalışağın ki, gücümüzü əməliyyatımızın uğula başa çatdırılmasına səfərbər edək.

Mürsəl əsgərlərin pıçıltı ilə nəsə danışdıqlarını gördüyündən, təpənin qurtaracağında ani ayaq saxlayıb, üzünü Oruca tutdu:

- Qardaş, nəsə dedin? Bir ucadan de, biz də, başa düşək də.

Alı Məmmədov zarafatından qalmadı:

- Elə sən başa düşməsən yaxşıdır.

İlkin də söz atdı:

- Eşitmiş olsaydın cığallıq edərdin, bir qulp qoyardın.

Mürsəl dostlarının onu lağa qoyduqlarını hiss etsədə incimədi, əksinə, araya bir az xoş ovqat qatmaq üçün dedi:

- Nə edim ki, sənətim aktyorluqdur. İstəyirəm komik artist olub, insanlara xoş gülüş bəxş edim.

Oruc Muradov təəccüblə söyləndi:

- Mürsəl, haranı qurtarmısan ki?

- Aktyorluğu bitirmişəm.

İlkin:

- Bu adam elə balacalıqdan çöpə gülən və güldürən idi. Elə dədəsi Manaf dayıda onun aktyor olacağını deyirdi. Yaxşı deyiblər, niyyətin hara, mənzilin də ora.

Talıb seyrək saqqalını bağlayan qarı əli ilə təmizləyib dedi:

- Axırda gəldi aktyor oldu, hə?

Mürsəl dilini dinc qoymayıb, dilləndi:

- Olub yox, olacaq. Mən Azərbaycanın ən tanınmış aktyorlarından biri olacağam.

İlkin yenə söz atdı:

- Komik aktyorlarından?

Mürsəl iddialı şəkildə dilləndi:

- Bəli, lap elə Çarlı Çaplin kimi, Hacıbaba Bağırov kimi, Siyavuş Aslan kimi.

Oruc Muradov nəfəsini ciyərlərinə alıb, tövşüyə-tövşüyə dilləndi:

- Rasim Balayev, Həsən Məmmədov olsan daha yaxşı olar.

Talıb Mürsəli cırnatmaq üçün dedi:

- Ay Oruc, daha zilə çıxmayın o qədər də yox da.

Mürsəl bu qaçdıtutdu oyunundan bir şey başa düşmədiyindən təəccüblə Talıba söyləndi:

- Niyə şübhən var? Mən böyük aktyor ola bilmərəm?

- Niyə ki, inşallah olarsan.

- Şübhə edirsiniz, amma görərsiniz mən böyük teatr salonlarında çıxış edəcəyəm.

Mürsəl sözlərini az qala qışqıra-qışqıra dediyindən, dəstə təəccüblə çevrilib ona baxdı. Alı Məmmədov səsini qaldırdı:

- A kişi, niyə qışqırırsan, yavaş ol da. Səsimizi, sözümüzü eşidən olar.

Mürsəl özünü o yerə qoymadı:

- Bu çovğunda, boranda donuzu çölə çıxartsan, qaçıb damına girər. Erməni donuzdan da betərdi. O indi çöldə, bayırda olar?

İlkin dilini dinc qoymadı:

- İndi yəni deyirsən, biz heyvandan daha dözümlüyük?

Mürsəl İlkinə acıqlandı:

- Sözümü yamanlığa niyə yozursan? Türkün məsəli belədir də.

İlkin ağzını açıb bir söz demək istəyərkən, öndə olan Talıb geri çevrilib, dostlarına aşağı əyilmək tapşırığı verdi. Göstərişə əməl edən dostlar qarın üstünə uzandılar.

- Nə olub, kimsə var ? - arxadan Oruc Muradovun səsi eşidildi.

- Bizdən 100-150 metr aralıda səs eşidilir.

Oruc Muradov tez sürünə-sürünə təpənin yuxarısındakı kolun arxasında gizlənib, snayperini Talıbın, nişan verdiyi istiqamətə tuşladı. Snayperin durbini ilə ətrafa nəzər saldı. Bir anlıq diqqətlə qabağı izlədikdən sonra ayağa qalxdı. Snayperin qorucusunu bağlayıb, süngünü geri çəkdi. - ins-cins gözə, dəymir, - deyə bildirdi.

Talıb təəccüblə - deyəsən, ətrafda heç nə yoxdur? - deyə söyləyincə Oruc Muradov onu arxayın salmağa çalışdı:

- Mən heç nə görmürəm. Sadəcə kəndin yaxınlığında qoyun-quzunu saxlayan çobanların səsidir. Külək də o səsi buralara gətirir.

Talıb yenə də heç nə başa düşmədiyindən bu dəfə özü snayperin durbinini qabağa tərəf yönəldib, diqqətlə ətrafa nəzər saldı. Tez də qarın üstünə uzandı və dostlarına da yerə əyilmək göstərişini verdi. Dərhal yana çevrilib, Orucu əlinin işarəsi ilə yanına çağırdı.

Oruc Muradov kolun dibindən çıxıb, Talıbın dayandığı, daşın dibinə tərəf süründü.

Talıb ona qarşı tərəfin sol hissəsinə diqqətlə baxmağı tövsiyə etdi.

Oruc Muradov onun dediyi kimi də etdi. Snayper tüfənginin durbini ilə ön hissəni diqqətlə müşahidə etdikdən sonra, - hə, düz deyirsın Talıb, bir atlıdır - deyə pıçıltı ilə söyləndi. Tüfəngini nişangahdan çəkib dedi:

- Şumun sağ hissəsindən kəndə doğru gedir. O bizim üçün təhlükə ola bilməz.

Alı Məmmədovun səsi eşidildi:

- Ancaq ehtiyatlı olmalıyıq.

İlkin də dilləndi:

- Düz deyirsən, ehtiyatı əldən vermək olmaz, yaxşı olardı ki, yolumuzu dəyişək.

Talıb da İlkinin təklifi ilə razılaşdığını bildirdi. Bundan sonra onlar dağın yuxarısından aşağı enib, dərə ilə bir xeyli getdilər. Heç kəs danışmırdı. Yalnız hərdən İlkinin ermənilər yamanlayan söyüşləri eşidilirdi. Ballıca qayasına çatanda, Talıbın səsi eşidildi:

- Dağı keçib, aşağıda bir dalda yer tapıb, gizlənərik.

İlkin - yaxşı məsləhətdir - deyib, üzünü Alıya tutdu:

- Qardaş saat neçədir?

Alı Məmmədov qolundakı elektron saatına baxıb - saat 3 - ə 15 dəqiqə qalır, - deyə bildirdi. Bir neçə dəqiqəlik ayaqüstü "istirahət"dən sonra dostlar cığırdan əsər-əlamət olmayan dağ yamacını çətinliklə qalxıb, sərt, sıldırım qayaları keçib, düzəngaha enəndə yekə daş parçasının yanında dayandılar. Oruc Muradov dəstənin niyyətinin gecəni daşın arxasında keçirmək olduğunu başa düşdüyündən, narahatçılığını dilə gətirdi:

- Burada qalmaq qorxulu olar.

Talıb:

- Niyə elə fikirləşirsən?

- Qışın şaxtası bizim axırımıza çıxar. Yaxşı olardı ki, uçuq-sökük də olsa bir daxma tapaq.

Alı ətrafa nəzər yetirib gül-gülə - bərli, bəzəki ev istəmirsən ki, - deyə söz atdı. Sonra çovğundan gözlərini qorumaq və dostunun üzünü yaxışı görməsi üçün sağ əlini alnına tutub, əlavə etdi:

- Allah sənə kömək olsun, bu yerlərdə, nə damxa, nə yer?

Bu dəfə Mürsəl dilləndi:

- Mən bilən yaxınlıqda, çoban qışlağı olmalıdır. Qışda orada heç kəs olmur. Ancaq yayda buralara qoyun-quzu saxlamaq üçün gəlirlər. Ora çatsaq, yaxşı olar.

Talıb yun jaketinin yaxalığını düzəldib, üzünə hopan qar dənələrini sol əlinin arxası ilə təmizləyib dedi:

- Yaxşı məsləhətdir.

Oruc Alıya söz atdı:

- Gördün, düşünsək, lap sən arzuladığın bəzəkli evi də taparıq.

Talıb isinmək üçün, bir-iki dəfə yerində ayaqlarını götürüb, qoyduqdan sonra iddialı şəkildə dedi:

-Tələsməyin, sabah axşam sizi bəzəkli evdə qonaq edəcəm, qız-mızda yanında.

İkin qımışdı, əli ilə Mürsəlin çiynini dümsüklədi. Bu, Orucun gözündən yayınmadı:

- Ayə qırışmal, nə çiçəyin çırtladı?

Orucun atmacasından Mürsəlin qızardığını görən Alı Oruca - guya sən, qımışmadın, ay səni, - deyib ehmalca dostunun kürəyinə bir şillə vurdu.

Mürsəl söhbəti dəyişmək üçün dedi:

- O qışlaqda bu dəqiqə heç kəs yoxdur. Gəlin ora gedək.

Müzakirə və məsləhətləşmələr çox çəkmədi. Razılığa əsasən Mürsəlin dediyi yatağa doğru addımladılar. Qar isə ara vermədən yağırdı. Gecənin şaxtası soyuq havanı gənclərin üzünə vurduqca canlarında üşütmə yaradırdı. Dostlar isə ruhdan düşmür, bir-birinə kömək edə-edə yollarına davam edirdilər. Qarın ağırlığından budaqları aşağı əyilmiş ağıc ağacına çatanda Mürsəlin səsi eşidildi:

- Siz burada gözləyin mən gəlirəm.

Oruc Muradov ona mane olmaq istədi:

- Bu qorxulu olar. Sən tək hara gedəcəksən?

Mürsəl Oruca böyük qardaş nəvazişi ilə baxıb, dedi:

- Narahat olma, qardaş mən onsuzda itirdiyimi itirmişəm. Heç olmasa sizi itirməyim.

Gözlər Talıba dikildi. Talıb bir anlıq Mürsələ baxıb, dedi:

- Yaxşı get, amma ehtiyatlı ol.

Mürsəl dostlarından aralanıb getdikdən sonra Talıbgil arğıc ağacının yanında oturub, onu gözləməyə başladılar. Mürsəlin gedib-gəlməyi çox çəkmədi. Çatan kimi - gəlin ardımca, - deyə dostlarına göstəriş verdi.

Dostlar ayağa qalxıb, Mürsəlin ardınca addımladılar. Yatağa çatanda Mürsəl uçuq-sökük çəpər qapını aralayıb, dostlarına keçməyə kömək etdi. Burada 30-35 metr uzunluğunda qoyun - quzu saxalamq üçün bir tövlə və çobanların qalması üçün yarı taxtadan, yarı daşdan tikilmiş yan-yana iki alaçıq vardı. Mürsəlin məsləhəti ilə ətrafı yaxşı görmək üçün sağ tərəfdəki, nisbətən yündürlükdə tikilən, qapısı göy rəngdə boyanmış alaçığın içərisinə girdilər. Oruc otağın pəncərəsindən snayperin durbini ilə ətrafa nəzər yetirdikdən sonra, dedi:

- Sakitlikdir.

İlkinin səsi eşidildi:

- İndi nə etmək istəyirsiniz?

Talıb dilləndi:

- Səhəri gözləməliyik. Hətta sabah gündüz də burada qalacağıq. Axşam saat 10:00-11:00-də hədəfə doğru gedəcəyik.

Oruc Muradov uçuq - sökük alaçığın tavanına nəzər yetirib, Mürsələ üzünü tutdu:

- Qardaş buraları hardan tanıyırsan:

Mürsəl özünəməxsus lovğalıqla dilləndi:

- Bu yerlərdə mənim tanımadığım yer-yurd yoxdur. Hər bir dağ cığırına bələdəm.

Alı Məmmədov söz atdı:

- İyirmi yaşın ola, olmaya ancaq, elə danışırsan ki, sanki Şah Abbası taxtda, Nikolayı qundaqda görmüsən.

Mürsəl yenə lovğalıq etdi:

- Qardaş eşitməmisən ki, ağıl yaşda deyil, başdadır.

İlkin ərklə sağ əli ilə Mürsəlin başındakı papağana bir şillə vurub dedi:

- Yaxşı -yaxşı boyundan yekə danışma, sual verirlər, cavab ver.

Mürsəl həmyaşıdının tənəsindən sonra gül- gülə dedi:

- Qardaş 3-4 il bundan əvvəl, babamla bu yerlərdə qoyun-quzu otarmışam. Dəfələrlə bu alaçığa gəlib, erməni Akop vardı onun qonağı olmuşduq. Ona görə tanıyıram, indi bildiniz?

Oruc Mürsəlin izahatından sonra əlavə sual vermədi. Dostlarıda bir söz demədilər. Hərəsi bir tərəfə çəkilib, taxta döşəmənin üstündə oturdular. Yarı uzanmış halda azda olsa yatmağa çalışdılar. Amma havanın soyuqluğu və bir az da narahatçılıq onlara gözlərinin acısını almağa imkan vermirdi. Beləcə səhərə qədər oyaq qaldılar. Səhərin açılması ilə Oruc Muradov ayağa durub, pəncərədən ətrafa nəzər yetirdi. Bununla kifayətlənməyib əsgər dostundan xahiş etdi:

- Alı, qalx, ehtiyatla alaçığın damına çıx, oradan snayperin durbini ilə ətrafa diqqətlə nəzər yetir.

Alı bir söz demədi. Sakitcə ayağa durub, snayperi əlinə götürdü. Otaqdan çıxınca Talıb dilləndi:

- Mürsəl sən də get, münasib yerlərdən ətrafa diqqətlə nəzər yetir.

Mürsəl əmisioğlunun tələbini yerinə yetirdi. Alı Məmmədovun ardınca çıxıb, ətrafa nəzər yetirməyə çalışdı.

Bir saatdan sonra Mürsəl və Alı Məmmədov otağa qayıtdılar. Hər ikisi - sakitlikdir, - deyə bildirdilər. Ancaq beş-altı dəqiqə sonra, yatağın çəpərinin açıldığı hiss olundu. Dostlar təşvişlə bir-birinə baxdılar. Nə edəcəklərini düşünmək belə mümkünsüz idi. Talıb barmağının işarəsi ilə dostlarına sakit olmağı məsləhət gördü. Özü isə yaxınlaşıb qapının arasından çölə nəzər yetirdi. Sonra da üzünü arxaya çevirib, - bayaqkı atlıdır, özü də təkdir - deyə bildirdi.

İlkin dilləndi:

- Arxasında başqa adamlar da ola bilər.

Talıb:

- Bəlkə də, gözləməkdən başqa çarəmiz yoxdur.

Talıb - otağa tərəf gəlir, künclərdə dayanın - deyə tapşırıq verdi. Bir qədər sonra qapı açıldı. Başında yun papaq, əynində xəz palto, ayağında uzunboğaz çəkmə olan bir kişi içəri daxil oldu. Həmin an Talıb cəld hərəkətlə onun boyun nahiyəsindən

bir yumruq vurub, yerə uzatdı. Deyəsən, erməni nə baş verdiyini anlamadı. Əllərini döşəməyə söykəyib, ayağa qalxmaq istədi. Bu dəfə Mürsəl sağ ayağı ilə onun sinəsindən bir təpik vurdu. Erməni kürəyi üstə yerə sərildi, dərhal da Mürsəl səsboğucu tapacasını onun gicgahına dirəyib, atəş açmaq üçün tətiyi çəkdi. Bu məqamda Oruc Muradov onun əlindən dartmasaydı, bəlkə də erməni artıq o dünyalıq olmuşdu. Güllə daş döşəməyə dəydi və otağı toz bürüdü. Mürsəl müqavimət göstərdi, yenidən tapancasını ermənіyə tuşladı. Muradovun sərt səsi eşidildi. - Mürsəl dayan, özünü ələ al, - deyə onu sakitləşdirməyə çalışdı.

Mürsəl isə Oruca öz etirazını bildirdi:

- Niyə imkan vermirsən bu tulanı o dünyalıq edim?

Oruc:

- O bizə lazımdır.

Talıb da bir şey başa düşmədiyindən təəccüblə Orucun gözlərinə baxdı.

Oruc Muradov qərarına aydınlıq gətirmək üçün dedi:

- O bizim planlarımızın bir hissəsi ola bilər.

Mürsəlin acıqlı səsi eşidildi:

- Yəni erməni bizə kömək edə bilər?

Oruc Muradov:

- Hə edər. Ən azı bu ərazinin durumu, gedəcəyimiz yerin təhlükəli və təhlükəsiz olması, oradakı şəraitlə bağlı müəyyən məlumatlar verə bilər.

Alı Məmmədov da əsgər yoldaşına dəstək oldu:

- Hə, Oruc düz deyir. Biz onu danışdırmalı, dilini açmalıyıq.

Talıb da deyəsən, Orucu başa düşdü. Ona görə də İlkinə üzünü tutub, dedi:

- Əmioğlu, onun qollarını bağla, divara söykə.

İlkin dərhal uzanılı vəziyyətdə dinməz, söyləməz qorxaq baxışlarla onları süzən ermənіyə yaxınlaşıb, cibindən çıxartdığı iplə arxadan onun qollarını bağladı. Sonrada it leşi kimi sürüyüb, divarın küncündə oturtdu.

Alı Məmmədov Rusiyada hərbi xidmətdə olduğu zaman öyrəndiyi rus dilindən, bir-iki kəlmə ilə ermənini sual-cavab etmək üçün ona yaxınlaşdı. Dizləri üstə çömələb, onun codlaşmış qara simasına, burnundan süzülən qan ləkəsinə və üzgün görünən gözlərinə diqqətlə baxıb, sual etdi:

- Haradan gəlirsən? Kimsən? Bizi izləyirdin?

Erməninin dillənmədiyini görən, Alı Məmmədov onun sağ çiyninə bir yumruq vurub dedi:

-Sənінləyəm, eşitmirsən nə deyirəm? Hardan gəlirsən? Bizi izləyirdin? Ətrafda səndən başqa kimsə varmı?

Erməni başını sağa-sola yelləyib, Azərbaycan dilində dedi:

- Mən rus dilində bilmirəm, amma Azərbaycan dilini bilirəm.

Otaqdakılar təəccüblə bir-birilərinə baxdılar. Talıb aşağı əyildi, onunla göz-gözə dayanıb, dedi:

- Səndən başqa çöldə kimsə var?

Erməni:

- Xeyr.

Mürsəlin acıqlı səsi eşidildi:

- Buralarda nə qələt edirsən, nə axtarırsan?

Erməni ağır-ağır nəfəs alıb, pıçıltılı səslə dedi:

- Mən çox vaxt gecələr gəlib burada qalıram.

Talıb hirslə onun üstünə qışqırdı:

- Xarabanız yoxdur? Bizim kimi eviniz-eşiyini talanıb, qarət olunmayıb ki. Niyə xarabanda qalmırsan?

Erməni ona ünvanlanan suallara cavab verməyə tələsmədi. Sanki artıq onu öldürmək fikrindən daşındıqlarını başa düşmüşdü. Ona görə də, rahatlanmağa, çalışdı. Burnundan axan qanı, nəfəsini içinə çəkməklə, azaltmağa cəhd etdi. Amma buna nail ola bilmədiyindən, burnunu sol çiyninə söykəyib, qanını paltosuna silməyə çalışdı. İstəyinə qismən nail olduqdan sonra suala cavab vermək üçün üzünü gözlərini ona dikənlərə tutub, dedi:

- Evim də, ailəmdə var...

Erməni sözünü tamamlaya bilmədi, öskürək onu tutdu. Bir xeyli öskürdü. Qamətini düzəltməyə, bir qədər rahatlanmağa çalışdı. Ancaq arxadan qollarının bağlı olması, ona dikəlməyə və kürəyini divara tam söykəməyə imkan vermədi.

Alı Məmmədov ağzını Oruc Muradovun qulağına söykəyib, pıçıltılı səslə - yaxşı olardı ki, əlini açaq. Bununla biz onunla daha rahat danışa bilərik, - deyə təklif etdi.

Oruc Talıba baxdı. Sanki - sən nə deyirsən, - deyə fikrini öyrənmək istədi. Talıb məsələ ilə bağlı müzakirə aparmağa ehtiyac duymadı. Üzünü İlkinə tutub, dedi:

- Alı düz deyir, onun qollarını açaq.

Mürsəl etiraz etdi:

- Bu şərəfsizin qolunu açmaq deyil, cəhənnəmə vasil etmək lazımdır. Heç olmasa bir ermənidən qisasımız almış olarıq.

Talıb incik baxışlarla Mürsəli süzüb, dedi:

- Tələsmə, əgər bizimlə əməkdaşlıq etməsə o zaman istədiyini həyata keçirərsən. İndi isə bizim onun dilini açmağımıza heç olmasa mane olma.

Narazı şəkildə deyilən bu sözlər Mürsəli tutdu. Dostlarından aralanıb, ehtiyatla dar pəncərədən gözlərini dağlara dikdi. Bu məqamda İlkin ermənինin əllərini açmışdı.

Hətta ona burnunu silmək üçün kağız parçası da vermişdi. Erməni bir qədər özünə gəldikdən sonra dedi:

- Siz azərbaycanlısınız, eləmi?

Talıb, kinayəli nəzərlərlə onu süzüb, dedi:

- Nə demək istəyirsən?

Erməni, başını aşağı əyib, susdu.

Talıb, onu dümsükləyincə, ağlamağa başladı. Gözlərindən süzülən göz yaşlarını ovcunun içi ilə silib, dodaqlarını büzdü. Sonrada göz qapaqlarını qaldırdı, titrək səslə dedi:

- Hər kəsin pisdən, yaxşıdan qalmağa, üz tutmağa yeri, yurdu var. Mənim isə, yoxdur. Zorla evimdən-eşiyimdən, isti yuvamdan qaçaq düşmüşəm.

Talıb yumruğu ilə onun dizini döyəcləyib, acıqlı səslə dedi:

- Ə nə sayıqlayırsan, sizin ki, ev-eşiyiniz işğal olunmayıb, sizing ki, əzizləriniz öldürülməyib.

Erməni dərin fikrə daldı. Gözlərindən yaş axdı.

Bu İlkinin acığına gəldi. Onun qıçına bir təpik vurdu:

- Ə, nə tülkülük edirsən. Elə bilirsən biz sənə rəhm edəcəyik. Suala cavab ver, burada nə gəzirsən? Nə axtarırsan?

Erməni sol əli ilə göz yaşlarını silib, dedi:

- Mən Erkiş kəndindənəm. Zorla evimdən-eşiyimdən qaçaq düşmüşəm.

Talıb qeyri-ixtiyarı sual verdi:

- Niyə?

- Çünki bir qəddar iblisin zorakılığına tuş gəlməmək üçün ailəmi, uşağımı qoyub, qaçmışam.

Oruc Muradov:

-Kimdən və niyə?

- Samveldən.

Talıb sual vermək istəyərkən, Oruc Muradov ona imkan verməyib dedi:

- Samvel kimdir? Ondan niyə qaçırsan ki?

Erməni gözlərini bir nöqtəyə dikib, ağlar səslə dilləndi:

- Samvel bu yerlərin banda başçısıdır. Silahlı dəstənin rəhbəridir. Azərbaycan kəndlərinə hücum çəkir, oraları qarət və talan edir, dinc insanları qırmaqla kifayətlənməyib biz ermənilərə də dinclik vermir.

Alı Məmmədov sual etdi:

- Sənlə nə problemi var ki?

Erməni:

-Mənim qardaşım Dağlıq Qarabağda yaranan azərbaycanlı- erməni konfliktində ortaq mövqe tutan, mübahisənin böyüməsinin qarşısını almağa çalışan şəxs idi.

Talıb sual etdi:

- Nə idi ki, qardaşının adı?

- Setraq.

Talıb:

- Nə?

- Setraq Akopyan.

Talıb yenidən sual etdi:

- O Xankəndi şəhər sovetində işləyən Setraq?

Erməni başı ilə - hə - işarəsi verib, sonra da əlavə etdi:

- 1989-cu ildə Xankəndində mitinqlərdə Setraq azərbaycanlı-erməni qarşıdurmasının müharibə vəziyyətinə çevrilməməsi üçün çıxış etdi. Azərbaycanlılara haqq qazandırdı, azərbaycanlılarla dost-qardaş olmağın vacibliyini bildirdi. Xankəndinə gələn xaricdəki ermənilərı qınadı. Onların bu ərazilərdən getməsinin vacibliyini bildirdi.

- Sonra da onu öldürdülər, hə?

Bunu deyən Talıb idi.

Erməni:

- Hə. Samvel Xaçaturyan mitinqdəki çıxışından sonra Setraqı ağaclıqların arasına aparıb, bıçaqla öldürdü. Bu azmış kimi onun evinə basqın təşkil edib, arvadını, qızını zorlatdı. Oğlunu küçənin ortasında güllələtdi. Mənim böyük qardaşım Sarkisi də Samvel müharibəyə apartdırdı və az sonra onu arxadan güllə ilə vurub, öldürtdürdü. Beş-altı ay öncə 10-cu sinifdə oxuyan qızım məktəbdən çıxıb, evə gələndə maşına basıb aparıb, hərbi hissədə zorlatmışdı.

Mürsəl zorlatmış sözünü eşidəndə pəncərədən uzaqlara dikilən gözlərini çəkib, ermənіyə yaxınlaşdı. Nifrət dolu baxışlarla onu süzüb, acıqlı səslə dedi:

- Bütün bunlar sənin uydurmandır. Qorxudan yazıq görkəm almısan. Ermənilərin xisləti belədir.

Talıb Mürsəlin gözlənilmədən onu güllələyə biləcəyindən narahat olduğundan ayağa durdu. Onun qoluna girib söhbət etmək üçün pəncərənin yanına apardı.

Oruc Muradov isə peşəkar kəşfiyyatçı kimi erməni ilə söhbətini davam etdirdi:

- Sənin adın nədir?

- Karen. Karen Akopyan.

Oruc Muradov yenidən sual verdi:

- Yaxşı, dediyin o Samvel ailənə və yaxınlarına ziyan vurub, öldürüb, zorlayıb. Bəs siz qarşılığında nə isə etməmisiniz?

Karen bu dəfə udqunub, əllərini döşəməyə söykəyib, bir qədər geriyə çəkildi, rahatlandıqdan sonra dedi:

- Niyə ki, 7-8 ay öncə mən onun ortancıl qardaşını, oğlu ilə bir yerdə güllələdim. Bir ay öncə kəndə gələndə klubun yanında ona atəş açdım. Yaralanmaqla canını qurtara bildi. Söz vermişəm onun ailəsini məhv edəcəyəm.

- Onun ailəsi var? - deyə Talıb sual verdi.

- Hə Daşnakstyun partiyasının Dağlıq Qarabağ üzrə rəhbəri Mişkinin qızını alıb, artıq bir yaşında qızı da var.

- Ev-eşiyi haradadır?

- Kəndin ucqarında, özünə böyük ev tikdirib. Azərbaycan kəndlərini qarət və talan edib, insanları öldürdükdən sonra gəlib evində məclis qurur. Bir həftə əvvəl də deyəsən, Sırxavənd kəndini aldığından, gəlib evində məclis təşkil etmişdi.

Oruc ilə Alı bir-birinə baxdılar. Sanki demək istəyirdilər ki, bu erməni bizə kömək edə bilərmi?

Əsgərlər beyinlərində yaranan müəmmalı suala axtarış apardıqları bir məqamda Talıb onlara yaxınlaşdı və Oruc Muradova - bu erməni ilə münasibətləri dayandırmaq və öldürməkdən başqa çarəmiz yoxdur, - deyə təklif etdi.

Erməni narahat oldu. Yalvarış dolu nəzərlərlə Oruc Muradova baxıb, sanki ondan imdad dilədi. Bununla kifayətlənməyib əlini Talıba uzadıb dedi:

- Mənim heç zaman azərbaycanlılarla problemim olmayıb. Şelli kəndindən Mübariz və Fərəc kişi mənim dostlarım olub. Kərkicahandakı kənd sovetinin sədri Baba müəllim mənim ailəvi dostum idi. Kiçik qardaşım azərbaycanlılarla döyüşdən imtina etdiyinə görə Samvel Xaçaturyanın tapşırığı ilə Xankəndinə aparılıb, türməyə

salıblar. Arvadınıda döyə-döyə özləri ilə cəbhəyə apardılar. İndi də ondan səs-soraq yoxdur.

Gözlənilmədən Alı Məmmədov ermənіyə sual etdi:

- Niyə kənd camaatı Samveldən canlarını qurtarmağa cəhd etmir?

Karen başını aşağı saldı. İki-üç dəfə öskürdükdən sonra, sağ əlini ağzına tutub, yanıqlı - yanıqlı dedi:

- Onun silahlı dəstəsi var. Digər tərəfdən, kəndin rəhbər heyəti onun yaxın-qohum əqrəbasıdır. Heç kəs cürət edib, nəinki onun özünə heç yaxınlarına, vəzifədə olan şəxslərinə belə söz deyə bilməz. Ona görə də hər kəs susur. İçlərində ona nifrət edən, ondan qisas almaq istəyənlər var. Çünki Erkiş kəndində çox ailələr var ki, Samvel tərəfindən döyülüb, təhqir edilib, işgəncəyə məruz qalıb. Amma dediyim kimi, yenə də qorxularından susurlar.

Oruc Muradov söyləndi:

- Biz sənə kömək etsək, qarşılığında nə verərsən?

- Nə istəsəniz.

Bundan sonra danışmadılar. İki-üç dəqiqə otaqda sakitlik yarandı. Dəstə üzvləri bir-birinə baxıb, Karen Akopyana inansınlar və ya inanmasınlar sualı ətrafında beyinlərində, düşüncələrində var-gəl etdilər. Risk etmək olmazdı. Çünki əməliyyat tam məxfi saxlanılsada, yol verilən hansısa ehtiyatsızlıq səbəbindən ermənilərə məlumat sızdırıla bilərdi.

Kim bilir, bəlkə də, bu erməni Ermənistan kəşfiyyatının əməkdaşıdır.

Otaqdakı sakitliyi Oruc Muradovun səsi pozdu.

- Dedin ailən var, hə?

Karen Akopyan:

- Bəli. Zorlanmış bir qızım, iki də ondan kiçik oğlum var. Yoldaşım da yaşayır. Əgər ona yaşamaq demək olarsa.

- Biz dediklərinə inanırıq və sənə qisas almaq üçün kömək edəcəyik.

Mürsəl yenə də acıqla dilləndi:

- Oruc tələsmə. Bu küçüyə çox tez inandınız, hətta etibar da edirsiniz.

Alı Məmmədov divara söykədiyi avtomatını çiyninə keçirib, dedi:

- Karenlə, Erkişə gedəcəyik.

Mürsəl yenə dilini dinc qoymadı:

- Bəlkə, ona silahda verəsiniz.

Oruc Muradov:

- Hə, silahda verəcəyk, necə ki?

Mürsəl bu sözlərdən, alovlandı, səsinin tonunu bir qədər qaldırıb, əsəbi formada dedi:

- Məsəl var, deyərlər ermənin pisi pisdir, yaxşısına da Allah lənət eləsin. Silahınızı tez aşağı saldınız.

Talıb bu dəfə Mürsələ acıqlandı:

-Bu ermənіyə mən inanıram və onunla gedib, Samvel Xaçaturyanı və onun ailəsini məhv edəcəyik.

Oruc Muradov da Talıbın söylədiklərini təkrarladı:

- Mürsəl, biz Karenlə birlikdə Samvelin evinə daxil olub, onun ailəsini sıradan çıxaracayıq bunu bil. İstəsən, sən geri qayıda bilərsən.

Alı Məmmədov da, sərt danışdı:

- Başa düşdün? Bir daha Karenə acıqlanma.

Mürsəl Talıbın və Orucun qəti sözündən sonra geri çəkilib, pəncərənin sağ tərəfindəki küncdə oturdu. Tapançasını belindən çıxarıb, güllələrini saymağa başladı.

Erməni də gözaltı Mürsələ baxıb, ani fikrə getdi. Daha sonra, oturduğu narahat döşəmənin üstündə, bir qədər rahatlanıb, xəz paltosunun düymələrini açdı, belinə qurşanmış tapançasını qaburadan çıxartdı və Oruca uzadıb dedi:

- Al, bu da mənim silahımdır.

Onun bu hərəkəti heç kimin gözündən yayınmadı. Hətta bir qədər də təəccübləndirdi.

- Deməli, bunun üzərində silah var imiş - Alı Məmmədov pıçıltı ilə söyləndi. Bundan sonra otaqda sakitlik yarandı…

Artıq, ətrafa gün işığı hakim kəsilmişdi. Ara verməyən çovğun ətrafı öz ağuşuna bürüsə də, külək bir qədər avazımışdı. Dünən səhər 50-60 metri güclə sezmək olurdusa, bu gün iki yüz metrə qədər məsafəni açıq görmək mümkün idi.

Alı Məmmədovla İlkin həyətə çıxıb, ətrafa nəzər yetirməyə getdikdən sonra, Oruc Muradov pəncərədən çölə uzanan baxışlarını çəkib, Karenə yaxınlaşdı, sakit və həmfikir görüntüsü ilə, sual etdi:

- O yırtıcının, evinə gündüz, yoxsa, gecə gedək?

Karen artıq ona qarşı nifrətin bir qədər əridiyini hiss etdiyindən sakitləşmişdi. Orucun sualına bu dəfə titrək səslə deyil, açıq-aydın, rahat şəkildə cavab verdi:

- Gündüz görüb, eləyən olar. Ən yaxşısı, gecə yarısıdır.

Talıb onu yoxlamaq üçün söz atdı:

- Niyə gecə, bəlkə gündüz gedək? Onsuzda çovğun, qar-boran gecələr kimi gündüzlərdə, insanların küçədə, bayırda vurnuxmasına imkan vermir.

Karen ayağa durub, oturmaqdan taqətdən düşmüş dizlərini əlləri ilə ovuşdurdu, təcrübəli bələdçi kimi dedi:

- Samvelin evini 3 mühafizəçi qoruyur. Gündüzlər o mühafizəçilər ətrafa diqqətlə nəzər yetirsələr də gecələr içib, özlərini unudurlar.

Oruc Muradov yenidən sual etdi:

- Hazırda onun evində, kimlərin olması barədə məlumatın varmı?

- Var. Arvadının qohumları, Bella adlı bacısı və qardaşı Petrosda oradadır.

- Təqribən neçə nəfər olarlar?

- Ümumilikdə evdə haradasa arvad-uşaqlı, kişili 15-16 nəfər.

Talıbla Oruc Muradov göz-gözə gəldilər. Sanki demək istəyirdilər ki, bu ələ düşən fürsətdir, qaçırmaq olmaz.

Oruc Muradov sual etdi:

- Samvel özü haradadır?

- Dediyim kimi, bir həftə öncə o kənddə idi. Sırxavəndi almaları münasibəti ilə yeyib-içib, qələbələrini qeyd edirdilər. Üç gün öncə gedib, hansısa Azərbaycan kəndinə hücum edəcəklərini deyirlər.

Oruc Muradov bir anlıq susdu, papağını çıxarıb, saçını sağ əli ilə sağa-sola sığalladı. Sonra əlini çənəsinə sürtüb, saqqalına əl gəzdirdi. Qaşlarını çatıb sual etdi:

- Silah-sursatları, kömək-filanları varmı?

Karen müşahidələrini dilə gətirdi:

- Heç də yaxşı deyil. Azərbaycan ordusu Şaumyanı, Əsgəranı, Naxçıvaniki, Şoşu və neçə-neçə digər kənd və qəsəbələri aldıqdan sonra yaman ruhdan düşüblər. Hətta qorxu içində cəbhədən baş götürüb, qaçanlarda var. Kaş Azərbaycan iki dost xalq arasına nifaq salan samvellərin axırına tez çıxaydı.

Talıb dilləndi:

- O gün heç də uzaqda deyil, tələsmə. Sən bizə də görək, nə vaxt çıxsaq yaxşı olar?

- Ancaq gecə saat 12-dən sonra. Çünki saat 10:00-11:00 -ə kimi onlar yeyib-içir, kef edirlər. Sonra da hərəsi bir tərəfə çəkilib yatır.

Talıb söz atdı:

- Yaxşı, de görək, biz sənə inana bilərikmi?

Erməni başını aşağı salıb, yazıq-yazıq dedi:

- Bilirəm, siz mənə inanmırsınız. Belə də olmalıdır. Siz azərbaycanlı, mən isə erməni. Amma bilin ki, mən həqiqətən də Samveli öldürmək istəyirəm. Və sizin mənə kömək edəcəyinizi düşünəndə, sevindiyimdən içimdə təlatümlər yaranır.

Mürsəl acıqlı formada yenidən oturduğu divarın küncündən ona söz atdı:

- Allah bilir. Sən ürəyində nələr planlaşdırırsan.

Erməni Mürsələ, baxmadan sakit formada dedi:

- Əgər inanmırsınızsa birinizlə gedək, evimə mən arvadımı, qızımı, uşaqlarımı gətirim gəlim bura. Soyuq-sazaq olsa da, bu otaqda girov olaraq qalsınlar.

Tam qətiyyətlə və açıq şəkildə deyilmiş bu sözdən sonra dəstə susdu. Hətta ona inanmağa da başladılar. Yenicə otağa daxil olub, çəkmələrinin qarını təmizləyən Alı Məmmədov ermənin dediyi son sözləri eşidib, onu yoxlamaq üçün dedi:

- Ailəni bura gətirmək fikirində qərarlısan?

- Bəli.

- Elə isə İlkinlə gedirsən öz evinə, ailəni bir bəhanə ilə gətirirsən bura.

- Olsun, mən sizin tələb və təklifinizi qəbul edirəm. Amma söz verin ki, mənim ailəmə toxunmayacaqsınız və ona da söz verin ki, Samvelin və onun ailəsinin axırına çıxmaq üçün mənə kömək edəcəksiniz.

Oruc Muradov dəstə üzvlərinə baxdıqdan sonra Talıba - nə deyirsən, qərar sənindir, axı sən bizim rəhbərimizsən? - deyə onun fikirini öyrənməyə çalışdı.

Talıb ani fikrə gedib, düşüncəyə qərq olduqdan sonra dedi:

- Mən Karenə inana bilərəm. Amma çox istəyirəm ki, Samvelin hədəfinə tuş gələn ailəsi ilə bağlı bir dəlil, sübut göstərsin.

Karen əlini sağ cibinə salıb, oradan bir topa şəkil çıxardıb, dedi:

- Baxın bu Setraqdır, mənim öldürülən qardaşım. Bu isə zorakılığa məruz qaldıqdan sonra uzun müddət depressiyada olan qızımdır. Bu isə müharibədə arxadan güllələnərək öldü-rülən qardaşımdır- deyə bir-bir şəkilləri göstərməyə başladı.

Dəstə üzvləri ani söhbətdən və müzakirələrdən sonra Karen Akopyanla iş birliyinə getmək və birgə hərəkət etmək barədə qərar verdilər. Artıq bir növ Karenlə "dostlaşmış"dılar. Söhbətlər edir, keçmişdən, arada olan maraqlı hadisələrdən,

Talıbın da, Mürsəlin də, İlkinin də eşitdiyi, bildiyi və gördüyü hadisələrdən nəql edirdilər.

Karenin danışması və müəyyən məlumatları olduğu kimi deməsi Talıbın ona tam inanmasına imkan yaratmışdı. Söhbətləri axşam saat 10:00 qədər davam etdi.

Gecə saat 11-ə işləmiş Karen Akopyan - kəndə getmək vaxtıdır, - deyə dəstəyə məsləhət verdi. Mürsəl əvvəlki qəzəb, nifrətini bir qədər gizlədib, sərt formada Karenə söyləndi:

- Sən mənimlə gedəcəksən. Bir yerdə olacayıq, silahın da olmayacaq. Əgər o yan, bu yan etsən, birinci sənin təpənə gülləni vurub, öldürəcəyəm. Biləcəm ki, məndən əvvəl sən ölmüsən.

Karen Akopyan başını aşağı salıb dedi:

- Necə istəyirsiniz, elə də olsun.

Oruc Muradov üst-başına əl-gəzdirə-gəzdirə dəqiləşdirmək üçün Karenlə dedi:

- Burdan, Erkişə nə qədər məsafə olar?

- Hardasa, piyada 2 saatlıq yoldur. Atım qalacaq burada. Sonra gəlib, apararam.

Dəstə, sonuncu dəfə məşvərət, götür-qoy etdikdən sonra gecənin qaranlığında kəndə yol aldı. Qar yağırdı, ağaclar, kollar ağ libasa bürünmüşdü. Çovğunun tükürpədici səsi vahimə yaradırdı. Kəndin ətəyində ins-cins gözə dəymirdi,

ancaq arabir itlərin səsi eşidilirdi. Talıb kəndin girəcəyində Karenə əlini uzadıb dedi:

- Görüb-edən olsa nə deyəcəksən?

- Narahat olmayın. Deyəcəyəm ki, qohumlarımdır, ovdan gəlirik.

- Birdən Samvelin yaxınları səni gördülər və hərəkətə keçdilər. Onda necə olacaq?

- Samvelin adamları çoxdan yuxuya gedər. Bir də ki, onlardan bizi görən olsa, mütləq öldürmək lazımdır. Çünki ehtiyatı əldən vermək olmaz.

Kəndin içi ilə irəliləyib, ikimərtəbəli evin yüz metrliyinə çatanda Karen dedi:

- O ağ şiferli, hasarlı ev Samvelindir. Bir mühafizəçi evin önündə, iki mühafizəçi isə evin arxa tərəfindəki sağ və sol künclərdə qarovul çəkirlər.

Ətrafı diqqətlə müşahidə edən dəstə daş hasarın qaranlıq küncündə ayaq saxlayıb, bir-birinə baxdılar. Alı Məmmədov əvvəlcədən müəyyənləşdirilmiş planı növbəti dəfə söyləməli oldu:

- Sağ və sol künclərdəki mühafizəçiləri aradan götürüb, evin arxasından bana çıxmaq, oradan evin içinə girmək lazımdır.

Karen söhbətə qoşuldu:

-Bəs evin önündəki, mühafizəçi necə olsun?

- Onu öldürməyə dəyməz.

- Niyə, - deyə Karen sual etdi.

Oruc onu sakitləşdirməyə çalışdı:

- Çünki o, giriş qapısındadır. Həyətə girib-çıxmaq, nəzarət etmək onun imkanı xaricindədir. Əgər biz onu giriş qapısında öldürsək, təsadüfən kimsə küçə ilə gedib-gələndə onun olmadığını görüb, yerini öz başına tərk etməsi barədə, kimlərə isə xəbər verər. Bu isə bizə təhlükə yarada bilər.

Karen təəccüblə başını aşağı-yuxarı edib - hə, düz deyirsiniz, - deyə bildirdi. Bundan sonra Talıbla Oruc dəstədən aralanıb, Karenin nişan verdiyi arxadakı mühafizəçilərin olduğu yerə addımladılar.Təqribən 5-7 dəqiqə çəkən bu əməliyyat Mürsələ, İlkinə, Alıya saatlara başa gəldi. Nə qədər çalışsalarda, təşviş və narahatçılığı özlərindən uzaqlaşdıra bilmirdilər. Sanki zaman dayanmışdı, hərəkət etmirdi. Onlara elə gəlirdi ki, ürək döyüntülərini hər biri eşidir.

Az sonra əməliyyat paroluna uyğun olaraq üç dəfə tappıltı səsi eşidildi. Dəstə deyildiyi kimi, evin arxasına yaxınlaşdı. Hasarı keçib, həyətə düşdülər. Talıb, Alı və Oruc evin arxasından bana çıxınadək, Mürsəl, İlkin və Karen evin giriş qapısının önündə, pusquda dayandılar. Mürsəl sağa çevrilib baxanda kənarda artıq öldürülmüş mühafizəçiləri gördü. Bir qədər narahat oldu. Nə də olmasa, 21 illik həyatında birinci dəfə idi ki, belə bir əməliyyatda iştirak edirdi. O, öldürülən atasının, 12 yaşlı qardaşının, əsir aparılan sevdiyi Nərgizin qisasını almaq üçün ağır və çətin əməliyyata çıxmışdı. Burdan geriyə sağ qayıtmaq ona mümkünsüz görünürdü. Təskinliyi o idi ki, canı bahasına olsa belə, bir neçə ermənini gəbərtməklə, azda olsa qisasını almış olacaq. Bu fikir, xəyal

içində var-gəl etdiyi məqamda evin birinci mərtəbəsinin qapısı açıldı. Qapı açılanda Mürsəl elə bildi ki, ermənilərdir, artıq dostlarını öldürüb, həyət-bacaya çıxıblar. Öz-özünə - Allahım, özün kömək ol, - deyə pıçıltı ilə söyləndi. Alı Məmmədovun əlinin işarəsi ilə pilləkənın önündə dayanan dostlarını çağırması Mürsəli sevindirdi. Yaxınlaşıb, onun boynunu qucaqlayıb öpdü - hamı salamatdır, - deyə sual etdi. Alı Məmmədov - narahat olma, kef məclisi səni gözləyir. Erməni fahişələri ixtiyarındadır, - deyə söz atdı. Mürsəl qımışdı. İçəri daxil olub, otağa nəzər yetirdi. Döşəmə, divan qan içində idi. Divanda 18 - 30 yaşlarında beş erməni qız əlləri bağlı oturmuş, çarpayıda isə yenicə güllə yarasından öldürülən iki gənc oğlanın və bir qızın qanı axırdı. Qarşı otaqdan Orucun səsi eşidildi,- Mürsəl bura gəlin.

Mürsəl səs eşidilən otağa keçəndə, burada da bir erməni əsgəri və mülki şəxs öldürülmüş, üç erməni əsgəri isə qolları bağlı halda yerdə uzadılmışdı. Qonşu otaqda uşaq səsi eşidən İlkin, Alıya - burada uşaqlar da var, - deyə sual etdi. Alı gülə-gülə - bu köpəklər qısır deyillər ki, əlbəttə, uşaqları da var, - deyə cavab verdi. Maraq üçün uşaq səsi gələn otağa keçəndə, İlkinin ürəyi döyünməyə, ayaqları, əlləri əsməyə başladı. Bu onun 20 yaşının tamam olmasına baxmayarq hələ də uşaqlıq dünyasından ayrılmadığını göstərirdi. Üç qız, iki oğlan divanda oturub, nə baş verdiyini müəyyənləşdirməyə

çalışırdılar. Nisbətən böyükləri yad adamları gördüklərindən qorxmuşdur. Bu onların içəri daxil olanlara baxarkən, başlarını aşağı əyib, gözlərini qıymalarından açıqca hiss olunurdu. Yaxşı ki, Alı və Oruc uşaqların ölüm səhnələrini, qan izlərini görməmələri üçün onları sakit, isti otağa aparmışdılar. İlkin Kareni çağırdı. Ona bu uşaqları sakitləşdirməyi, hər şeyin yaxşı olacağını başa salmağı tapşırdı. Karen başına qara yun corab keçirtmişdi. Yalnız gözləri və ağzı görünürdü. Bu da onun içəridəki ermənilərin onu tanımaması istəyi ilə bağlı idi. İlkinin sözlərinə təccübləndiyindən, dedi:

- Xəbərin varmı, bunların ataları, sizlərin beşikdəki körpələrinizə də aman verməyiblər?

İlkin başını aşağı salıb pıçıltı ilə söyləndi:

- Bilirəm.

- Elə isə siz niyə onların törəmələrinə aman verirsiniz?

- Çünki biz azərbaycanlıyıq, ermənilərdən fərqimiz olmalıdır axı.

Karen razılaşmadı:

- Yox, siz sadəlövhsünüz, tez bağışlayansınız.

Mürsəlin - İlkin, Oruc səni çağırır - deməsi, azərbaycanlı gənc ilə, erməni kişisinin söhbətini yarımçıq qoydu. Karen, uşaqlara tərəf addımlayıb, onların ağızlarını yapışqanla bağladı. Sonra nisbətən ətli, canlı təqribən 12 yaşlarında olan

erməni qızını özünə tərf çəkib, onu qucağına aldı. Bu qız Samvel Xaçaturyanın bacısı qızı idi...

Mürsəl ikinci mərtəbəyə çıxanda, gördüyü mənzərədən dəhşətə gəldi.

Dörd erməni kişisi öldürülüb, dördü isə əl-qolu bağlı halda yerə uzadılmışdı.

- Bu kimdir - deyə Mürsəl sual dolu nəzərlərlə Alıya baxdı.

- Kimləri deyirsən ?

- O çarpayıda uzanan arvadı və o divandakı kişini deyirəm.

- Hə, deyəsən onlar Samvelin atası və anasıdır.

- Atası, anası? - Mürsəl qaşlarını çatdı.

- Hə, atası, anası.

Mürsəl kinayəli nəzərlərlə divanda oturan 50-55 yaşlarında kişiyə yaxınlaşdı. Əlini uzadıb, - sən… - Mürsəl fikrini tamamlaya bilmədi. Erməni kişisi qəflətən üstünə örtdüyü yorğanın arasından çıxardığı tapançasını Mürsələ tuşlayıb, tətəyi çəkdi. Ancaq tələsdiyindən, tapançanı hazır vəziyyətə gətirə bilməmişdi. Bu səbəbdən tətiyi çəksə də, güllə açılmadı. Səhvini düzəltmək üçün, sağ əli ilə tapançanı hazır vəziyyətə gətirməyə çalışdı. Amma artıq gec idi. Cəld tərpənən Mürsəl onun tapançanı tutduğu sağ əlinə bir təpik vurdu. Eyni cəldliklə də, belindəki tapançasını çıxardıb, sinəsinə ardıcıl üç

dəfə atəş açdı. Kişi erməni dilində nəsə deyib, arxası üstə divara söykəndi və ağzından qan süzüldü. Alı tapancasını ermənіyə tuşlamaqla ehtiyatla Mürsələ yaxınlaşdı, - salamatçılıqdır – deyə onun vəziyyəti ilə maraqlandı. Deyəsən, Mürsəl bərk qorxmuşdu, rəngi saralmış, əlləri isə əsirdi. Alı narahat şəkildə - dığanın tapançası açılsaydı çox ciddi problemlə üzləşərdik - deyə bildirdi. Mürsəl dərindən nəfəs alıb, - hə, yaxşı qurtardıq, - deyə artıq ölmüş ermənіyə çəpəki baxa-baxa söyləndi. Alı əli ilə onun kürəyinə iki-üç dəfə vurub - öyrənəcəksən, nə yaşın var ki, - deyib güldü, Mürsəldə başını bulaya-bulaya güldü. Masanın üstündəki, qrafindən stəkana su süzüb, içdi. Daha sonra çarpayıda oturub, gözlərini döyə-döyə onlara baxan qadına yaxınlaşdı. Qadın deyəsən yatıbmış. Hay-küyə, səsə oya-nınca otaqda baş verənləri görüb, çaşıb qalmışdı. Mürsəl tapançanı sinəsinə dirəyəndə qadın yalvarış dolu nəzərlərlə ona baxıb, erməni dilində nə isə söyləndi. Mürsəl onu başa düşmədiyindən acıqlandı:

- İnsan dilində danış görüm, nə demək istəyirsən?

O yenə nə isə dedi.

Mürsəl heç nə başa düşmədiyindən qolları bağlanmış erməni kişilərindən soruşdu:

- Azərbaycan dilində biləniniz var?

Üz-gözü yumruq-təpikdən parçalanmış dolu bədənli, saqqallı bir kişi - mən bilirəm - deyə mızıltılı səslə dilləndi.

- Yaxın gəl.

Dolu bədənli kişi yazıq nəzərlərlə ona baxıb, əl-ayağı bağlı olduğundan gələ bilmədiyinə işarə vurdu.

Mürsəl onun yaxasından tutub sürüyə-sürüyə hələ də çarpayıda donmuş vəziyyətdə dayanan qadının qarşısında saxlayıb dedi:

- Bu qadına başa sal ki, Samvel kimi qaniçəni niyə dünyaya gətirib? Xəbəri varmı ki, oğlu Azərbaycanın kəndlərinə hücum edib, yaşlı qadınları, qoca kişiləri, hamilə analarını öldürür, uşaqları şikəst edir, qolunu-qıçını sındırır, yandırır.

Qadın gözlərini döyə-döyə başının üstünü kəsdirib, qəzəblə ona baxan Mürsəli süzdü.

- Soruş, soruş - deyə Mürsəl şişman ermən-inin böyrünə bir təpik vurdu.

Dolu bədənli kişi Mürsəlin dediklərini erməni dilində qadına tərcümə etdi. Qadın bir xeyli danışdıqdan sonra Mürsəl tərcüməçi ermənin kürəyinə bir yumruq vurdu:

- Bunu başa sal ki, sussun. Görüm nə deyir.

Dolu bədənli kişi qadına nə isə dedi və onun susması ilə fikirlərini tərcümə etdi:

- Qadın deyir ki, Samvel adam öldürə bilməz. Mən onu elə tərbiyə etməmişəm. Azərbaycanlılarla da mənim düşmənçiliyim yoxdur.

Mürsəl yerə tüpürdü. Sonra da ehtiyat üçün yerdən ip götürüb, qadının əlini bağladı. Qışqırmaması üçün onun ağzını yaylıqla bağlamağı da unutmadı. Dəstənin köməkliyi ilə dörd erməni kişisini də, sürüyə-sürüyə ikinci mərtəbədən birinci mərtəbəyə endirdilər. Birinci mərtəbədə sanki məhkəmə qurulmuşdu. Oruc Muradov əsgərləri döyür, onlardan nə isə məlumat əldə etməyə çalışırdı. Karen isə fürsətdən istifadə edib, zorlamaq üçün daha bir qadını sürüyüb, o biri otağa aparırdı. Bu qadın Samvel Xaçaturyanın arvadı, Daşnakstyün partiyasının Dağlq Qarabağ nümayəndəliyinin rəhbəri Mişkin Qriqoryanın qızı idi. Orucgil Karenin Samvelin evində sərbəstlik göstərməsinə mane olmurdular, bir növ onun qadınları zorlamasına, pul-paranı götürməsinə göz yumurdular. Nə də olmasa Karen onlara çox kömək etmişdi. Həm də Oruc düşünürdü ki, gələcəkdə Karen onlara kəşfiyyat məlumatları ötürməkdə xüsusi agent funksiyasını yerinə yetirə bilər. Bu səbəbdən də "saxla samanı, gələr zamanı" prinsipinə uyğun olaraq Orucun işarəsi ilə Alı Karenin evdə meydan sulamasını gizli şəkildə, kamera ilə lentin yaddaşına köçürürdü. Az sonra Karen zorladığı həmin qadını saçından tutaraq sürüyə-sürüyə, otağa gətirdi. Paltarı cırılmış qadın, dizləri üstündə, iməkləyib, sıra ilə, divara söykənən qadınlara sıxıldı. Karenin səsi eşidildi:

- Ləçər haradadır? Samvelin anasını deyirəm?

Alı Məmmədov:

-Yuxarıda, ikinci mərtəbədədir. Mürsəl ərini cəhənnəmə vasil etdiyindən, indi bayquş kimi tək qalıb, gözlərini döyür.

Karen - hə, bu ləçəri də ərinin yanına göndərmək lazımdır, - deyə ikinci mərtəbəyə çıxmaq üçün addımladı. Gedərkən mətbəxə keçib, oradan bir bıçaqda götürdü. Az sonra əliqanlı ikinci mərtəbədən aşağı endi. O Samvelin anasını öldürmüşdü. Belə vəziyyət uzun çəkə bilməzdi. Kimsə, gələ bilərdi. Bunu dərk edən Oruc üzünü Alı Məmmədov tutub, dedi:

- Tələsmək lazımdır, yır-yığış edib, çıxaq.

Talıb isə heç tələsənə oxşamırdı. O sakit, laqeyd şəkildə, stulda oturub, xəyala dalmışdı. Samvelin evinə basqın etmiş, onun ailəsini, yaxınlarının bəzisini öldürmüş, bəzilərini də nəzarət altına almışdı. Sanki üzərində olan ağır yükün bir hissəsi götürülmüşdü. Qalırdı, anasını və qardaşını girovluqdan azad etmək. Əzizlərinin azad edilməsi üçün bu şəxslərin də özü ilə aparılması və sonradan dəyişdirilməsi vacib idi. Mürsəl də sakit idi. O da öldürülən anasının, qardaşının, atasının, girov götürülən nişanlısı Nərgizin sanki qisasını almışdı.

Orucun - beş qadın, üç əsgər, dörd kişi və beş uşaq, bunları necə aparaq? - sualına cavab çox çəkmədi. Karen bu dəfə də köməyə çatdı:

- Evin yan tərəfində üstü bağlı Qaz-66 var. Bunları maşının kuzovuna mindirib Qara qayaya qədər gedə bilərsiniz.

Karen xəbərdarlıq etməyi də unutmadı:

- Oradan yolla Ağdama getmək təhlükəlidir.

- Düz deyirsən - Talıb bu dəfə erməni ilə razılaşdı.

Oruc Muradov dəqiqləşdirmək üçün dedi:

- Bəs qapının ağzındakı mühafizəçini nə edək?

Samvel kimi qan düşmənindən qisas almasından sevincək olan Karen – bu, heç də problem deyil - deyə bildi. Sonra da əlavə etdi:

- İndi Mürsəllə mən gedib mühafizəçini içəri dəvət edərik. Və həyətdə onun axırına çıxarıq.

- Yaxşı, - deyə Oruc Muradov məsləhətə etiraz etmədi. Ancaq - ehtiyatlı olun - deməyi də, unutmadı. Sonra da nəzarət altına aldıqları ermənilərə göstəriş verdi:

- Hazırlaşın gedirik.

Ermənilər gözlərini döyə-döyə ona baxdılar. Bu dəfə də bayaqkı tərcüməçi, dolu bədənli erməni göstərişi qorxaq baxışlarla gözlərini Oruca zilləyən ermənilərə tərcümə etdi. Dərhal çətinliklə də olsa ayağa durub, geyinməyə, özlərinə pal-paltar götürməyə başladılar. Bu məqamda üç erməni əsgərindən biri, əl-qol atmağa, dəstəyə etiraz etməyə cəhd göstərdi. Bu Samvel Xaçaturyanın yaxın dostu və ailəsinin mühafizəsinin başçısı idi.

Sual-cavabdan sonra onun Xoren Balayan olduğu məlum oldu. İddiasını və təkəbbürünü hələ də nümayiş etdirirdi. Bu da Xorenin həddən artıq içki qəbul etməsindən irəli gəlirdi. Yəni onu kişiləşdirən, əl-qol atmağa məcbur edən içkinin təsiri idi. Sərxoş olması, hələ də baş verənləri tam şəkildə dərk etməsinə imkan vermirdi. İlkin onu yola gətirmək, özünə tabe etdirmək fikrində deyildi. Dostlarının nə qərar verəcəyini gözləmədən, onu ayağa qaldırdı. Tapançasını ürəyinə tuşlayıb, iki dəfə atəş açdı. Ayaq üstə olan erməni taxta parçası kimi arxası üstə yerə dəydi.

Qadınların ağızları bağlı olsa da inildəyir, baş verənləri göz yaşları ilə izləyirdilər. Mürsəl onlara tapançasını tuşlayıb, - sakit olun, - əmrini verdi. Elə bil, qurbağa gölünə daş atdılar. Ermənilər susdular.

İlkin dilləndi:

- Biz quldur deyilik, biz insan cəlladı da deyilik. Sadəcə bilin ki, qisasa qisasla cavab veririk. Bir qədər əvvəl Samvel Xaçaturyan mənim ailəmi dağıdıb, kəndimi, elimi-obamı viran qoyub. Neçə-neçə qız-gəlini əsir aparıb.

Talıb da əsəbi formada bu evə basqın etmələrinin səbəbini onlara başa salmağa çalışdı:

- Samvel elimizə, obamıza basqın edib, ailələri məhv edib. Anaları gözü yaşlı, ataları gorsuz, kəfənsiz edib. Mənim atamı, bacımı öldürüb, qardaşımla, anamı isə girov aparıb.

Nişanlımı və onun ailə üzvlərini qətlə yetirib. Ona görə də biz bu gün burdayıq. Sabah və ya birisi gün sizləri girov götürülən yaxınlarımızla dəyişəcəyik.

Alı Məmmədovun isə xəbərdarlığı eşidildi:

- Özünüzü sakit aparsanız, kiməsə xətər dəyməyəcək. Əmrlərimizə riayət etməyənlərə güzəşt olunmayacaq, necə ki, Xorenin əl-qol atmasını ona bağışlamadıq. Fikrini tamamladıqdan sonra bayaqdan tərcüməçilik edən ermənіyə təpindi - mənim dediklərimi də bu ermənilərə tərcümə elə, - deyə bildirdi. Üz-gözündən qorxaqlıq və iradəsizlik açıqca sezilən bu erməni Alının dediklərini dərhal yerinə yetirdi.

Geyim-keçimdən sonra Talıb İlkinə tapşırıq verdi:

- Ətrafa nəzər yetir. İkinci və birinci mərtəbənin hər tərəfinə neft tök. Necə ki, o bizim evləri yandırıb, bizdə onun evini yandıraq.

İlkin birinci mərtəbənin girəcəyində neft dolu çəni görmüşdü. Dərhal iti addımlarla irəliləyib, onu götürdü. İkinci mərtəbəyə çıxdı. Aşağı enib, bir-bir otaqlara neft səpdi. Zirzəmiyə neft səpmək üçün taxtadan düzəldilmiş qapını qaldırıb aşağı boylandı. Nefti ora səpəndə səs eşitdi, təəccübləndi. Üzünü Talıba tutub dedi:

- Burda kimsə var. Aşağıdan səs gəlir.

Karen də təəccübləndi, narahat və təşvişlə bayaqkı dolu bədənli ermənyə baxdı. Həmin erməni Talıba - aşağıda sizlərdən üç nəfər var- deyincə, Mürsəl dayandı.

- Necə?

Oruc Muradov oturduğu divandan ayağa durub, birinci mərtəbənin döşəməsindən aşağı enmək üçün qoyulan qapıya yaxınlaşdı, başını aşağı salıb, - burada azərbaycanlı varmı, varsa gəlin bəri, - deyə haray çəkdi. İki-üç dəqiqə sonra üç Azərbaycan əsgəri qorxaq baxışlarla, həmin qapının yanında göründülər. Oruc Muradov əl verib, onları bir-bir yuxarı qaldırdı. Ayaqyalın, nazik paltarda olan bu əsgərlər ermənilər tərəfindən əsir götürülənlər idi. Talıb və digər dəstə üzvləri əsirlərlə görüşüb onlara ürək-dirək verdilər, azad olunduqlarını bildirdilər. Hələdə təəccüb içində olan azərbaycanlı əsgərlər çaşqın halda nə baş verdiyini aydınlaş-dırmağa çalışırdılar.Talıb onları intizardan qurtarmaq üçün dedi:

- Qardaşlar biz bura Samvelin axırına çıxmaq üçün gəlmişik.Yaxşı ki, biz zirzəminin qapısını açıb, aşağıya nəzər yetirdik. Yoxsa, siz də burada qalıb məhv olardınız.

Əsirlərdən arıq, saqqallı, qıvrım saçlı 26-27 yaşı olan gənc nəhayət dilləndi:

- Bu cəhənnəmdən qurtula biləcəyimizi heç düşünmürdüm.

- Sizin adınız nədir? - Oruc Muradov onlara sual etdi:

Danışan gənc:

- Mənim adım Arifdir Qusar rayonundanam.

23-24 yaşlarında olan qarayanız gənc:

- Adım Salehdir İmişlidənəm.

Balaca boy, nisbətən kök gənc isə - mənim adım Qiyasdır Gəncədənəm.

Oruc Muradov - yaxşı keçin mətbəxə yeyin, için qarnınızı bərkidin, yola çıxırıq - deyincə Azərbaycan əsgərləri mətbəxə keçdilər. Bu müddətdə isə Mürsəl ilə Karen evin önündə qarovul çəkən mühafizəçini həyətə çağırıb, zərərsizləş-dirmişdilər. Nəzarət altına alınan ermənilər maşının kuzovuna mindirilmişdi. Azərbaycan əsgərləri olan Arif, Saleh və Qiyas da qarınlarını bərkidib, ayaqlarına isti corab, ayaqqabı, yun jaket və dəri gödəkcə geyinib, başlarına da papaq qoymuşdular, sevinirdilər. Onlar evdəki silah-sursatdan da götürüb, maşına mindilər. Həyətdən çıxanda artıq evin birinci mərtəbəsinin zirzəmisindən başlayan alov tədricən Samvel Xaçaturyanın mülkünü ağuşuna almaqda idi.

Maşın çətinliklə də olsa qarı yara-yara təpələri keçib, Qara qayanın yanına çatanda dayandı. Artıq burdan o yana maşınla getmək mümkün deyildi. Talıbın göstərişi ilə erməni girovlar maşından düşdülər. Havanın soyuğu ilə yanaşı qorxu erməni girovlarını mənən və ruhən məhv etmişdi. Onlar

ayaqüstə titrəyirdilər. Buna əhəmiyyət verməyən Talıb nisbətən balaca, qarda yeriməyə çətinlik çəkən bir oğlan və bir qız uşağının erməni kişilərinin belinə mindirilməsi göstərişini verdi. Bayaq əsirlikdən azad edilən əsgərlərin köməkliyi ilə 5-6 yaşlı oğlanı uzun, saqqallı erməninin, 3-4 yaşlı qızı isə atasının belinə mindirib, yun yaylıqla bağladılar. Samvelin balaca qızını isə anasının kürəyinə sarıdılar. Talıb tərcüməçi vasitəsi ilə yenidən girovlara xəbərdarlıq etdi:

- Azərbaycan tərəfinə gedəcəyik, özü də piyada. Kim yolunu azsa, cızığından çıxsa, öldürüləcək.

Xudahafizləşmək məqamında Karen Talıbı və Orucu bir tərəfə çəkib, onlarla ayaq üstü söhbət etdi. Onun gözləri gülürdü. Çünki Samveldən qisasını almışdı. Özüdə azərbaycanlıların gücü, qüdrəti hesabına. Bu baxımdan o təşəkkürünü dilə gətirir, köməyə, dəstəyə görə minnətdarlıq edirdi. Hər zaman Azərbaycana xidmət etməyə hazır olduğunu və onu görmək istəsələr Gürcüstanın Cavaxetiya rayonuna gəlmələrini bildirdi. Orada yaşayan bacısının ünvanını və öz evinin telefon nömrəsini də kağıza yazaraq Talıba verdi. Qısa söhbətdən sonra Karen azərbaycanlı dəstəyə yaxınlaşıb, onlarla da bir-bir əl uzadıb, görüşdü. Gedərkən Talıba - hər zaman sizlərə kömək etməyə çalışacağam, mənə inana və güvənə bilərsiniz - deməyi də unutmadı. Mürsəl isə yerə tüpürüb - şərəfsiz, öz marağı xatirinə sıramıza qoşuldu. Başqa vaxt olsa idi, bizi

məhv edərdi, - deyə artıq onlardan aralanıb, qar-çovğunda gözdən itməkdə olan Karenin arxasınca baxdı…

Oruc maşının qayadan aşağı buraxılması barədə göstəriş verdi. Dəstə köməkləşib Orucun dediyi kimi də maşını dərədən aşağı buraxdı. Maşın sürətlə aşağı gedib, dərəyə düşdü. Yol ağır, üzücü olsada, dəstə səhərə yaxın Ballıca qayasına çatdı. Artıq səkkiz-doqquz kilometr yol arxada qalmışdı. Təqribən bir -iki kilometr sonra cəbhənin neytral ərazisində olacaqdılar. Oradan Sarıcallı kəndinin ərazisi başlayır. Deməli, qarşıya qoyduğumuz məqsədin əsas hissəsi yerinə yetirilmişdir, - deyə Talıb düşündü. Qar isə yağmaqda davam edirdi. Çovğunun sürətlə sovrulan qarı üzlərinə-gözlərinə vurması, dəstənin irəliləməsinə çətinliklər yaradırdı. Talıb bəlkə yüzüncü dəfə çevrilib, Erkiş istiqamətinə baxdı. Sakitlikdi, heç nə gözə dəymirdi. Öz-özünə - görən Samvel artıq ailəsinin faciəsindən xəbər tutubmu, bilirmi ki, Talıb qisasını almaq üçün evinə basqın edib? – deyə fikirləşdi. Ürəyindən keçirdi ki, kaş Samvellə üz-üzə gəlib, onun indi hansı vəziyyətdə olduğunu görəydi. Baxaydı ki, acı xəbəri eşidincə Samvelin beli necə bükülür. Ailənin son yadigarı olan bir yaşlı qızı Katrinanın azad edilməsi üçün diz çöküb, ona və dostlarına yalvarır. Talıbda anasının, qardaşının və bütün əsir alınan sırxavəndlilərin azad edilməsi, eləcə də, yurdlarında qalan atasının, bacısının və əmisinin canazələrinin gətirilməsini tələb

edəydi... Onu bu xəyaldan İlkinin acıqlı səsi ayıltdı. İlkinin bığ yeri təzəcə tərləmişdi, simasına, qara gözlərinə diqqətlə baxanda deməzdin ki, bu adam qəddar və amansız gəncdir. Onun tay-tuşu hazırda sakit, təhlükəsiz bir yerdə gənlik çağlarını yaşayır, o isə, ermənidən qisas almaq üçün müharibədədir. Adam öldürür, həm də qəddarlıqla, Ona "dur" deməsən, burdakı erməni komandirinin ailə üzvlərinin hamısını öldürərdi. İlkin deyəsən Talıbın ona diqqət etdiyin sezmişdi. Ona görə də təpiklədiyi muzdlu erməni əsgərinin belinə bir təpikdə vurub, Talıba baxdı:

- Əmioğlu, deyəsən, məndən narazısan?

Talıb yaxınlaşıb İlkinin sağ çiyninə əlini qoydu, mehribanlıqla dedi:

- İlkin sən adam öldürə bilməzsən. Qəddarlıqda sənlik deyil.

- Bunlar adam deyillər, itdirlər, küçükdürlər əmioğlu - deyib, arxada asta addımlarla yeriyən Vardana bir təpik vurdu. Bununla ürəyi soyumadığından, Vardanın keçəl başına bir şillə də, ilişdirdi. Zərbənin təsirindən, səntirləyən Vardan yıxılmamaq üçün bir anlıq dayanıb, sonra yolunu davam etdi. İlkin yenidən, ona bir təpikdə vurmaq istəyəndə, Talıb mane oldu.

- Bizə onlar ölü deyil, diri lazımdır.

- Başa düşürəm, amma erməni əsgərlərinin yaxınlarımıza etdikləri vəhşiliklər gözlərim qarşısında canlananda özümə nəzarət edə bilmirəm.

Talıb, - çalış bir az səbirli ol, İlkin - deyib, üzünü dəstəyə tutub, tapşırıq verdi:

- Təhlükəsiz bir yerdə daldalanıb gecəni gözləməliyik.

Əsirlikdən azad olunan Asif, Saleh və Qiyas isə sanki, evlərinə, ailələrinə qovuşmaq üçün tələsdiklərindən bu yerlərdən uzaqlaşmağa çalışdırdılar. Ona görə də təklif etdilər.

- Qardaşlar, burda qalmaq qorxulu olar, artıq ermənilər nə baş verdiyini dərk ediblər. Arxamızca gəlib, maşını tapacaqlar, izimizə düşüb, bizi yaxalaya bilərlər. Oruc Muradov əsirlikdən azad olunanların narahatçılığını başa düşdüyündən onlara təskinlik verməyə çalışdı.

- Qardaş, izimizə düşə bilməzlər, çünki yeridikcə qarın sovrulması, çovğunun güclü olması izlərimizi silir.Ona görə də onlar bizi tapa bilməzlər.

Mürsəl də Talıbın fikri ilə razılaşdı:

- Hə, yerimək çətindir. Şaxta iliyimizə işləyir, bir az dincəlmək və yer tapıb, ocaq qalayıb, isinmək lazımdır. Bu müddətdə qaranlıqda düşər.

Arif, Saleh və Qiyas onları ilanın ağzından xilas etmiş dəstənin tapşırığı, sözləri ilə razılaşmaqdan başqa çarə

görmədilər. Ona görə də - necə məsləhətdir, elə də olsun, - deyə bildirdilər.

- Ancaq harada daldalanaq? - deyə Mürsəl arxasını küləyə tərəf çevirib, əllərini ovuşdura-ovuşdura Talıba sual verdi:

Talıb, tövrünü pozmadan - bir yer taparıq - deyə, dəstəyə ümid verdi.

Alı Məmmədov da dostunun fikri ilə razılaşmalı oldu:

- Hə, düz deyir Oruc, bu qar, çovğun və gecənin şaxtası, bu zibillər cəhənnəmə bizi dondura bilər.

Alı fikrini deyib, əlini qar topasında ilişib qalan, Samvelin arvadı Mane Xaçaturyana uzatdı, ona düz yerə çıxmasına kömək etdi. Sonrada qadının kürəyinə bağladığı körpənin üzünə qar tökülməməsi üçün başına bükdüyü yun jaketi bir az da onun üzünə sıxdı.

Dəstə yavaş addımlarla da olsa, Azərbaycan tərəfinə doğru irəliləyirdi. Yol boyu, dəstə ciddi problemlə qarşılaşmamışdı. Ermənilər cərgədən geri qalmır, çətinliklə də olsa, qarı yarıb, irəliləməyə çalışırdılar. Başa düşürdülər ki, ermənilərə qarşı qəzəbli və hiddətli olan silahlı azərbaycanlılar geri qalacaqları təqdirdə bu ucsuz-bucaqsız, kimsəsiz yerdə onları öldürə bilərlər.

Bu məqamda Oruc Muradov Talıba üzünü tutub, kəsik-kəsik sözlərlə dedi:

- Talıb daldalanmaq üçün bir yer aramaq lazımdır.

Talıb qulağına çatan sözə cavab vermək üçün üzünü ona tərəf tutub - bu ucsuz-bucaqsız yerdə inanmıram ki, daldalanmaq üçün bir yer tapa bilək - dedi.

İlkin də Talıbın ümidsiz formada dediyi sözlərinə sanki dəstək oldu:

- Hə qardaş, çətin ki, buralarda qardan, çovğundan daldalanmaq üçün yer olsun. Qışın bu şaxtasında donub, öləcəyik.

Bu zaman artıq acı taleyi ilə barışmalı olan, tərcüməçi erməni üzünü Oruc Muradova tutub, söz demək üçün onun gözlərinin içinə baxdı. Oruc erməninin ona diqqətlə baxdığını görüb, acıqlı səslə dedi:

- Nə demək istəyirsən, sözün var?

Erməni Orucun qəzəbli, hiddətli sözündən qorxsada, özünü o yerə qoymadı. Ona yaxınlaşıb, uca səslə dedi:

- Bu təpənin aşağı hissəsində bir mağara var. Burdan təqribən 100-150 metr məsafə olar. Ora daldalanmaq üçün məsləhətli yerdir.

Oruc Muradov onun çiynindən itələyib, - yeri-yeri harada daladalanmaq lazım olduğunu biz bilərik - deyib, ona acıqlandı. Əsəbi səslə də - sən o qadınlara kömək elə, - deyə tapşırıq verdi. Tərcüməçilik edən erməni qorxusundan başını aşağı salıb, çətinliklə addımlayan Samvelin bacısı Bellanın

qolundan tutub, irəliləməsinə kömək etdi. Ancaq təklif Oruc Muradovu tutmuşdu. Cərgənin yanı ilə irəliləyən Talıba yaxınlaşıb, tərcüməçi erməni Movsesin təklifini ona bildirdi. Talıb Oruca baxmadan - yaxşı olardı, gəl ora gedək - deyib, əlavə etdi:

- Fikir verirəm erməni uşaqları ölüm ayağındadırlar. Bizə isə onların ölməsi deyil, yaşaması lazımdır. Çünki bizim ailənin, eləcə də kənd camaatının əsirlikdən xilas olması onlar vasitəsilə baş tuta bilər.

Oruc Muradov:

- Hə, düz deyirsən. İstəməsək də, onları qorumalıyıq.

Bundan sonra Oruc Movsesi acıqla yanına çağırdı. Görkəmindən və davranışından iradəsiz və qorxaq birisi olan Movses Bellanın əlini buraxıb, iti addımlarla qarı yara-yara Oruc Muradova yaxınlaşdı. Müti görkəm alıb, sakit səslə - nə lazımdır? - deyə, müraciət etdi.

Oruc Muradov ona ikrah dolu nəzərlərlə baxıb, yeriyə - yeriyə dedi:

- O nişan verdiyin mağara təhlükəli deyil ki? Birdən hansısa erməni köpəyi bizim yerimizi müəyyənləşdirə bilər, ha, nəsə hiss etsəm, həmin an səni məhv edərəm.

Soyuqdan titrəyən Movses Orucu razı salmaq üçün əmin səslə dedi:

- Mən bu yerlərin bir zaman kənd icra nümayəndəsi olmuşam. Hə bir cığırı və yamacı, dağ-dərəni, mağaraları çox yaxşı tanıyıram. Deyə bilərəm ki, qalacağımız mağarada heç kim bizi tapa bilməz.

Oruc Muradov – yaxşı, bizə o yeri göstər - deyib, artıq önə keçən Movsesin arxasınca addımladı.

İlkin sıranın səmtinin dəyişdiyini görüb, təəccüblə Talıba üzünü tutub, dedi:

- Əmioğlu biz niyə yolumuzu dəyişdik?

Talıb İlkinin narahatlığını görüb onu sakitləşdirmək üçün dedi:

-Burada yaxınlıqda mağara var. Gecənin qaranlığı düşənə qədər, orada qalacağıq.

İlkin narazılıq etdi:

-Bu təhlükəlidir. Yəqin ki, artıq Samvel və onun dəstəsi axtarışa çıxıblar. Yaxşı olardı ki, vaxt itirmədən, yolumuza davam edək.

Talıb etiraz etdi:

- İlkin, başa düş, yerimək mümkün deyil. Qar, çovğun bu bədbəxtlərin axırına çıxacaq.

İlkin ikrah dolu nəzərlərlə ermənilərə baxıb, üzünü əmisi oğluna tutdu:

- Cəhənnəmə ölsünlər, qara da gora.

- Yox, İlkin, səhvin var, onda bizim bu qədər yolu dəf edib, həyatımızı riskə atmağımız nəyə lazım idi ki?

-Axı, dayanmaq vaxt itkisidir.

- Narahat olma. Mağarada tonqal yandırıb, qızınacağıq, bir qədər dincəldikdən sonra, yolumuza davam edəcəyik.

Bundan sonra dinmədilər. Dəstə Movsesin nişan verdiyi mağaraya doğru addımladı. Təpənin sağ hissəsinə çatanda Movses - məncə, buradır,-deyə yenidən Oruc Muradova üzünü tutdu.

Oruc Muradov Movsesə bir təpik vurub, qəzəblə onun üstünə qışqırdı:

- Səncə, buradır, yoxsa həqiqətən də buradır?

- Movses bir daha ətrafa diqqətlə nəzər yetirib, əminliklə - hə, buradır, - deyə israr etdi. Doğrudan da 15-20 metr irəlilədikdən sonra kol-kosun arasından balaca bir deşik diqqəti cəlb etdi. İlkin iri addımlarla irəliləyib, həmin o deşiyin ağzına yığılmış qar lopalarını təmizlədi. Fənərinin işığını içəri tuşlayıb, sağa-sola nəzər yetirdi. Geri çevrilib, Oruc Muradova - hə çox yaxşı yerdir, burada 2-3 saatlıq dincəlmək olar, - deyə söylədi. Bundan sonra erməni girovlar içəri daxil olub, göstərişə əsasən qadın və uşaqlar bir səmtdə, kişilər isə başqa bir səmtdə yerə oturub, həyatlarının necə olacaqlarını gözləməyə başladılar.

Mürsəl və İlkin əl -ayağa düşdülər. Heç olmasa bir odun parçası tapmaq və ocaq qalamaq ümidi ilə fənərin işığında mağaranın ucqarlarına boylandılar. Movses yenə köməyə çatdı:

- Mağaranın yuxarı hissəsində daş var, o daşın yanında ağac parçaları olmalıdır.

Oruc Muradov təəccüblə, ona sual etdi:

- Hardan bilirsən ki, orada odun var?

- Çünki iki il öncə biz bura ova gələndə, özümüzlə ağac, taxta parçaları gətirmişdik. Niyyətimiz ovladığımız ovdan burada özümüzə yemək bişirmək idi. Ov olmadığından taxtalar da lazım olmadı.

Oruc Muradov Movsesin dediklərini yoxlamaq üçün özü nişan verilən yerə doğru addımladı. Burada həqiqətən də taxta və ağaclar var idi. İlkini səslədi:

- Qardaş gəl, kömək elə bunları aparaq.

İlkin tez-tələsik Orucun dediyi yerə yaxınlaşdı. Onlar birlikdə ağacları və taxta parçalarını götürüb, yenidən mağaranın içinə qayıtdılar. Odun parçalarını bir yerə yığdıqdan sonra yandırmaq məqamında Alı Məmmədov etiraz etdi:

-Mağaranın ağzın örtmək lazımdır, çünki bizi artıq izləyirlərsə buranın işıqlı olduğunu görüb, üstümüzə hücum çəkərlər.

Oruc Muradov da razılaşdı. Təklifə əsasən erməni kişilərinin əyinlərindəki, paltoları çıxarıb, mağaranın girişini bağladılar. Daha sonra çətinliklə də olsa ocağı yandırdılar.

Alı Məmmədov soyuqdan titrəyən uşaqlara, daha sonra qadınlara ocağa yaxın gəlmələrini tapşırdı. Erməni qadınları və uşaqları qorxa-qorxa göstərişə əməl edib, yanan ocağın ətrafına toplaşdılar. Bir an sonra Oruc Muradov erməni kişilərini də ocaq başına dəvət etdi. Dörd mülki və iki əsgərdən ibarət olan erməni kişiləri ocağın başına toplaşdıqdan sonra bağlı əllərini yanan ocağın üstünə tutub, qızınmağa çalışdılar. Təqribən 17-18 yaşında olan Lola sağına-soluna boylandı, sonrada ağzını anası Bellanın qulağına söykəyib nə isə dedi. Bu, Talıbın gözündən yayınmadı.

Sərt səslə Movsesə pıçıltı ilə danışan qadınların nə demək istədiklərini öyrənməyi tapşırdı. Mövses erməni dilində qadınla danışdıqdan sonra Oruca üzünü tutub, - Lola tualetə getmək istəyir, - deyə bildirdi.

Oruc Muradov Lolaya kömək etməsi üçün Mürsələ ərkyana göstəriş verdi. Mürsəl tapşırığı yerinə yetirmək üçün oturduğu yerdən ayağa durdu, ilk öncə əlavə problem yaşanmaması üçün Lolanın belinə təqribən 8-10 metr uzunluğu olan ip bağladı. Sonra ona qabağına düşüb mağaranın uzaq küncündəki daşın arxasına doğru addımlamaq göstərişini verdi. Dolu bədənli, ağ simalı girdəsifət Lola addımladıqca

Mürsəl iştahalı nəzərlərlə arxadan onu süzdü. Ürəyindən namusuna əl uzatmış Samvelden və onun qaniçən əsgərlərindən qisas almaq keçdi. Bir anlıq fikirləşdi.- Lola ilə münasibətdə olsunmı? Ürəyində verdiyi suala özü də tez cavab verdi. - Yox, olmaz.Talıb və dostları onun hərəkətini qınayarlar, hətta danlayarlar da. Lola daşın arxasına keçib, yerə oturduqdan bir qədər sonra ayağa durub, ucaboylu, gözəl simalı, Mürsələ yaxınlaşdı. Əsil erməni qadınısayağı şirindillə onun qılığına girməyə çalışdı. Mürsəl etiraz etsə də, qız əl çəkmədi, onu öpüşlərə qərq etdi. Şalvarının qabağını açıb, münasibətdə olmaq istədiyini bildirəndə Mürsəlin əzalarına ilıq bir hərarət yayıldı. Birinci dəfə idi ki, o qadın nəfəsi, qadın istiliyi duyurdu. Özündən asılı olmadan, Lolanın tələblərinə tabe oldu. Onu qucaqladı, yerə uzatdı. İşini bitirib, ayağa duranda başının üstündə, İlkini gördü, utandı. Tez şalvarını geyinib, Lolaya ayağa qalxmaq göstərişini verdi. İlkin gülə-gülə əlini Mürsəlin çiyninə vurub,- ayə, küncə çəkilib, xımır - xımır erməni fahişəsini əlləşdirirsən, - deyib, onun nə cavab verəcəyini gözləmədən Lolaya yaxınlaşdı, ona bir şillə vurdu. Qız nə baş verdiyini analmadığından, çaşqın nəzərlərlə, İkinə baxdı. İlkin - rədd ol qancıq-deyib, qızı əsəbi şəkildə itələdi...

Lola öndə, arxada isə İlkin və Mürsəl daşın arxasından çıxıb, ocaq ətrafında oturan dostlarına yaxınlaşanda, hamı çevrilib onlara baxdı. Bella Lolaya əli ilə yanında oturmaq

işarəsi verdi. Lola anasının yanında oturub, baş yaylığını düzəltdi. Sonrada, heç nə olmamış kimi, qızınmaq üçün əllərini yanan ocağın alovlarına tərəf uzatdı. Az sonra Petrosun arvadı Arşalos da tualetə getmək istəyini işarə ilə tərcüməçi Movsesə bildirdi. Oruc Muradov razılığını bildirincə, erməni qadınları ayağa durdular, Petros və Movsesdə tələbatlarını ödəmək üçün onların arxasınca addımladılar. Su başına çıxanlar geri qayıdıb, ocağın ətrafında oturunca, Oruc Alı və Talıba erməni qadınlarından bəhrələnmələrini məsləhət gördü. Talıb istəmədiyini söylədi. Soyuqqanlı şəkildə, gözləri qarşısında qətlə yetirilmiş nişanlısından sonra heç bir qadınla münasibət qurmayacağını, ona xəyanət etməyəcəyini bildirdi. Oruca da "bu bizə yaraşmaz, əxlaqımıza və aldığımız tərbiyəyə ziddir" deməklə onu da fikrindən daşındırmağa çalışdı.

Bu kimi məsələlərdə bir qədər təcrübəsiz olan Oruc israr etdi:

- Bilirsənmi, erməni kişiləri əsir aldıqları azərbaycanlı qadınlara qarşı necə vəhşiliklər ediblər, qəddarlıqlar törədiblər. Onlar 6-7 yaşlı qız uşaqlarını valideynlərinin gözü qarşısında zorlayıblar. Hamilə qadınları zorladıqdan sonra qarınlarını süngü ilə yarıb, qətlə yetiriblər…

Talıb danışdıqca daha da əsəbi görkəm alan Orucu sakitləşdirmək üçün dedi:

- Qardaşım, bizim zəngin, qürürverici tariximiz var. Ermənilər axı kimdir? Bu yerlərə gəlmə, soy kökü bilinməyən toplum. Onlardan nə yaramazlıq desən çıxar.

Alı da Talıbın sözlərinə dəstək üçün dedi:

- Talıb düz deyir, biz hisslərimizin qurbanı olub, adımızı ləkələyə bilmərik.

Oruc Muradov fikrindən geri çəkilmək istəmədi:

- Axı özləri yaxınlıq etmək, münasibət qurmaq istəyirlər.

Talıb:

- Bu başqa məsələ, zorla isə olmaz.

Alı:

- Fahişəlik erməni qadınlarının qanındadır. Amma burada, biz onların xidmətlərindən istifadə edə bilmərik.

Deyəsən, Oruc məsləhətdən nəticə çıxarmışdı. Ona görə də, sakit səslə dedi:

- Hə, düz deyirsiniz, bu tarakanlarla vaxt itirməyə dəyməz.

- Biz kişiyik, kişi kimi də hərəkət etməliyik - deyən Alı ayağa durdu. Mağaranın küncünə qoyulmuş çantalarına yaxınlaşıb, ağzını açdı, İlkinə səsləndi:

- Süfrə açın yemək yeyəyin.

Tapşırığı eşidən İlkin və Mürsəl əl-ayağa düşdülər. Süfrə açıb, oraya konservləri, kartof və toyuq soyutmalarını düzdülər. Erməni girovlarına da yemək ayırıb, onları süfrəyə

dəvət etdilər. Girovlar süfrə arxasında toplaşıb, toyuq soyutmasından yeyib, sudan içdilər. Balaca uşaqlar isə yemək istəmirdilər. Xüsusi ilə də, Karenin zorladığı 12 yaşlı qız dəli kimi sağa-sola boylanıb, anası Arşalosun və atası Petrosun çörək yemək tələblərini qətiyyətlə rədd edirdi. Arşalos qızı ilə bacara bilməyəcəyini görüb, ondan əl çəkdi, beş yaşlı oğlunu yedizdirməyə çalışdı. Balaca uşaq könülsüzdə olsa, anasının istəyinə tabe oldu. Bir neçə dilim balıq konservindən yeyib, bir stəkanda su içdi.

Nahar bitdikdən sonra yır-yığış edildi. Ermənilər çox qəmgin və bədbəxt durumda olsalarda, azərbaycanlı dəstənin, xüsu ilə də, əsirlikdən azad olunan Qiyasın, Salehin və Arifin kefləri kök, damaqları saz idi. Tələsirdilər, ən qısa vaxtda evlərinə çatmaq və yaxınları ilə görüşmək istəyində idilər. Elə hey yaxınlarından, qohumlarından, Gəncədən, Qusardan söhbətlər açır, o yerlərin gözəlliyindən bəhs edirdilər. Arada bir ermənilər də söhbətlərə qoşulub, yaşayışları, dolanışıqları barədə danışırdılar. Samvelin qardaşı Petros, eləcə də muzdlu əsgərlər olan Akop, Vardan və Qreqori hər vəchlə sübut etməyə çalışırdılar ki, onlar Qarabağa gəl-mək, döyüşmək istəməyiblər, məcbur ediliblər. Azərbaycan əsgərləri isə onların qorxudan özlərini müdafiə etmək üçün hiyləgərlik etdiklərini

başa düşürdülər. Bəzən əsəbləşən Mürsəl, ermənləri söyür, təhqir edir arada bir Akopa və Petrosa şillə-təpik də vururdu. Bəlkə də Talıbın sərt səsi, etirazı olmasa idi, Mürsəl qadınlı, kişili, uşaqlı bütün ermənləri öldürərdi. Söhbətlər bir xeyli çəkdi. Qaranlığın düşməcinə az qalmış Alı ilə Mürsəl silahlarını götürüb, sakitcə mağaranın giriş qapısına yaxınlaşdılar. Başlarını çölə çıxarıb, snayperin tüfənginin durbinindən uzaqları müşahidə etdilər. Bununla kifayətlənməyib, çölə çıxdılar. Onlar 15-20 dəqiqə sonra geri qayıdıb, - sakitlikdir, yaxşı olardı ki, çıxaq, - deyə təklif etdilər.

Oruc Muradov hərəkət etmək üçün yır-yığışa başlayanda yenidən nəzarət altında saxladıqları ermənilərə xəbərdarlıq etdi:

- Əmrləri və göstərişləri yerinə yetirməyən, qaçmağa və yaxud da dəstədən geri qalanlar öldürüləcəklər.

Ermənilər isə ölmək istəmirdilər, bu baxımdan hər bir tapşırığı, göstərişi müti qul kimi yerinə yetirirdilər. Artıq yol getmək, hərəkət etmək üçün bir qədər özlərinə gəlmişdilər. Yaxşıca isinmiş, bir qədər də yemək yemişdilər. Mürsəl onların yedirdilib, içirdilməsinə də etiraz etmişdi. Demişdi ki, ermənilər indi Azərbaycan əsgərlərinə və girovlarına qan uddururlar. Nəinki, yemək, heç bir qurtum su da onlara vermirlər. Ac-yalavac saxlayırlar, əyin-başlarını əllərindən alıb, soyuqdan donmalarına baxıb, zövq alırlar. Biz isə ermənilərin

naz-qəmzəsi ilə oynayır, onları yemək-içməklə təmin edir, yaxşıca isinmələri üçün yanan ocağın başında oturduruq. Dediklərini Saleh, Arif və Qiyas da təsdiqləmişdi. Əsirlikdə qaldıqları 7 ay ərzində başlarına gətirilən çoxsaylı vəhşilikdən, qəddarlıqdan danışmışdılar. Samvelin evinin zirzəmisində saxlanıldıqları zaman Petrosun və Bellanın onlara verdikləri çoxsaylı işgəncələrdən söz açmışdırlar. Saleh deyirdi ki, Bella onlara qabaqlarından qalan yemək qırıntılarını, sür-sümükləri atıb, - siz itsiniz yeyin, - deyib, təhqir edirmiş. İndi isə Bella gözlərini döyə-döyə, qorxu içində əsirlikdən azad olunan əsgərlərə baxırdı. Bəlkə də azərbaycanlı keçmiş əsirlərin ona toxunmamalarından, dindirib, danışdırmamalarından təəccüblənmişdi. Fəqət, bu, reallıq idi, azərbaycanlı gənclər ona gözün üstə qaşın var, belə demirdilər…

Dəstə mağaradan çıxanda artıq qaranlıq düşmüşdü. Talıb ara vermədən yağan qara baxdı. Gözlərini ucsuz-bucaqsız göylərə dikdi. Aydınlaşdırmağa çalışdı ki, görən gecə hansı rəngdədir. Çox baxdı. Beynində çox götür-qoy etdi, amma gecənin hansı rəngdə olduğunu müəyyənləşdirə bilmədi. Acizliyinə özünü qınadı. Rəngləri seçə bilmədiyinə görə içində onu acı gülüş bürüdü. Baxışları ilə, göydə ulduz aradı, niyyəti ulduzlarla söhbət etmək, ürəyini sıxan, qəlbini göynədən suallara cavab tapmaq idi. Ancaq bu soyuq qış günündə, gecənin hansı rəngdə olduğunu müəyyənləşdirə bilmədiyi

kimi, söhbət etmək üçün ulduzlarda gözə dəy-mirdi. Yadına Səməd Vurğunun "Komsomol" poemasından bir bənd düşdü:

Yerlərə baxıram baxçalı, bağlı,
Göylərə baxıram, qapısı bağlı,
Kainat ixtiyar sirli-soraqlı,
Əzəldən yaranıb, tamaşa dünya...

*** *** ***

Şamil Bakıdakı əlaqələrindən istifadə etməklə, ömür-gün yoldaşı Məsmənin ailəsi ilə bağlı xəbər almağa çox cəhdlər göstərmişdi. Azərbaycanın Əsir və Girovlarla iş üzrə Dövlət Komitəsindən Ermənistandakı Qırmızı Xaç Komitəsinə istinadən yalnız o deyilmişdi ki, Sırxavəndin işğalı zamanı 94 nəfər insan əsir götürülüb və onların arasında Çimnaz və Azər Şükürovlarda var. Siyahıda Talıbın adının olmaması, Məsmənin dərdinin üstünə dərd gətirmişdi. Baş verənlərə görə, Məsmə Şamili bağışlamaq istəmirdi. Onu qınayır, ünvanına müxtəlif iradlar səsləndirirdi. Şamil isə - vəziyyətə uyğun

hərəkət etdiklərini, bir an geciksə idilər onların da öldürülə və ya əsir alına biləcəklərini - deyirdi.

Məsmə gecə-gündüz bilmədən hər gün özünü qarğıyır, ah-nalə çəkib, - kaş mən də atamla, bacımla bir yerdə öləydim. Kaş mən də əzizlərim kimi qara torpağa gömüləydim - deyib üzünü cırır, saçlarını yolurdu. Şamilin gücü ancaq həyat yoldaşına təskinlik verməyə çatırdı. Çox çalışırdı ki, Məsmənin balaca qardaşı Azər və anası Çimnazla bağlı bir məlumat əldə

etsin, Talıbın taleyi ilə bağlı nəsə bir şey öyrənsin. İndidə Müdafiə Nazirliyində işləyən dostu Qaçayın yardımı ilə korpus komandiri Məmməd Cavadzadə ilə görüşə gəlmişdi…

Əsgər Şamilə yaxınlaşıb, - komandir sizi gözləyir, keçə bilərsiniz, - deyə onu və həyat yoldaşı Məsməni otağa keçməyə dəvət etdi.

Şamil qapını döyüb, içəri girəndə korpus komandiri Məmməd Cavadzadə ayağa durub, hörmət-izzətlə onlara yaxınlaşdı. Əl verib görüşdü, xoş gəlmisiniz dedi, oturmaq üçün yer göstərdi. Gəlişlərinin məqsədini bildiyindən çox sual-cavab etmədi, sadəcə - Qaçay müəllim mənə sizinlə bağlı danışıb - deməklə kifayətləndi.

Şamil müəllim korpus komandirinin qayğılı, narahat simasına baxıb, dedi:

- Cənab polkovnik, əsirlərin azad edilməsi üçün hansısa bir iş görülürmü?

Məmməd Cavadzadə başını aşağı salıb, bir anlıq fikrə getdi. Ürəyində ermənilər o ki, var küçə söyüşləri ilə söydü. İstədi açıq etiraflar etsin, desin ki, onlarla dil tapmaq çox çətindi. Amma başını qaldıranda başqa sözlər söylədi:

- Hə, hazırda qarşı tərəflə əsirlərin azad edilməsi üzrə iş gedir. Bu gün-sabah yəqin ki, əsirlərimiz azad ediləcəklər.

Şamil müəllim ağzını açıb, danışmaq istəyərkən Məsmə ağlamaqdan qızarmış gözlərini əl dəsmalı ilə silib, başındakı qara örpəyini düzəldib, ağlar səslə dedi:

- Atam və bacım gözlərimizin qarşısında öldürüldü. Anam və balaca qardaşım gavurların əlindədir. Yarlı-yaraşıqlı böyük qardaşımdan isə xəbər-ətər yoxdur. Komandir, başına dönüm, balalarına qurban olum, bizə kömək elə.

Məmməd Cavadzadə qadını sakitləşdirməyə çalışdı:

- Biz bütün əsirlərimizin azad edilməsinə çalışırıq. Artıq bizdə olan 100-yaxın ermənini dəyişdirmək üçün ön cəbhəyə gətirmişik. Sadəcə, bizdən fərqli olaraq onlar öz vətəndaşlarına sahib çıxmaq istəmirlər.

Məsmə yenidən yalvar-yaxar etdi:

- Dərdimizi kimə deyirik, yalan, boş vədlərlə bizi başlarından edirlər. Ümidimiz, pənahımız sizədir, kömək edin komandir.

Məmməd Cavadzadə bu kimi xahişlərlə onun yanına gələn insanların qarşısında həmişə çıxılmaz vəziyyətdə qalmışdı. Yalan danışmaq, qeyri-səmimi olmaq da istəməmişdi. Sadəcə, - narahat olmayın, hər kəsə, o cümlədən sizin yaxınlarınıza da kömək olunacaq, - deyə çətinliklə də olsa vəziyyətdən çıxmağa çalışmışdı. İndi də belə idi. Ciyərləri dolusu nəfəs alıb, dili topuq vura-vura dedi:

- Sabah günortaya qədər gözləməkdən başqa çarəmiz qalmır. Səbirli olun, özünüzü də fəda etməyin. Başa düşün ki, bəla ellə gəlib. Biz yalquzaqların hücumuna məruz qalmışıq. Amma inşallah onları məhv edəcəyik. Hər kəsin, hər bir şəhidin qisasını alacayıq. Sadəcə, bir az dözmək, səbirli olmaq lazımdır.

Məsmə yanaqları aşağı süzülən göz yaşlarını əl dəsmalı ilə silib, - sabah günorta deyirsiniz, yəni əzizlərimizdən bir xəbər eşidə biləcəyik?- deyə ümid dolu nəzərlərlə komandirə baxdı.

Korpus komandirinə onu qırmaq çətin gəldi. Bu baxımdan sakit səslə ded:

- Bəli, yəqin ki, sabah günortaya qədər sizə bir xəbər deyə biləcəyik.

Şamil söhbətin artıq bitdiyini başa düşdüyündən ayağa durdu. Korpus komandirinə onları dinlədiyinə görə təşəkkür etdi. Xudahafizləşmək məqamında Məmməd Cavadzadə üzünü Şamilə tutub, dedi:

- O uşaqla, ananın adını bildim, 3-cü şəxsin, yəni Məsmə xanımın böyük qardaşının adı nədir?

- Talıbdır, Şükürov Talıb.

Talıb sözünü eşidən kimi korpus komandiri ayağa durdu,- hündür, dolu bədənli, sarışın oğlan? Həm də cüdo idman növü ilə məşğul olur hə, - deyə sual etdi.

Şamil komandirin təəccüblə onlara sual ünvanlamasından duruxdu, narahat oldu:

- Bəli, cənab komandir, nə isə olub?

Korpus komandiri artıq getməyə hazırlaşan qonaqlarına yaxınlaşıb, onlarla üzbəüz dayandı. Məsməyə üzünü tutub, dedi:

- Doğrudan Talıb sizin qardaşınızdır?

- Bəli, onun toyu olacaqdı. El-oba onun şənliyinə-şadlığına yığışacaqdı. Amma gavur ermənilər toyumuzu qara gətirdi. Şadlığımızı, şənliyimizi qəm gölünə qərq etdi. Atamı, bacımı öldürdülər. Talıbın nişanlısını, ailəsini məhv etdilər…

- Talıb salamatdır. Onun kimi oğullar bu vətənə, bu torpağa çox lazımdır. Onların gücü, qüdrəti ilə biz ermənilər yerində oturdacağıq.

- Siz onu tanıyırsınız? İndi hardadır, - deyə Məsmə korpus komandirinə sual etdi.

Korpus komandiri Məsmənin qardaşının sağ olmasını eşidincə bir qədər sevincək olduğunu hiss etdiyi üçün ona daha bir ümid verdi.

- Talıb mənim tapşırığımla bir əməliyyatda iştirak edir, vacib əməliyyatdır. Amma xahiş edirəm ki, bu barədə heç kimə heç nə dəməyin. Yanıma gələn kimi, sizə xəbər verəcəyəm.

- Olsun, mən getməyəcəm. İcazə versəniz elə buralarda, hansısa, uçulub, dağılmış erməni xarabasında, daxmasında qardaşımı gözləyərəm.

Korpus komandiri etiraz etdi:

- Yox, olmaz. Siz Ağdama gedin, orda qalın. Talıb gələn kimi dərhal onu sizin yanınıza göndərəcəyəm. Xahiş edirəm, dediyim kimi edin.

Şamil Məsmənin əlindən tutub, özünə tərəf çəkdi. Getmək üçün qapıya tərəf addımladılar. Məsmə isə getmək istəmirdi. Elə hey istəyirdi ki, komandir qardaşından ona nə isə desin, daha bir xəbər söyləsin. Aralarında olan danışıqlarını, söhbətlərini bir-bir dilə gətirsin.

Şamil yenidən onun qolundan tutub - Məsmə komandirin işi-gücü var, gedək, - deyə ona otaqdan çıxmağın vacibliyini başa salmağa çalışdı.

Məsimə komandirin işi-gücü var, sözünü eşidəndə ayıldı:

- Hə, düz deyirsən, gedək.

Qapını açıb, otağı tərk edərkən geri çevrilib - Sağ olun komandir. Biz Ağdama gedib Talıbı gözləyəcəyik - deyə onunla xudahafizləşdi.

Korpus komandiri nəzərləri ilə onları qapıdan çıxana qədər izlədi, daha sonra yerinə qayıdıb əyləşdi. Bu zaman alay

komandiri Fərəc Ağayev hövlanak içəri daxil olub, salam verdi. Sonra yaxınlaşıb, Məmməd Cavadzadə ilə əl verib görüşdü.

Məmməd Cavadzadə Fərəc Ağayevin saqqal basmış üz cizgilərinin titrədiyini, saraldığını hiss etdiyindən, burada çox ciddi mətləblərin olduğunu düşündü.

- Nə baş verir, Fərəc müəllim?- Nə olub, təngnəfəssiniz, ermənilər hücum edib?

Fərəc Ağayev stul çəkib oturduqdan sonra komandirə baxmadan dedi:

- Öz qılıncımız, özümüzü kəsir, cənab polkovnik.

Sözlərindən bir şey başa düşmədiyindən Məmməd Cavadzadə sərt şəkildə səsini qaldırdı:

- Ağayev, bir danış görək nə olub?

- Bu gecə səhərə yaxın hərbi hissəyə hücum olunub, Jozef Markonu aparmağa çalışıblar.

Məmməd Cavadzadə dik ayağa qalxdı:

- Necə-necə, hücum olunub?

- Bəli, cənab komandir, ölən və yaralanlar var.

Məmməd Cavadzadə sağ əlini əsəbdən şişən boyun damarına sürtüb, gicgahına əl gəzdirdi. Yenidən stulda oturub başını əlləri arasına aldı:

- Kimlər ölüb?

- Qələndərli və onunla gələn iki nəfər ölüb. Amma Bəşir Hacıyev və üç əsgərimiz də həyatlarını itiriblər.

Məmməd Cavadzadə yumruğu ilə stulu döyəclədi. Ayağa durub otaqda sağa-sola addımladı. Yaxınlaşıb, Fərəc Ağayevlə üzbəüz əyləşdi:

- Bəs Jozef Markodan nə xəbər var?

- Onu maşına mindirmək istəyərkən əsgərlərimiz sərrast atəşlə öldürüblər. Cəsədini aparmağa da imkan verməyiblər.

Məmməd Cavadzadə əsəbi şəkildə dilləndi:

- Bu həyasızlıq, həm də qəddarlıqdır.

- Bəli, elədir ki, var cənab polkovnik.

Sonra ürəyini didib, parçalayan şübhələrini ehtiyatlada olsa dilə gətirdi:

- Yuxarıdan razılıq olmasa idi, onlar bu cəsarəti edə bilməzdilər.

Polkovnik ani fikrə gedib dedi:

- Deməli, çox çətin, ağır proseslərə qədəm qoyuruq.

Fərəc Ağayev başını yuxarı qaldırıb, gözlərini otağın tavanına dikdi, elə o vəziyyətdə də dedi:

- Cənab polkovnik, acı da olsa, reallıqdır ki, artıq yuxarılarda vəzifə davası amansız xarakter alır.

- Yəni deyirsən yuxarılar stolu torpaq itkisindən üstün tuturlar?

- Elə demək istəməzdim. Amma qulağıma çatan bəzi məlumatlar məni təəccübləndirib.

Məmməd Cavadzadə özünü inandırmaq üçün dedi:

- Ola bilməz.

Fərəc Ağayev Məmməd Cavadzadəyə öyüd-nəsihət, məsləhət vermək istəmədi. Bununla onun xətrinə dəyə biləcəyini fikirləşdi. Nə olsun ki, ondan yaşca böyükdür. Amma iki gün öncə onunla olan söhbətini yenidən xatırlatmalı oldu.

- Mən xəbərdarlıq etmişdim ki, Mehdi Qələndərli kimilərlə düşmən olmayaq, siz isə məni eşitmədiniz.

- Hərbə-zorbaya biz baş əysək, onda gərək ermənilərin top-tüfənglərinin qarşısında dayanmayaq.

- Hər halda, bu qarışıq dövrdə Jozef Marko kimi zibili gərək təhvil verəydik.

- Marko kimilər bizim yaxınlarımızı, doğmalarımızı öldürüblər. Neçə-neçə kəndimizi xarabalığa çeviriblər. Bu baxımdan onu təhvil vermək deyil, Bəxtiyar Hacıyev demişkən, dərhal öldürüb, ondan qurtulmaq lazım idi.

Fərəc Ağayev bayaqdan dilə gətirmək istədiyi narahatçılığını da bu məqamda söyləməli oldu.

- Məmməd müəllim, bir az ehtiyatlı olun.

- Sözlü adama oxşayırsan, Fərəc müəllim.

- İçimdən bir səs gəlir ki, artıq biz kimlər üçünsə problemə çevrilirik. Görün neçə-neçə komandirimiz həyatlarını itiriblər. Hamısı təsadüfün qurbanı olublar.

- Narahat olma, Ağayev. Bir də ki, ölüm haqdır. Bir gün biz də dünyadan köçməliyik.

- O haqqda danışmaq tezdir, polkovnik.

- Ağayev, bizdən asılı olmayanlar da var.

- Səndən asılı olan, heç vaxtı bir gün yatdığın çarpayıda, ikinci gecə yatma. Səhər nahar etdiyin masada, günorta oturma. Bir dəfə getdiyin cığırı, qayıdanda təkrarlama.

Məsləhətini bitirən Fərəc Ağayev xahiş etməyi də unutmadı:

- Sənə bir mühafizəçi də gətirmişəm. Qardaşım oğludur, idmanla məşğul olur, adı da Yavərdir. Elə sənin yavərin olsun.

- Axı mənim kifayət qədər əsgər dostlarım, silahdaşlarım var. Mühafizəçilərdən də narazılığım yoxdur.

- Yox, sözümü yerə salma. Xahişimi də rədd etmə. Yavər səninlə qalsın.

Fərəc Ağayev sözünü bitirib, ayağa qalxdı. Yaxınlaşıb qapını açdı, - Yavər gəl içəri, - deyə qardaş oğlunu otağa dəvət etdi.

22-23 yaşlarında enlikürək, ucaboy, qarayanız, qumral gözlü gənc içəri daxil oldu. Hərbi salamlaşmadan sonra - Əmrinizlə gəlmişəm cənab polkovnik, - deyə məlumat verdi.

Onun hərbi salam verməsi və görünüşü, duruşu ilk baxışdan korpus komandirinin xoşuna gəldi. Ayağa durub

Yavərə yaxınlaşdı. Əl uzadıb, onunla görüşdü. Təhsili olub, olmadığı ilə maraqlandı.

Yavər BDU-nu bitirdiyini, bir müddət Azərbaycan Respublikasının Maliyyə Nazirliyində məsləhətçi işlədiyini, əmisi Fərəc Ağayevin tapşırığı ilə cəbhəyə gəldiyini söylədi.

- Evlisənmi?

- Bəli, cənab polkovnik.

- Uşağın var?

- Bir oğlum var.

- Gözü dolusu görəsən, Allah saxlasın.

-Sağ olun cənab polkovnik.

- Neçə yaşı var?

- İki

- Qalmağa yerləri var?

- Hə, Bakıda, valideynlərimin yanında qalırlar.

- Yaxşı. Fərəc müəllim mənim ağsaqqalımdır. Necə deyirsə, nə məsləhət verirsə elə də olsun. Bu gündən biz bir yerdə işləyəcəyik. İndi isə gedə bilərsən.

Yavər Ağayev - oldu cənab polkovnik. Sağ olun, - deyib otağı tərk etdi.

Komandirin yeni mühafizəçisi otağı tərk edincə, Bəxtiyar Hacıyev qapını döyüb, içəri daxil oldu. Ağzını açıb, danışmaq istəyərkən, Məmməd Cavadzadə - gəl Hacıyev, gəl artıq

bilirəm, məlumatım var hər şeydən- deyə onu sakitliyə dəvət etdi.

Bəxtiyar Hacıyev qəmgin və son dərəcə qüssəli halda yaxınlaşıb, Fərəc Ağayevlə və korpus komandiri ilə görüşdü. Təklif gözləmədən stul çəkib, oturdu. Otağa sakitlik çökdü, danışmadılar. Bir neçə saniyə çəkən ölü sükutu nəhayət, Məmməd Cavadzadə pozdu:

- Hacıyev əsgərlərin və Asif Bəşirovun ən yüksək səviyyədə dəfn olunmaları üçün hər nə lazımdırsa təşkil edin.

Başını aşağı salıb, ovcunu ovuşduran Bəxtiyar Hacıyev göz qapaqlarını qaldırıb, dedi:

- Cənab polkovnik, artıq rayon icra hakimiyyəti və sizin siyasi məsələlər üzrə müavininiz Şakir Abışov cənazələrin ailələrinə çatdırılması üçün müəyyən işlər görürlər. Hərbi prokurorluq da oradadır. Yəqin ki, Şakir Abışov bu dəqiqələrdə hadisə ilə bağlı sizə rəsmi məlumat verəcək.

- Hər halda, əsgərlərin, eləcə də Bəşirovun dəfnində şəxsən sən də iştirak elə. Mən də çalışacam ki, Asif Bəşirovun yas mərasimində iştirak edim.

Fərəc Ağayev söhbətə qoşuldu:

- Yaxşı cənab polkovnik, bu gecə planlaşdırılan Ağdərə əməliyyatını necə edək?

Suala cavab verməmişdən əvvəl korpus komandiri gözlərini Bəxtiyar Hacıyevə dikdi. Sanki onun fikrini öyrənmək istədi. Bəxtiyar Hacıyev isə başını aşağı salıb susurdu.

- Məncə, hələlik əməliyyat təxirə salınsın.

- Mən də elə fikirləşirəm.

Hələdə xəyallar aləmində olan Bəxtiyar Hacıyev əməliyyatın təxirə salınması fikrini eşidincə başını qaldırıb sual etdi:

- Niyə, cənab polkovnik?

- Bilmək olmaz hərbi hissələrdə və döyüşəcək orduda hansı vəziyyət hökm sürür.

Bəxtiyar Hacıyev sual etdi:

- Söhbət nədən gedir?

Korpus komandiri əlində tutduğu qələmlə ağ kağız parçası üzərində xətlər çəkə-çəkə dedi:

- Mehdi Qələndərliyə satılan və onun əmrlərini yerinə yetirənlər sıralarımızda da ola bilər. Bu baxımdan risk edə bilmərik.

Fərəc Ağayev də korpus komandirinə dəstək verdi.

- Hə, 1-2 gün yoxlama, təftiş apararıq. Kimin kim olduğunu, kimin kimə bağlı olduğunu müəyyənləşdirərik.

Korpus komandiri tapşırıq verdi:

- Bəxtiyar Hacıyev bir komissiya müəyyənləşdir. Tağımlarda, bölüklərdə, taborlarda, alaylarda, hətta briqadalarda əsgər-zabit heyəti arasında yoxlamalar aparın.

Bəxtiyar Hacıyev göstərişdən təəccüblənsədə, bunu biruzə verməməyə çalışdı. Amma səbr və təmkinlə narahatlığını dilə gətirdi:

- Cənab polkovnik, bunun üçün bizə uzun vaxt lazımdır. Əməliyyatı isə uzatmaq heç xeyrimizə olmaz.

Korpus komandiri Bəxtiyar Hacıyevin narahatçılığını başa düşdüyündən dedi:

- Mən demirəm ki, bir-bir əsgər və zabitləri çağırıb, izahat alasınız. Sadəcə, əsgər və zabit heyətini nəzərdən keçirin. Hərəkətlərindən və davranışlarından şübhələndiyiniz əsgər və zabitlərin adlarını müəyyənləşdirin. Sonrada onları əməliyyatdan kənarlaşdırarıq.

Fərəc Ağayev göstərişin hərbi nizam-intizamın daha da möhkəmlənməsinə təkan olacağını anladığından, ürəyində polkovniki alqışladı. Düşüncəsini açıq şəkildə dilə də gətirdi:

- Hə, bu daha yaxşı olar.

Bəxtiyar Hacıyev də korpus komandirinin niyyətini başa düşdü, tədbirli olmaq istəyini dərk etdi - olsun, düz deyirsiniz cənab polkovnik, - deməklə göstərişin əsaslı olduğunu nümayiş etdirdi.

Korpus komandiri Məmməd Cavadzadə söz demək istəyərkən, bu zaman qapı döyüldü və yenicə mühafizəçisi təyin olunan Yavər Ağayev əlində ratsiya tutmuş əsgərlə içəri daxil oldu. Əsgər hərbi salam verib, korpus komandirinin siyasi məsələlər üzrə müavini, polkovnik Şakir Abışovun onunla danışmaq istədiyini bildirdi. Korpus komandiri əlini uzadıb, əsgərdən telefon rabitə qurğusunu aldı.

Məmməd Cavadzadə Şakir Abışovla telefon danışığına başlayan zaman Fərəc Ağayevlə Bəxtiyar Hacıyev korpus komandirindən icazə alıb, otağı tərk etdilər.

*** *** ***

Artıq cəbhənin neytral zonası başa çatmaq üzrədir. Yarım saatlıq məsafədən sonra tam təhlükəsiz bir yerdə - Azərbaycan ərazisində olacaqlar. Mürsəl qısa məsafəni qansız-qəzasız, nəzər-diqqəti cəlb etmədən keçmək üçün təklif etdi:

- Alı, biz bu təpənin sonunda sola dönüb, Sarı bulağa çıxaq. Oradan Çinarlıya 100-150 metrdir.

Alı Məmmədov Mürsəlin təklifindən təəccübləndiyini gizlətmədi:

- Qısa yolumuzu, niyə uzatmalıyıq ki, artıq heç bir təhlükə yoxdur. Ona görə də yolumuzu dəyişmədən Çinarlıya çıxaq.

Talıb Alı Məmmədovla Mürsəlin mübahisəsinə müdaxilə etməli oldu:

- Biz çətində olsa, şumu keçib, Çinarlıya çıxacağıq.

Mürsəl təklifini, qəbul etdirmək üçün növbəti dəfə cəhd etdi:

- Mən bildiyimi deyirəm, ən təhlükəsiz keçid, Sarı bulaqdan keçməkdir.

Talıb, onu fikrindən daşındırmağa çalışdı:

- Sarı bulağa enməklə gözlənilməz sürprizlərlə qarşılaşa bilərik.

- Nə sürpriz ola bilər ki, yüksəkliklərdən ora ovuc içi kimi görünür. Bu baxımdan erməni qorxusundan, bulağa keçməyə risk etməz.

Alı Məmmədov Talıba baxıb sual etdi:

- Yəni deyirsən erməni itləri oralarda sülənə bilər.

- Hər şey mümkündür.

Bayaqdan dostlarının mübahisəsinə sakitcə, qulaq kəsilən Oruc Talıbın təklifinin daha ağlabatan və münasib olduğunu göstərmək üçün dedi:

- Talıb deyəni edək. Ən yaxşısı onun təklif etdiyi variantdır.

Orucun mübahisəyə müdaxiləsi ilə, məsələ həll edilmiş sayıldı. Çünki, Alı ilə Mürsəl daha danışmadılar, susmalı oldular. Bu isə, Talıbın təklif etdiyi ərazi üzrə hərəkət etmək demək idi.

Bundan sonra Oruc erməni tərəfini bir daha nəzərdən keçirmək üçün dəstədən aralanıb, sol tərəfdəki, hündür daşa tərəf addımladı. Qar isə dayanmadan yağırdı. Boran-çovğun bir qədər səngisə də, küləkli hava qarı ora-bura sovurur, bəzən burulğan yaradırdı.

Talıb addımlarını yeyinlədib qabaqda addımlayan Alı Məmmədova yaxınlaşdı. Onun qolundan tutub, sakit tərzdə dedi:

- Qardaş, buradan ayrılacağıq. Sən hərbi bölüklərdən birinə gedib, Samvellə əlaqə saxlamaq üçün bizə ratsiya tapıb, gətirəcəksən.

Alı Məmmədov Talıbın təklifini bəyəndiyini göstərmək üçün, başını yüngülcə tərpətməklə razılığını bildirdi. Sonra dedi:

- Buradan 3-4 km aralıda bizim bir bölüyümüz var. Oradan bir ratsiya əldə edib geri qayıdaram. Elə axşama Samvellə əlaqə qurarıq.

Talıb gümrah səslə:

- Çalış yubanmayasan.

- Arxayın ol.

Talıb fikrini tamamlayıb girovların arxasına tərəf keçmək istəyərkən sanki göy guruldadı, ətrafa qar və torpaq səpələndi. Talıb qeyri-ixtiyarı cəld hərəkətlə geri addım atıb, dayandı. Çaşqın nəzərlərlə partlayışın baş verdiyi əraziyə baxdı. Yerdə uzanan şəxsi görüb, ürək döyüntüləri ilə, narahat baxışlarla dostlarını aradı.

Orucu görməyəndə uca səslə - Oruc sən niyə dəstədən aralandın - deyə fəryad etdi. İlkin və Mürsəl dəstədən aralanıb, piyada əleyhinə minanın partlaması nəticəsində qan içində çabalayan Oruca yaxınlaşmaq istədilər. Saleh və Arif də ermənilərə - cərgəni pozmayın - əmrini verib, Oruca tərəf addımladılar.

Talıb sərt şəkildə qışqırdı:

- Olmaz, dayanın. O ətrafda başqa minalar da ola bilər.

İlkin, Mürsəl, eləcə də Saleh və Arif Talıbın xəbərdarlığını eşidib, dayansalarda, Oruca kömək etmək istəyirdilər. Əraziyə yaxınlaşmaq isə riskli idi. Çünki erməni kəşfiyyatı bu əraziləri minalaya bilərdi.

Alı Məmmədov əlləri ilə başını tutub, - Oruc sən niyə bizdən aralı durdun, sən niyə əməliyyatın uğurla başa çatdığı bir məqamda həyatınla risk etdin, - deyə dayanmadan qışqırır, ah-nalə çəkirdi.

İlkin Alını sakitləşdirməyə çalışırdı. O, isə ovunmaq bilmirdi. Elə, hey dayanmadan qışqırır, Samveli söyürdü:

- Samvel oğraş, şərəfsiz artıq bəlkə də öz faciəsi ilə barışıb. Nə lazım idi ki, dəstədən aralanıb, sağa-sola boylanmaq.

Alı sözünü bitirib, avtomatını, eləcə də əl qumbaralarını yerə atdı, sonrada qarın üzərinə uzanıb, Oruc Muradova doğru sürünməyə başladı.

Talıb onun qabağına keçib, - Alı etmə, yalvarıram, xahiş edirəm.

Orucun həyatı bura qədər imiş. Gəl sən, öz həyatını məhv etmə, geri qayıt, - deyə onu fikrindən daşındırmağa çalışdı.

Alı Məmmədov etiraz etdi:

- Mən can dostumu darda qoya bilmərəm.

- O artıq ölüb, görmürsən? Bütün bədən üzvləri ətrafa səpələnib.

- Yox, getmək və onun son sözlərini eşitmək istəyirəm.

Talıb dirəniş göstərdi:

- Alı gedək, bu erməni zibillərini bir yerdə yerləşdirək, sonra hərbi hissədən sapyorlarla gəlib, Orucun yaxınlığında minanın olub-olmamasını müəyyənləşdirib, cəsədi götürərik.

Alı Məmmədov fikrindən dönmədi.

- Mən Orucun son sözlərini eşitməkdə qərarlıyam.

Talıb Alı Məmmədovu fikrindən daşındıra bilməyəcəyini görüb, dizləri üstə yerə çökdü. Təşviş və narahat tərzdə sürünə - sürünə Oruca doğru irəliləyən Alı Məmmədovu nəzərləri ilə müşayiət etdi.

Alının Oruc Muradova yaxınlaşıb, onun boyununu qucaqladığını və hıçqıra - hıçqıra ağladığını görəndə Talıb fəryad etdi. Əməliyyata başlayıb, geri qayıdandan bəri ilk dəfə var gücü ilə qışqırdı:

- Allah sizə lənət etsin, ermənilər. Sizlər minlərlə gəncin həyatını yarı yolda qoydunuz.

Mürsəl Talıbı sakitləşdirməyə çalışdı:

- Oruca görə, hamımız üzülürük. Onun ruhu o zaman şad olar ki, biz əməliyyatı plana uyğun başa çatdıraq.

İlkində Talıba ürək-dirək verib, onu sakitləşdirməyə çalışdı:

- Dur Talıb, dur, yolumuza davam etməliyik.

Artıq, Alı Məmmədov Orucun gödəkcəsindən tutub, sürüyə-sürüyə təhlükəsiz bir əraziyə çıxartmışdı. Talıb Alı Məmmədova yaxınlaşdı. Onun boynunu qucaqlayıb, ağlaya-ağalaya - başın sağ olsun, Allah rəhmət etsin - dedi.

Alı Məmmədov gözlərindən sel kimi axan göz yaşlarını gödəkcəsinin qolu ilə silib, ağlar səslə dedi:

- Sənin də başın sağ olsun, dostum.

Talıbın pıçıltılı səsi eşidildi:

- Sən yaxınlaşanda Oruc sağ idi?

- Hə.

- Son sözünü eşidə bildin?

Alı Məmmədov hıçqıra-hıçqıra - bəli, - deyə bildirdi.

- Son sözü nə oldu?

Alı Məmmədov Oruc Muradovun cansız bədəninə və qaralmış üzünə baxıb üzgün şəkildə dedi:

- Oruc dedi ki, bilirdim ki, sən gələcəksən.

Talıbı yenidən qəhər boğdu. Öz-özünə ölməz şairimiz Hüeyn Cavidin ibratamiz fikirini xatırladı:

- Ölüm var ki, həyat qədər dəyərli, həyat var ki, ölümdən də zəhərli. Oruc qısa ömrünü şərəflə yaşadı, ölümü ilə də, ölümsüzlüyə qovuşdu…

Ağır, üzücü düşüncələrindən ayılan Talıb İlkinlə Mürsəli yanına çağırdı. Onlara Oruc Muradovun cənazəsini gödəkcənin üstünə qoyub, arxalarınca gəlmələrini tapşırdı. Mürsəllə İlkin Oruca olan son ehtiramlarını göstərmək üçün Talıbın tapşırığını yerinə yetirdilər. Onun cansız bədənini gödəkcənin üstünə qoyub, dəstənin ardınca addımladılar. Əkin sahəsini keçib, Çinarlıya çıxınca, Şellinin kənd yolu, göründü. Artıq qaranlıq düşməsinə baxmayaraq ora-bura vurnuxan insanlar gözə dəyirdi. Yol ayrıcında başını aşağı salıb yeriyən Alı Məmmədov heç kəsin üzünə baxmadan dayandı. Sanki dostunun gözlənilməz ölümünə görə, dəstə günahkar idi. Elə

üzgün və küskün formada - mən getdim - deyib dəstədən aralandı, ratsiya gətirmək üçün yaxınlıqdakı briqadaya doğru addımladı.

*** *** ***

Bəxtiyar Hacıyev içəri daxil olub, hərbi salam verdi. Yaxınlaşıb, polkovnik Məmməd Cavadzadə və 2-ci özünü müdafiə alayının komandiri Yaqub Qasımovla əl verib görüşdü. Məmməd Cavadzadə Bəxtiyar Hacıyevə oturmaq üçün yer göstərdikdən sonra, birbaşa verdiyi tapşırığın icra vəziyyətini öyrənmək üçün sual etdi:

- Hacıyev, araşdırmaların vəziyyəti nə yerdədir?

Bəxtiyar Hacıyev hərbi formasının yan cibindən çıxardığı dəftəri korpus komandirinə təqdim etdikdən sonra dedi:

- Cənab polkovnik, tağımlarda, bölüklərdə, briqadalarda hər şey normaldır. Sadəcə, Mətin Qulamovun rəhbərlik etdiyi özünümüdafiə batalyonunda bir zabitin və iki əsgərin şübhəli

fəaliyyətləri sizin narahatçılığınızın əsaslı olduğunu ortaya qoydu.

Korpus komandiri hövsələsizlik edib, sual etdi:

- Nə isə ciddi bir problemin var?

- Bəli, cənab polkovnik, bir zabit və iki əsgərin şəxsi işlərini araşdıranda dəhşətə gəldim. Onlar siyasi hakimiyyətə birbaşa bağlı olan insanlardır.

Yaqub Qasımov Hacıyevin son sözlərini dinlədikdən sonra, polkovnikin narahat simasına ani baxıb, nəzərlərini Hacıyevə dikdi:

- Hacıyev, burada bir o qədər də təəccüblü bir şey yoxdur. Görünür, Bakıdakılar öz adamları vasitəsilə cəbhə bölgəsindəki hərbi vəziyyətlə bağlı məlumat əldə etməyə çalışırlar. Düşünürəm ki, bu, heç də qorxulu deyil.

Hacıyev şübhələrinin əsassız olmadığını sübut etmək üçün dedi:

- Qorxuludur, Yaqub müəllim.

- Nə mənada, - deyə Məmməd Cavadzadə sual etdi.

- Çünki zabit hər vəchlə planlaşdırılan əməliyyatların təxirə salınması və yaxud da onların iflasa uğramasına çalışmışdır.

- Faktın var, yoxsa fərziyyələr söyləyirsən?

- Dəftərdə hamısı yazılıb, cənab polkovnik. Həm də o zabitin geyimini yoxlayan zaman üstündən şifrəli yazışmalar əldə etdim. Bax o kağız sizin əlinizin altındadır.

Bəxtiyar Hacıyev sözünü yekunlaşdırmamış əlini uzadıb, ağ kağız parçasını dəftərin arasından çıxararaq, polkovnikə göstərdi. Sonra da dedi:

- Cənab polkovnik, ən dəhşətlisi də odur ki, biz hərbi uğurların davamlı olması üçün səylər göstərdiyimiz, həyatımızı qurban verdiyimiz halda bu şəxslər böyük pullar qazanırlar. Əsgərlərin üzərində axtarış aparılan zaman ciblərindən və çantalarından 10 min ABŞ dolları aşkarlandı.

Polkovnik təəccübünü gizlədə bilmədiyindən, çaşqın halda dedi:

- 10 min dollar?

- Bəli, bəli cənab polkovnik 10 min dollar.

Yaqub Qasımov əsəbi formada əlini əlinə vurub, - şərəfsizlər, yerindəcə güllələmək lazımdır, - deyə bildirdi. Dərhalda üzünü polkovnikə tutub, məsləhət verdi:

- Cənab polkovnik, onlar dərhal həbs olunub, hərbi tribunala verilməlidir.

Hacıyev:

- Artıq onlar həbs olunublar. İşin araşdırılması üçün hərbi nəzarət idarəsinin rəis müavini Elsevər Cəlilov istintaqa

başlayıb. Yəqin ki, artıq məsələyə hərbi prokurorluğun müstəntiqlərində qarışıblar.

Polkovnik Məmməd Cavadzadə qaşlarını çatıb, gözlərini qıydı. Əlini stola döyəcləyib, ani fikrə getdi.Sonra gözlənilmədən dedi:

- Başa düşmürəm, niyə siyasi hakimiyyət hərbiçilər arasında casus şəbəkəsi yaratmalıdır ki?

Hacıyev Qasımova baxdı, onun dillənmədiyini görüb, polkovnikin sualına cavab vermək üçün dedi:

- Cənab polkovnik, hərbi uğurların davam etdirilməsini istəməyən sapı özümüzdən olan baltalar var.

Yaqub Qasımov eşitdiyi xəbərdən bərk əsəbiləşdiyindən, səsinin tonunu qaldırdı:

- Hə, hə düz deyirsən. O baltalar bizim özümüzü baltalamaqdadır.

Bəxtiyar Hacıyev narahatçılığını dilə gətirməyi də unutmadı.

- Cənab polkovnik, Bakıda siyasi hakimiyyət uğrunda mübarizə qızışır, stol davası aparanlar hərbi birləşmələri öz tərəflərinə çəkib, ondan istifadə etməyə çalışırlar. Bu baxımdan ehtiyatlı olmalıyıq.

Polkovnikin əsəbi səsi eşidildi:

- Biz onların təsiri altına düşməyəcəyik və buna da imkan verməyəcəyik.

- Sizdən asılı olmayan proseslər baş verə bilər cənab polkovnik.

- Yəni, deyirsiniz mən kor və kar olacam?

- Elə demək, istəmirəm. Sadəcə, bəzi hərbi hissələrdə öz adamları vasitəsilə təxribatlar, müəyyən qarışıqlıqlar salıb, döyüşən ordu birləşmələri arasında ruh düşkünlüyü yaradacaqlar.

- Bu ermənilərlə iş birliyidir, əməkdaşlıq deməkdir, Hacıyev.

- Onlar bunun fərqində deyillər, cənab polkovnik.

- Biz onları başa salmalıyıq, ona görə də Ağdərə əməliyyatı öncəsi mən mütləq Bakıya gedəcəyəm və orada qəti sözümü deyəcəm.

- Məsləhət deyil, cənab polkovnik, getməsəniz yaxşıdır. Həm də... Hacıyev fikrini tamamlamayıb susdu.

Bu polkovnikin gözündən yayınmadı. Sinəsini masaya doğru bir qədərdə sıxıb, - nə demək istəyirsən de, Hacıyev - deyə ona fikirlərini tam demək göstərişini verdi. Hacıyev narahat şəkildə - cənab polkovnik, həm də yolda izdə sizə xətər verə bilərlər. Ən yaxşısı burada - bizim yanımızda qalsanız daha təhlükəsiz olar, - deyə özündən asılı olmadan böyüklər kimi məsləhət verdi.

Polkoklər qəti şəkildə dedi:

- Onlar o qədər ağılsız deyillər ki, mənə ziyan vursunlar.

Yaqub Qasımov sağ əli ilə saqqalına tumar çəkib, dedi:

- Sadəlövh olmayın, cənab polkovnik. Onlar hakimiyyətə gedən yolda bizləri çör-çöp hesab edirlər. Maraqlarının təmin olunması üçün bir anda bizləri yanan alovun içinə atıb, yandırarlar.

Bəxtiyar Hacıyevdə polkovniki Bakıya getmək fikrindən daşındırmaq üçün məlumatlı şəxs kimi danışmalı oldu:

- Kəşfiyyat məlumatları sizin xeyrinizə deyil, polkovnik. Jozef Marko məsələsindən sonra sizə qarşı çox qəzəblidirlər.

Polkovnik əsəbi olduğundan səsinin tonunu bir qədər qaldırmalı oldu:

- Cəhənnəm olsun, Marko. Başa düşmürəm, Fərəc Ağayev də sizin kimi düşünür. O da mənə ehtiyatlı olmaq xəbərdarlığını edir.

Yaqub Qasımov:

- O haqlıdır, cənab polkovnik.

Bəxtiyar Hacıyev əsaslı faktlara istinad etməli oldu:

- Çünki həbs olunan zabit və o iki əsgərin əşyalarının arasında sizin və ailə üzvlərinizin foto şəkilləri, uşaqlarınızın hansı məktəbdə oxumaları, yaşadıqları ünvanları, bir sözlə, sizin bütün tərcümeyi-halınız aşkarlanıb. Bu sizə nə isə demir?

Polkovnik xəbəri eşidincə rəngi ağardı, bədəni titrəməyə, ürəyi döyünməyə başladı. Ayağa durdu, əlini başına qoyub, titrək səslə -bu ola bilməz Hacıyev, bu ola bilməz. Mənim uşaq-

larımın, ailəmin onlara nə maneçiliyi ola bilər?- deyə cavab gözləyirmiş kimi Hacıyevə sual etdi.

- Çalışırlar ki, siz hərbidən gedəsiniz, cənab polkovnik.

- Hə, onu düz deyirsən, dəfələrlə mənə ehtiyata çıxmaq, istirahətə getmək və ya arxa hərbi hissələrin birində komandir olmaq təkliflərini veriblər.

- Görürsünüz cənab polkovnik, düyün tədricən açılmağa başlayır.

- Ölsəm də öz mövqeyimdən və prinsiplərimdən dönməyəcəyəm.

Yaqub Qasımov məsləhət verdi:

- Cənab polkovnik, müqəddəsi kitabımız Quranı Kərimdə deyilir ki, harada olursunuz olun, hətta uca (möhkəm) qalalar içərisində olsanız belə, ölüm sizi haqlayacaq. Bu baxımdan ölüm haqdır. Ancaq düşmənlə üzbəüz olduğumuz bir məqamda biz ölmək deyil, öldürmək haqqında fikirləşməliyik.

Bəxtiyar Hacıyev:

- Cənab polovnik siz şəxsi heyətə vətəni necə sevmək, düşməni necə məhv etməyi öyrətmisiniz. Bu isə bəzi qüvvələrin planlarına uyğun deyil…

- Ona görə də, sizi fiziki cəhətdən aradan götürmək istəyirlər- deyə Yaqub Qasımov Hacıyevin demək istədiyi, amma tərəddüd etdiyi fikirlərini dilə gətirdi.

Məmməd Cavadzadə bu sözlərdən tövrünü pozmadı:

- Mən olmasam, sizlər olacaqsınız. Amma ailəmin təhlükə altında olduğunu dərk etdiyim üçün artıq fikirləşməli olacağam.

Yaqub Qasımov:

- Bəli, cənab polkovnik, bir qədər ehtiyatlı olmalıyıq. Mehdi Qələndərlinin öldürülməsinə görə sizi günahkar bilənlər var. Həmin maraqlı tərəflər sizdən qisas almağı planlaşdırır.

Bəxtiyar Hacıyev - bəli, bunları ki, bilirsiniz, - deyə olanları xatırlatmağa çalışdı.

- Hamısını bilirəm, Hacıyev. Amma kimlərin mənə qarşı hansı məkrli niyyətdə olmasının heç fərqində deyiləm.Yəqin ki, hərbi nəzarət idarəsi, eləcə də prokurorluq həbs olunan o iki əsgər və zabitlə bağlı sənin də, mənim də düşündüyümüz problemli məsələlərə aydınlıq gətirəcəklər.

Yaqub Qasımov ehtimallarını dilə gətirməli oldu:

- Qorxuram ki, kimlərsə o həbs olunan şəxslərin himayədarına çevrilsinlər.

- Bu mümkün deyil. Mən bu dəqiqədən etibarən həbs olunan şəxslərin istintaq prosesi ilə bağlı məsələləri nəzarətə götürəcəm.

Bəxtiyar Hacıyev:

- Bu lap yaxşı olar, cənab polkovnik.

- Amma hər halda, siz ehtiyatlı olun. Ailənizin də təhlükəsizliyi üçün onları müəyyən qədər təlimatlandırın.

- Yaxşı, Hacıyev, məsləhətlərinə görə sağ ol. İndi sən mənə de görüm ordu uğurlu əməliyyatları davam etdirməyə hazırdırmı?

- Bəli, cənab polkovnik hər şey hazırdır. Bütün tağım, bölük, alay və briqadalarda əməliyyatın uğurlu alınması üçün şəxsi heyət arasında böyük əhval-ruhiyyə mövcuddur.

Polkovnik:

- Bu çox yaxşı. Martın 21- i əməliyyat keçirib, Sərsəng su anbarını eləcə də, Ağdərəni düşməndən azad edərik. Bu, xalqımıza Novruz bayramı hədiyyəmiz olar. Bundan sonra Xankəndinə daxil olmağımız çətin olmayacaq.

Yaqub Qasımov qələbə müjdəsini eşidincə, uca səslə - inşallah- deyə bildirdi.

Söhbətin bu yerində Məmməd Cavadzadə ayağa durdu, bu isə artıq müzkirənin yekunlaşdığı demək idi.

Bəxtiyar Hacıyev sağollaşıb, qapıya doğru addımlayarkən, arxadan Məmməd Cavadzadənin səsi eşidildi:

- Hacıyev, Talıbdan nə xəbər var?

Bəxtiyar Hacıyev geri çevrilib, komandirin oturduğu masaya yaxınlaşdı.

- Cənab polkovnik, kəşfiyyat ötən gecə 15-20 nəfərlik mülki geyimli qadın, kişi və uşaqların bir neçə nəfər silahlının

müşayiəti ilə Ballıca qayanın ətəyindən Çinarlıya doğru hərəkət etdiklərini görüb.

- Necə - necə? Yəni, deyirsən o Talıb ola bilər?

- Başqa kim ola bilər ki, cənab polkovnik? Yəqin ki, yaxın saatlarda Talıb yanınızda olar.

- Bu yaxşı xəbərdir Hacıyev.

Yaqub Qasımovda sevincək halda söyləndi:

- Deməli, Talıb artıq ermənilərin belini qıran bir əməliyyata imza atıb?

Korpus komandiri:

- Amma mən heç inanmırdım. Düşünmürdüm ki, iki erməni kəndini keçib, korpus komandirinin evinə daxil olub, oradan qənimətlə geri qayıtmaq mümükün olsun. Amma onlar bacardılar. Əhsən, əhsən belə oğullara!

- Cənab polkovnik başqa bir kəşfiyyat məlumatına görə, Erkiş kəndindən Qara qayaya doğru erməni hərbi dəstələri hərəkət edir. Ola bilər ki, Samvelin dəstəsidir, Talıbı izləyirlər.

Məmməd Cavadzadə bu məlumatı eşidən kimi cəld ayağa durub Hacıyevə yaxınlaşdı.

- Deməli, Samvel Talıbı izləyir. Təcili tədbir görmək lazımdır. Fərəc Ağayevlə əlaqə saxla, dərhal Talıbın hərəkət edə biləcəyi ərazi üzrə kömək dəstəsi göndərsin.

-Baş üstə cənab polkovnik onu edərik.

Korpus komandiri Talıbla bağlı eşitdiyi xəbərdən sevincək olmuşdu. Əlini əlinə vurub, şövq ilə - bu Samvel Xaçaturyanın və bütün Daşnakstyun terrorçularının belinin qırılması deməkdir, - deyə gülə-gülə söyləndi. Sonra da Bəxtiyar Hacıyevə üzünü tutub:

- Hacıyev, mən səhəri gözləyə bilməyəcəm, elə bu gecə Bakıya çıxıram. Sən isə dediyim kimi, Fərəc Ağayevlə əlaqə saxla, qoy Talıba köməyə dəstə göndərsin.

Bəxtiyar Hacıyev narahat oldu:

- Cənab polkovnik, artıq gecə düşür, sizin Bakıya yola çıxmağınız, təhlükəli ola bilər. Ona görə də "gecənin xeyrindənsə, gündüzün şəri yaxşıdır" deyiblər.

Yaqub Qasımovda polkovniki fikrindən daşındırmağa çalışdı:

- Polkovnik, tərslik etməyin, Bakı qaçmır ki, eybi yoxdur, get, amma səhər.

Polkovnik israr etdi:

- Yox, mən getməliyəm, Talıbın bu cür qəhrəmalığı məni daha da ruhlandırdı.

Bəxtiyar Hacıyev komandirin gecə vaxtı yola çıxmasının qarşısını almaq üçün uğursuz cəhd etdi:

- Cənab polkovnik bəlkə də o, dəstə Talıb deyil.Çoban-çoluq, qoyun-quzu sahibləridir yol keçirlər.

- Uşaqlıq etmə Hacıyev, çoban-çoluqda silah, avtomat, hərbi geyim-kecim olur? Bu elə Talıb olacaq. Mən artıq əminəm ki, o Talıbdır.

Korpus komandiri fikrini tamamlayıb, - Ağayev, Ağayev - deyə səsləndi.

Sanki qapının ağzında onu dinləyirdilər, dərhal Yavər Ağayev içəri daxil olub,- əmrinizlə gəlmişəm cənab polkovnik, - deyə məlumat verdi. Korpus komandiri Ağayevə üzünü tutub dedi:

-Ağayev Bakıya gedirik, amma sürücü qalsın, maşını özün idarə elə.

- Baş üstə cənab polkovnik, mən maşını işə salıb, sizi gözləyirəm.

Bəxtiyar Hacıyev isə çarəsiz şəkildə korpus komandirinə baxdı. Artıq onu fikrindən döndərə bilməyəcəyini də dərk etmişdi. Yaxınlaşıb, onu qucaqlayıb qardaş məhəbbəti ilə öpdü. Polkovnik təəccübləndiyindən, Hacıyevin üzgün simasına baxıb dedi:

- Hacıyev, narahat olma. Bir gün sonra yenidən burda görüşəcəyik.

Hacıyev dərindən, yanıqlı ah çəkib, dedi:

- Cənab polkovnik, Allah amanında.

Polkovnik:

- İnşallah hər şey yaxşı olacaq.

Hacıyev ağzını açıb. Amm... dediyi zaman korpus komandiri ona fikrini tamamlamağa imkan vermədi:

- Amması yoxdur, Hacıyev, mən bu gecə Bakıya çıxıb, səhər Müdafiə Nazirliyində olacam, Qərargah rəisi ilə görüşüb, hərbi durum, əməliyyat barədə, eləcə də özüm və ailəmlə bağlı olan məsələləri onunla müzakirə edəcəyəm. Düşündüklərimi və fikirləşdiklərimi təxirə sala bilmərəm. Sabah axşam geri qayıdıb, növbəti gün əməliyyatın vaxtını müəyyənləşdirmək üçün hərbi şuranın iclasını keçirərik.

Korpus komandiri fikrini tamamlayıb qapıya yaxınlaşdı.

Həyətə çıxınca, Yaqub Qasımov da artıq komandiri gözləyən villisə yaxınlaşdı. Əlini uzadıb, maşının arxa qapısını açdı - mən də sənlə yol yoldaşı olacağam, yəqin etiraz etməzsən, - deyə bildirdi və komandirin nə cavab verəcəyini gözləmədən, keçib maşının arxa oturacağında əyləşdi. Polkovnik, bir söz demədi, başını yelləyib, gülümsədi. Köməkçiləri və zabit heyəti polkovniki maşına minib, yola çıxana qədər müşayiət etdilər. Bəxtirar Hacıyev isə narahat idi. O sanki donmuşdu, dinib danışmırdı. Qeyri-ixtiyari gözlərinin dolduğunu, hiss etdi. Elə bil ürəyinə dammışdı, nəsə olacaq. Düz deyiblərmiş, sevdiklərinin üzləşəcəyi faciələr əzizlərinə əvvəlcədən bəlli olur. Villis düşməndən təmizlənən Əskərən qəsəbəsinin çala-çuxur yolunu keçib, Naxçıvanikə istiqamət aldığı məqamda böyük gurultu qopdu. Ah-nalə səsi eşidildi -

Komandiri vurdular. Bəxtiyar Hacıyev acı xəbəri sona qədər eşidə bilmədi. Onu tər basdı, dizləri üstə yerə çöküb, var gücü ilə qışqırdı- Allahım, bu zülmü niyə götürürsən!

*** *** ***

Alay komandiri Fərəc Ağayevdən eşitdiyi xəbər Talıbı tam sarsıtmışdı. İnana bilmirdi. Necə yəni, korpus komandiri Məmməd Cavadzadə atəşə tutulub, maşını partladılıb. Talıb oturduğu stolda önündəki masaya alnını söykəyib, iki əli ilə başını tutdu. Onu hıçqırıq bürümüşdü, için-için ağlayırdı. Fərəc Ağayev onu toxtatmağa, sakitləşdirməyə çalışsa da Talıb özünə gələ bilmirdi. Bir neçə saniyə sonra hıçqırığını kəsən Talıb başını qaldırıb Fərəc Ağayevin üzünə baxmadan - bu necə ola bilər axı, kəşfiyyat harada idi, mühafizəçilər nə işlə məşğul idilər - deyə artıq neçənci dəfə idi ki, eyni sualı təkrarlayırdı. Fərəc Ağayev Talıbı başa düşdüyündən növbəti dəfə səbirlə onu başa salmağa çalışdı.

Talıb ayağa durub, yanaqlarından çənəsinə doğru süzülən göz yaşlarını, ovcunun içi ilə silib, bu ağsaqqal, müdrik komandirin üzünə narahat baxışlarla baxıb dedi:

- Fərəc əmi, biz itirə-itirə gedirik. Bunun sonu olacaqmı?

Söz Fərəc Ağayevi tutduğundan bir anlıq nə cavab verəcəyini bilmədi.

Xəyaldan onu Talıbın əlini onun qoluna toxundurması ayıltdı:

- Fərəc əmi, sizinləyəm bunun sonu olacaqmı?

Fərəc Ağayev - mən də bilmirəm, - deyə çarəsiz şəkildə Talıbın sualına cavab verdi.

Talıb da deyəsən, Fərəc Ağayevi başa düşdü. Ona görə də sualları ilə onun üstünə çox getmək istəmədi. Bir daha Məmməd Cavadzadənin sağlamlıq durumu ilə maraqlanmaq üçün sual etdi:

- Fərəc əmi, yaşamağına ümid varmı?

- Göydə Allaha, yerdə həkimlərə ümid bəsləyirik. Hazırda Ağdam xəstəxanasındadır, oradan da Bakıya aparacaqlar.

Talıb bir anlıq fikrə gedib, Fərəc Ağayevə növbəti sualını verdi:

- Yəqin, Məmməd Cavadzadə sağ qalsa belə, bu yerlər bir daha onun səsini eşitməyəcək, eləmi?

Fərəc Ağayev Talıba ümid vermək üçün dedi:

- O, öz məsləhətlərini ehtiyatda olduqdan sonra da verməkdə davam edəcək. Onun xarakterinə bələdəm, yenə də, məsləhətləri ilə bizimlə bir yerdə olacaq.

Talıbın əsəbi səsi eşidildi. - Məmməd Cavadzadənin olduğu maşını vurmaq Samvelin işidir, onu mütləq öldürmək lazımdır, - deyib stolun üstündəki tapançasını götürdü.

Fərəc Ağayev ağsaqqal məsləhəti verdi.

- Oğul, sövdələşmə, razılaşma olub. Görüş silahsız olmalıdır.

Talıb bir anlıq susdu. Sonra da tapançanı götürdüyü yerə qoydu.

Fərəc Ağayev köməkçisi Şahmar Quluyevi çağırmaq üçün Şahmar, Şahmar - deyə- iki dəfə səsləndi. Otağa çavuş libasında ucaboy, enlikürək, qıvrımsaç gənc daxil oldu. Hərbi salam verib, - əmrinizlə gəlmişəm cənab komandir, - dedi.

Fərəc Ağayev sual etdi:

- Erməni zibillərinin bizim sırxavəndli girovlarla dəyişdirilməsi üçün hazırlıq yekunlaşıbmı?

Gənc Çavuş - bəli, cənab komandir, - deyə bildirdi. Dərhal da əlavə etdi:

- Bütün lazımi işlər yekunlaşıb, artıq erməni tərəfi dəyişdiriləcək sırxavəndlilərin tam siyahısını bizə təqdim edib. Biz də onlara Talıbın gətirdiyi girovların tam siyahısını vermişik. Sarı bulaq istiqamətində dəyişmənin insidentsiz başa çatacağına ümid bəsləyirik.

Fərəc Ağayev bir daha göstəriş verdi:

- Ehtiyatı əldən verməyin. Ətrafa snayperlər yerləşdirilməsi yaddan çıxmasın. Mən də indi girovların dəyişiləcək yerə gedirəm.

- Oldu, cənab komandir, - deyə çavuş bildirdi.

Talıb Fərəc Ağayevlə köməkçisi arasında gedən söhbəti sanki eşitmirdi. Fikri, xəyalı mühafizəçinin və Yaqub Qasımovun ölümü, Məmməd Cavadzadənin isə, ağır yaralanması ilə nəticələnən terror aktı çevrəsində cövlan edirdi. O fikirləşirdi ki, əgər bu yerlərin hər qarışına, cığırına bələd

olan, hər cür döyüş taktikasına yiyələnən, hərbi biliyə, savada malik komandiri sıradan çıxardırlarsa, deməli, onları aradan götürmək, zərərsizləşdirmək daha asan olar. - Mən getməliyəm - öz-özünə qərar verdi.

Deyəsən, Fərəc Ağayev onun pıçıltı ilə dediyi sözləri eşitmişdi. Köməkçisi otaqdan çıxınca - oğul, başa düşmədim hara getmək fikrindəsən, - deyə sual dolu nəzələrlə Talıba baxdı.

- Qeyri-bərabər ədalətsiz bir döyüşdür. Bilmirik özümüzü öndən gələndən qoruyaq, yoxsa arxadan vurulacaq zərbədən müdafiə olunaq. Çarəsiz və çıxılmaz bir vəziyyətdəyik.

- Nahaq elə fikirləşirsən. Azərbaycan ordusu formalaşmaqdadır. Hərbiyə yeni-yeni bilikli, savadlı insanlar gəlməkdədir. Sən də bizim aramızda olacaqsan, bir yerdə düşməni gəldiyi yerə qədər qovacağıq.

- Bağışlayın, Fərəc əmi, bu mənlik deyil.

- Başa düşmədim, sən yəni gedirsən?

- Bəli, mən ailəmin və nəslimin qisasını aldım. Növbə erməni vəhşiliyindən əziyyət çəkən digər insanlarındır.

- Kobud səhvə yol verirsən. Fərdi qaydada aparılan döyüş bizim üçün xeyirli olmaz. Bölə-bölə bizi məhv edərlər, bunun fərqindəsən?

Talıb gözlərindən süzülən yaşı silib dedi:

- Partizan hərəkatı olsun. Qoy, ailələr, kəndlər dağlara çıxsın, meşələrdə gizlənsin, ermənіyə qarşı müharibə aparsın, döyüş keçirsin. Erməni kəndlərinə, qəsəbələrinə hücum edib, onları qorxu, vahimə içində saxlasın.

Fərəc Ağayev onu başa düşsə də həmrəylik nümayiş etdirmədi, məsləhət verdi.

- Oğul, artıq Böyük Vətən Müharibəsi deyil ki, ucu-bucağı görünməyən Rusiya çöllərində partizan hərəkatı təşkil etməklə faşizmə qarşı döyüş aparılsın.

- Mümkün olmayan iş yoxdur.

- Qarabağ partizan hərəkatı üçün münasib ərazi deyil.

- İstəsək edərik. Necə oldu ki, biz 5 nəfərlə böyük bir ərazini qət edib, Samvelin ailəsini girov götürdük. İndidə onları azad etməyimiz qarşılığında Sırxavənddən əsir və girov götürülən insanlara, eləcə də mənim kənddə evimizin həyətində dəfn edilən atamın, bacımın və dayımın cənazələrinə dəyişirik.

Fərəc Ağayev:

- Bunu bir şansa bağlayaq. Qar-çovğunlu hava əməliyyatınızın uğurla başa çatmasına yardımçı oldu.

- Başqaları da bizim kimi hərəkət etsə, nəticə olar.

- Mən belə düşünmürəm. Ən yaxşısı vahid komandanlıq altında birləşməyimizdir.

- Mən o orduda ola bilmərəm.

Fərəc Ağayev:

- Başa düş ki, çoxsaylı özünümüdafiə batalyonları ləğv edilir və əvəzində düşməni yerində oturda biləcək vahid ordu yaradılır.

Fərəc Ağayev səsinin tonunu bir qədər aşağı salıb sakit səslə dedi:

- Oğul, Samvel ilə görüş ərəfəsində istəmirəm ki, sən gərginlikdə olasan. Özünü topla və hazırlaş.

Talıb çox ciddi görüş ərəfəsində olduğunu və təqribən 35-40 dəqiqə sonra Samvellə üz-üzə, göz-gözə gələcəyini anladı. Ona görə də söhbətin mövzusunu dəyişmək üçün dedi:

-Çox istərdim ki, onunla görüşdə təpəsinə bir güllə vurub, cəhənnəmə vasil edim.

- Özünü ələ al, nəzərə al ki, ətrafda onların snayperli əsgərləri olacaq.

- Olsun. Bilərəm ki, bir yaramazı, bir şərəfsiz ermənini də yer üzərindən silə bildim.

- Talıb, hissə qapılma. Ermənilər ancaq Samveldən ibarət deyil. Samvel ölsə, başqa bir Samvel ortaya çıxacaq. Lazımdır ki, onların mərkəzini dağıdıb, yuvalarını alt-üst edək. Silah verənlərini, təlimat, göstəriş verənlərini məhv etmək, sıradan çıxarmaq lazımdır.

- Bu, dövlətin vəzifəsidir.

- Dövlət də səndən, məndən ibarətdir.

- Fərəc əmi, mövzunu qapatsaq yaxşı olar, yenə deyirəm, mən anamı, qardaşımı girovluqdan azad etdikdən sonra, bu yerlərdən çıxıb gedəcəyəm.

- Hara gedəcəksən?

- Bilmirəm, hara gedəcəm, amma gedə-cəyəm. Dediyiniz o, vahid ordu yaradılsa, onun sıralarında xidmət edərəm. Amma unutmayın ki, ermənini məhv etmək, birdəfəlik susdurmaq üçün partizan hərəkatına ehtiyac var.

- Sən öz fikrində qal, mən də öz fikrimdə, hələlik isə görüşə hazırlaş.

Fərəc Ağayev sözünü deyib, ayağa durdu. Talıbı qucaqlayıb, bağrına basdı, üzündən öpdü. Göstərdiyi şücaətə, qəhrəmanlığa görə minnətdarlığını bildirdi. Samvel kimi qaniçənin evinə girib, onu mənən, ruhən məhv etməyin böyük bir qələbə olduğunu söylədi.

Talıb da göstərdikləri dəstəyə görə sağ ol dedi. Bir daha terror qurbanı olan qardaşı oğlu Yavər Ağayevin vəfatı il bağlı ona başsağlığı verdi. Fərəc Ağayev - şəhidlərimizə rəhmət – deyib, nəmlənən gözlərini sildi. Səsi titrəyə-titrəyə sonuncu dəfə Talıba məsləhət verdi:

- Səni yenə də dostun Alı Məmmədov müşayiət edəcək, amma o çalışacaq ki, Samvel onu görməsin.

- Olsun, - başını aşağı salan Talıb dilucu söyləndi.

Bundan sonra Fərəc Ağayev otağı tərk etdi. Talıb isə hazırlığa başladı.

Ağ yun jaketinin üstündən qalın qara rəngli gödəkcəsini geyindi. Razılaşmaya əsasən, başına ağ papaq qoydu. Ehtiyat üçün razılaşmanın əksinə olaraq tapançasını belinə bağladı. Yaxınlaşıb pəncərədən ətrafı seyr etdi. Külək, çovğun kəssə də qar yenə yağmaqda idi. Amma əvvəlkinə nisbətən yağan qar, seyrək və narın idi. Otağa bir daha nəzər yetirdikdən sonra çölə çıxdı. Həyətdə əsgərlər ora-bura vurnuxurdular.

Mürsəl, İlkin, Alı Məmmədov da baş-başa verib, nədənsə söhbət edirdilər. Talıbı görən kimi ona yaxınlaşdılar. Salam-kalamdan sonra görüşdən söhbət açdılar. Mürsəl yenə də xasiyyətinə uyğun olaraq ona görüşə tək getməməsini məsləhət gördü. Alı ilə İlkin də eyni fikirdə olsalar da Talıb fikrində qərarlı idi. Kişi kimi sözünün üstündə durmalı və Samvellə təkbətək görüşməli idi. O iki gün öncə, aparılan intensiv danışıqlarda əldə olunan razılaşmanı poza bilməzdi. Bu onun zəifliyi, qorxaqlığı kimi yozulardı. Talıb isə erməninin qarşısında aciz durumda olduğunu göstərə bilməzdi. Ona görə də yenə də dostlarına - siz burada qalın, - deyə qəti sözünü dedi. Daha sonra İlkin, Mürsəl və Alı Məmmədovla qucaqlaşdı. Gözləri ilə Fərəc Ağayevi aradı. Görə bilmədi. Diqqətlə ətrafa nəzər yetirəndə, Fərəc Ağayevin girovların dəyişdirilməsi üçün artıq, Sarı bulaq istiqamətində olduğunu gördü. Təskinlik

tapdı, sevindi də, zəhmətləri, həyatlarını riskə atmaları əbəs olmayıb. Yaxın dəqiqələrdə sırxavəndli əsir və girovlar, o cümlədən anası və qardaşı azad ediləcəklər. Talıb nəzərlərini girovların dəyişdiriləcəyi nöqtədən çəkib dostlarından aralandı. Görüşün keçirilməsi üçün nəzərdə tutulan Sarı bulağın alt hissəsindəki şum sahəsinin yanındakı çinar ağacına tərəf addımladı. Artıq Samvel də nişan verilən yerə doğru addımlayırdı. Talıb ehtiyatla şum sahəsinin suvarılması üçün qazılan arxı keçib, uçuq-sökük gözətçi damının yanında ayaq saxladı. Oradan müəyyənləşdirilən görüş yerinə 20-30 metrlik yol qalırdı. Ətrafa nəzər saldı, sakitlikdi. Şübhəli nəsə gözə dəymirdi. Öz-özünə fikirləşdi ki, Fərəc Ağayev düz deyir, yəqin kolun- kosun, daşın arxasında erməni snayperləri gizlənirlər.

- Cəhənnəmə gizlənsinlər, dəyişmə yekunlaşdıqdan sonra Samveli cəhənnəmə göndərib, aradan çıxaram, - deyə söyləndi. Amma tez də fikrini dəyişdi.

- Yox, atışma yenicə yaranan sakitliyin pozulmasına və aktiv döyüşlərin başlanmasına rəvac vermiş olar.

Talıb beynində çox get-gəl etdi. Bu fikirlərlə də artıq çinar ağacının altında dayanıb, onu gözləyən Samvelə yaxınlaşdı. Talıb Samveli ilk baxışdan tanıya bilmədi. Üzləşdiyi faciədən onun beli bükülmüş, arıqlamış, ağlamaqdan gözləri şişmişdi. Bu özündən razı, təkəbbürlü, iddialı ermənidə yazıq,

bədbəxt bir insan görkəmi qalmışdı. Üz-üz dayanınca Samvel Talıba qəzəblə baxıb, əsəbi formada qışqırdı:

- Sən, gecə quldurları kimi davrandın. Evimə basqın edib, yaşlı atamı-anamı öldürüb, sonra da yandırdın. Ailəmi girov götürüb, əzablara, işgəncələrə düçar etdin. Bunun bədəlini mütləq ödəyəcəksən...

Talıb ona fikrini tamamlamağa imkan vermədi, sözünü kəsib, bu dəqiqə yumruqla onun çənəsinə zərbə endirəcəymiş kimi əl- qolunu yelləyib, sərt şəkildə dedi:

- Gecə oğrusu və quldurbasan sən və sənin terrorçu dəstən idi ki, toyumu yasa çevirdin. Atamı, bacımı, nişanlımı öldürüb bizə dağ çəkdin, anamı, qardaşımı girov aparıb, bizə acılar yaşatdın. Sən cavab verməli idin, amma yerinə ailən, əzizlərin qurban getdi. Amma gün gələcək ki, sən də cavab verəcəksən.

- Mən müharibə qanunlarına uyğun hərəkət etmişəm. Müharibə meydanında, döyüşdə qələbə qazanıb, uğur əldə etmişəm. Qənimətimiz isə sizin torpaqlar, var-dövlətiniz və insanlarınız olub.

- Siz dünyanın hansı rəngdə olduğunu dərk etməyən körpə uşaqları öldürdünüz, yaşlı kişi və qadınları işgəncə ilə məhv etdiniz. Bu, müharibə qanunlarıdır?

Samvel üzgün və ağır durumda olmasına baxmayaraq özünü qürurlu göstərməyə çalışdı. Elə eyni təkəbbürlə də Talıba cavab verdi.

- Qalibləri səndən fərqli olaraq mühakimə etmirlər, alqışlayırlar. Qalib əsgər qənimət əldə edirsə, onunla necə davranmağı da özü müəyənləşdirir.

Samvel danışdıqca, Talıb yumruğunu düyünlədi, bir anlıq düşündü ki, bu şərəfsizi bir fəndlə yerə yıxsın, ağzını əzib, sonra da təpəsinə bir güllə vursun. Amma tez də fikrini dəyişdi. Başa düşdü ki, adi ehtiyatsızlıq Məmməd Cavadzadənin komandanlıqda olmadığı bir vaxtda, kütləvi qan tökülməsinə gətirib çıxara bilər. Ona görə də səbrlə dedi:

- Müharibə qanunlarına görə, mülki insanlara toxunulmur. Əziyyət çəkənlərə, darda olanalara kömək edilir, yardım göstərilir. Bu ənənənə min illərdir ki, var və bu gündə dünyanın münaqişəli bölgələrində tətbiq olunmaqdadır. ..

Samvel Talıbın sözünü kəsmək istədi, amma Talıb əlini ona silkələməklə sözlərini davam etdirdi:

- Sizlər vandalizm aktları törədirsiniz. İnsanları kütləvi şəkildə qətlə yetirməklə, mədəniyyət nümunələrini, tarixi abidələri də dağıdırsınız.

- Mən dediyin o müharibə qanunlarını nə oxumuşam, nə də eşitmişəm.

- Sənin öldürməkdən, qan tökməkdən özgə bildiyin varmı? Düz deyiblər ermənidən insanlıq ummaq sadəlövhlük olar. Amma bil ki, ən böyük humanizm insanlıq qanunudur.

Samvel sanki, bu fikri gözləyirmiş, əfi ilan görkəmi alıb, ağzı köpüklənə - köpüklənə dedi:

- Hansı insanlıq qanunundan danışırsan ki, qoca atamı, anamı yatdıqları çarpayıda öldürüb, sonrada yandırdın. Bir yaşlı körpə uşağıma işgəncə verib, onu günlərlə ac saxladın. Hansı insanlıq qanunundan danışırsan ki, girov apardığın qadınları kütləvi şəkildə zorlayıb, döyüb, təhqir edib, video lentlərə çəkmisən.

Talıb bu bədbəxti başa salmaq üçün ona bir addımda yaxınlaşdı, üzbəüz dayandılar. Hətta nəfəsləri belə bir-birinin üzlərinə dəydi. Talıb şəhadət barmağını onun sinəsinə qoyub, dedi:

- Siz ermənilər tarixi saxtalaşdırmağa cəhd etdiyiniz kimi, xalqlara qarşı irəli sürdüyünüz şər və böhtanlarınızlada saxtakarlığınızı davam etdirirsiniz. Danışdıqların da növbəti saxtakarlıqlarınızdan biridir.

- Siz azərbaycanlılarda aydan arı sudan duru deyilsiniz.

- Hər halda, sizlərdən üstün, kamil və müdrik xalqıq. Başqalarının torpağında da gözümüz yoxdur.

- Amma gecə arvad, uşaq üstünə hücum edib, onları öldürməyi bacarırsınız.

- Özün bilirsən ki, bizim davamız arvad uşaqla deyil.

-Mənim evimə hücum çəkməyinin adı nədir bəs?

- Sən mənim ailəmi məhv etdin, dağıtdın, o kənddəki uşaqlıq, gənclik xatirələrimi əlimdən aldın. Qarşılığında mən də sənə yaşadığım acıları, keçirtdiyim iztirabları, düşdüyüm agır durumu yaşatmağa qərar verdim və qərarımı da yerinə yetirdim.

Samvel nifrət dolu nəzərlərlə Talıba baxıb, kinayə ilə dedi:

- Bu halda insanlıq qanunundan danışma.

Talıb, onun dediyinə fikir vermədən sözünə davam etdi:

- Sənin etdiyin vəhşiliklərin bədəlini təəssüf ki, əzizlərin, yaxınların ödədilər. Amma gec-tez sən də layiq olduğun cəzanı alacaqsan.

Samvel özünü o yerə qoymadı:

- Biz yaxın vaxtlarda işğal etdiyiniz Əskəranı, Şaumyanı, Naxçıvaniki, Şöş və Xramortu, Xanabadı və digər əraziləri azad edəcəyik. Yevlaxa, Gəncəyə qədər gedib çıxacağıq. Yerin deşiyində də olsan, sən Talıbı tapıb, cəzanı verəcəyəm.

Talıbı acı gülüş bürüdü. Qaşlarını çatıb, barmağını silkələyib dedi:

- Biz artıq Ağdərəni, Sərsəng su anbarını nəzarətə götürmüşük. Yaxın günlərdə Xankəndində olacağıq, az sonra Zəngəzurda, Göyçədə bizim əsgərlər küncdə-bucaqda gizlənən

sənin kimiləri tutub, ədalət mühakiməsinə verəcək. Tələsməyin, o gün heç də uzaqda deyil.

Samvel hədədən qorxsa da, hislərini büruzə verməməyə çalışdı. Amma əllərinin əsməyindən, solğun üzünün bir qədər də saralmağından, onun çox ciddi təlaş keçirdiyi sezilirdi. Sağına-soluna, onlardan girovların dəyişdirilməsi işarəsini gözləyən Sarı bulaq tərəfdə dayanan adamlara tərəf boylandı.Yenidən Talıb baxıb, dedi:

- Xəbərin olsun ki, biz öz qüvvələrimizi dostlarımız hesabına möhkəmlətmişik. Gücümüzün isə necə dəhşətli olduğunu sizə göstərəcəyik.

Talıb xatırlatma etdi, misal çəkdi:

- Bizdə bir el məsəli var, deyirlər it niyə hürürsən, deyir qorxuduram. Deyirlər onda niyə quyruğunu bulayırsan, deyir qorxuram. İndi siz ermənilər də, quyruğunu bulayan itə oxşayırsınız. Rusa, iranlıya, gəlmə muzdlu dəstələrə arxalanıb, torpaq qəsb etmək iddiasına düşmüsünüz. Arzularınız gözünüzdə qalacaq.

- Sizin kəndə heç bir kənar qüvvənin dəstəyi olmadan gəlmişdim. O biri kəndlərinizə də rusların iştirakı və köməyi olmadan gedəcəyik.

- Hər halda, sizi təlimatlandıran, silah-sursat verən rusdur. Canlı qüvvələriniz olan muzdurlar isə xarici ölkələrdən

gəlir... Nə isə gəl işarə verək, girovların dəyişdirilməsi başa çatdırılsın.

Sözünü bitirən kimi, Samvel bir anlıq çevrilib, onların işarəsini gözləyən dəyişmə nöqtəsinə baxdı, sonra da ağ papağını çıxardıb, yuxarı qaldırdı. Talıb da eyni hərəkəti etdi. Bu isə artıq girovların dəyişdirilməsinə başlamaq əmri demək idi.

Əsgərlərin, eləcə də mülki şəxslərin hərəkətə gəlməsi girovların dəyişdirilməsinə start verilməsindən xəbər verirdi.Talıb bir qədər rahatlıq tapdı. Deməli, yaxınları əsirlikdən azad olunur, ölən doğmalarını dəfn-kəfin edə biləcəklər.

Samvel aşağı əyilib, qardan bir ovuc götürdü. Əllərini qar ilə təmizlədikdən sonra əvvəlki iddialı, təkəbbürlü fikirlərindən fərqli olaraq zəif pıçıltılı səslə dedi:

- Talıb, sən qalib gəldin, tatamidə olduğu kimi. Sən topun, tüfəngin bacarmadığını, bir ordunun göstərə bilməyəcəyi şücaəti, qəhrəmanlığı etdin.

Talıb erməni hiyləgərliyinin işə düşdüyünü anladığından nəsə baş verəcəyini təxmin etdi və bir qədər diqqətli olmağa qərar verdi. Özünü toplayıb, ehtiyatla Samvelin hərəkətlərini izləməyə, eyni andada ətrafı nəzərdən keçirməyə başladı.

Samvel isə titrək səslə fikirlərini davam edirirdi:

- Talıb, müharibə mənim hər şeyimi əlimdən aldı. Atamı, anamı, qardaşımı, bacımı məhv etdi, isti ocağımı dağıtdı. Üstümüzdə yüz illər sonra belə götürülməsi mümkün olmayan ləkə qaldı.

Talıb, tövrünü pozmadan dedi:

- Mən qisasımı aldım. Bil ki, sabah başqa talıblar meydana çıxacaq. Onlar sizlərdən, sənin qonşundan, qohumundan, kəndçindən, şəhərlindən öz qisaslarını alacaqlar. Bu, mütləq olacaq.

- Bilirəm, bilirəm, - deyə Samvel yazıq-yazıq söyləndi. Sonra da dedi:

- Mən 1 yaşlı uşağımı da götürüb, bu yerlərdən gedirəm.

- Özün bilərsən, qalsan hansısa baxımsız, gözdən-könüldən uzaq bir yer sənin qəbrin olacaq.

Samvel əlində tutduğu papağını başına qoyub, sağollaşmadan Talıbdan aralandı. Ancaq iki addım atmamış çəld hərəkətlə geri çevrilib, belindən çıxartdığı tapançasını Talıba tuşladı. Söz demək istəyərkən Alı Məmmədov gizləndiyi kolun arxasından çıxıb, sinəsi ilə Talıbın qarşısını kəsdi. Eyni anda da tapançasını Samvelə tuşlayıb, iki dəfə atəş açdı. Gurultu qopunca hər iki tərəfin bir-birinə tuşladığı silahlar işə düşdü. Bu məqamda Talıbla, Samvelin hərəkətlərini izləyən erməni sınayperçilərinin atdığı güllə Alı Məmmədovun sinəsinə dəydiyindən, o, bir anlıq səntirlədi, sonrada dizləri

üstə yerə çökdü. Çaşqın halda olan Talıb ilk öncə silahını belindən çıxarıb, hələ də yaralı olan Samvelə ardıcıl bir neçə dəfə atəş açdı. Alı isə . - Mən ölürəm Talıb, - deyib gözlərini yumdu, ani sonra güclə də olsa göz qapaqlarını qaldırıb Talıba baxdı, pıçıltı ilə - bu məktubu anama, verərsən, Aysuna da deyərsən ki, məni bağışlasın, hərənin bir qisməti var, onun qisməti Qarabağ müharibəsində şəhid oldu - deyib ovcunda tutduğu məktubu Talıba uzatdı. Talıb məktubu alıb, şalvarının yan cibinə qoydu, sonrada vaxt itirmədən Alını döyüş meydanından çıxartmaq üçün onun gödəkcəsindən tutub, sürüyə-sürüyə gözətçi daxmasının arxasına gətirdi. - Alı, Alı - deyə dostunu səslədi. Səs çıxmadığını görüb, onun boynunu qucaqlayıb, hıçqırtı ilə ağladı.- Mən sənə minnətdaram Alı. Sən şirin canını mənə görə qurban verdin. Haqq dünyasında səndən halallıq istəyəcəm. Ruhun şad olsun qardaşım. Allah sənə rəhmət eləsin - deyə ağlaya-ağlaya söyləndi. Az sonra əsgərlərin köməkliyi ilə Alı Məmmədovun cənazəsi və Talıb döyüş meydanından çıxarılıb, Gülab talasına gətirildi. Talıb sakitləşmək bilmirdi, Alını itirdiyinə görə, için-için ağlayırdı. Onları əhatəyə alan əsgər yoldaşlarıda Alı Məmmədovun ölümündən üzülürdülər. İki bir-üç bir kənara çəkilib, göz yaşı tökürdülər. Fərəc Ağayev əsgərlərin arasından keçib, Talıba yaxınlaşdı. Əlini onun çiyninə qoyub, Alı Məmmədovun ölümünə görə hər kəsə baş sağlığı verdi. Sonra da köməkçisi

Şamxala Alı Məmmədovun cənazəsinin məscidə aparılıb, dini ənənələrin icrasından sonra evlərinə yola salınması göstərişini verdi. Əsgərlər son dəfə öz dostluq borclarını yerinə yetirmək üçün, Alının cənazə-sinə yaxınlaşdılar, onu çiyinlərinə qoyub, kənd məscidinə doğru hərəkət etdilər. Talıb isə üzgün şəkildə əsgərlərin Alı Məmmədovun cənazəsini götürüb, aparmalarına baxdı. - İndi Oruc Muradovla, Alı Məmmədovun ruhları da birləşəcəklər. Allah sizlərə rəhmət eləsin, - deyə Talıb pıçıltı ilə öz-özünə söyləndi. Bu zaman qarşı tərəfdən - Talıb, ay Talıb, ay oğul - deyən səs eşidildi. Səs Talıba doğma gəldi, diqqətlə baxanda anasını tanıdı. Onun yanındakı qardaşı Azər idi. Arxadan isə Şamil və bacısı Məsmə gəlirdi...

Talıb, onlara yaxınlaşdı. Qəm-qüssə dəryasında olan ailə bir-birini görəndə, bir o qədər sevinmədilər. Çəkdikləri dərdləri çox ağır idi. Bu dərddən, qəm-qüssədən də azad olmaq üçün uzun vaxt lazım gələcəkdi... Talıb anasına - ana gedək, gedək atamızı, bacımızı, dayımızı dəfn edək, onlar qarşısında son borcumuzu da yerinə yetirək, - deyib önə keçdi.

Ana göz yaşlarını silib, - gedək oğul, gedək - deyib yol ayrıcına çıxdılar.

Fərəc Ağayev isə donmuş halda Talıbı və onun ailəsini nəzərləri ilə onlar gözdən itənə qədər izlədi...

SON

Müəllifin kitabları




İLHAM ƏLİYEV
GECƏNİN RƏNGİ
İLHAM ƏLİYEV
GECƏNİN RƏNGİ

İNSANLIĞA XİDMƏT
İNCƏ DƏRƏSİ

İLHAM ƏLİYEV

GECƏNİN RƏNGİ

Müəllifnən əlaqə:
Tel: 055-219-63-84, 050-551-02-80
Email: İlxan-68@mail.ru